QARABAĞ AZƏRBAYCANDIR!

RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 202 (8518) ŞƏNBƏ, 3 oktyabr 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



## İlham Əliyev tarixi ədaləti sərkərdə qətiyyəti ilə bərpa edir

### Qarabağda beynəlxalq hüququn norma və prinsiplərini bərpa edən Azərbaycana qarşı bəzi xarici şəbəkələr tərəfindən aparılan kampaniya qərəzli və əhəmiyyətsizdir

**Ermənistanın uzun müddətdir ki, Azərbaycana qarşı həyata keçirdiyi siyasi və hərbi təxribatlar bumeranq effekti ilə onun özünə dəyməkdədir. Sentyabrın 27-də işğalçı ölkənin növbəti hərbi təxribatının qarşısını alan Azərbaycan Silahlı Qüvvələri bu dəfə düşmənə gözünü açmağa belə imkan vermədi.**

Artıq bir neçə gündür ki, Ermənistan tarixinin ən böyük faciəsini yaşamaqdadır. Ölkənin hər yerinə ordumuzun məhv etdiyi erməni əsgərlərinin meyitləri daşınır, xəstəxanalarda yaralılara yer tapılmır. Bəli, Azərbaycan torpaqlarında olan hər bir erməni əsgərinin aqibəti belə olacaq.

#### Azərbaycan Ermənistanı peşman etdi

Bu faciəni Ermənistana illərdir torpaqlarını işğal altında saxladığı Azərbaycan dövləti yaşadır və yaşadacaq. Belə bir fürsəti isə elə Ermənistanın özü yaratdı. Keçən ilin avqustunda Paşinyanın "Qarabağ Ermənistandır" deməsi, bu ilin iyulunda Tovuz rayonuna hücum olunması, könüllü hərbi birliklərin yaradılmasına başlanılması, rəsmi Yerevanın və separatçı rejim təmsilçilərinin sərsəm bəyanatları Ermənistanda Azərbaycana qarşı hazırlanan yeni işğal planlarından xəbər verirdi.

Təbii ki, bu kimi narahatlıq doğuran məsələlər Azərbaycan tərəfindən zamanında beynəlxalq təşkilatlara, ayrı-ayrı dövlətlərin diqqətinə çatdırılmışdı. Prezident İlham Əliyev Ermənistanın son hərbi təxribatından 6 gün əvvəl - sentyabrın 21-də BMT-nin 75 illiyinə həsr edilmiş Yüksək Səviyyəli İclasında demişdi: "Təcavüzkar ritorika və təxribatlar Ermənistanın Azərbaycana qarşı yeni təcavüzə hazırlaşdığını nümayiş etdirir. Biz BMT-ni və beynəlxalq ictimaiyyəti Ermənistanın növbəti hərbi təcavüzdən çəkindirilməsinə dəvət edirik".

BMT Baş Assambleyasının 75-ci sessiyasının sentyabrın 24-də keçirilən ümumi debatlarında da Prezident İlham Əliyev bir daha diqqəti Ermənistanın son dövrlərdə artan təxribatlarına və yeni müharibə planlarına yönəltdi.

*Ardı 5-ci səh.*

## Prezident İlham Əliyev "Əl-Cəzirə" televiziya kanalına müsahibə verib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 2-də "Əl-Cəzirə" televiziya kanalına müsahibə verib.

## Koreya Respublikasının Prezidenti zati-aliləri cənab Mun Ce-inə

Hörmətli cənab Prezident!

Koreya Respublikasının milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

İnanıram ki, ölkələrimiz arasında təşəkkül tapmış dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın rifahı naminə bundan sonra da inkişaf edəcək və möhkəmlənəcəkdir.

COVID-19 pandemiyası ilə üzləşdiyimiz bu dövrdə Azərbaycan xalqının dost Koreya xalqı ilə həmrəy olduğunu bildirmək istəyirəm.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, ölkənizə daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 sentyabr 2020-ci il*

## Haqq davasında Zəfər bizimdir

**Qarabağ cəbhəsində döyüşlər davam edir. Azərbaycan Ordusu bizi illərdir həsrətində olduğumuz böyük qələbəyə doğru addım-addım yaxınlaşdırır. Cəmiyyətimizdəki milli həmrəylik ruhu ilə tez bir zamanda zəfər qazanacağımıza hər birimiz əminik. Çünki Azərbaycanın apardığı bu dava haqq davasıdır.**

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə qəhrəman hərbçilərimiz ölkəmizin ərazi bütövlüyü qədər, həm də həyatın ali dəyərlərindən olan ədalət uğrunda savaşırlar. Təcavüzkar Ermənistan ərazilərimizin 20 faizindən çoxunu 30 ilə yaxındır işğal altında saxlamaqla, milyonlarla soydaşımızı öz yurdundan didərgin salmaqla, o torpaqlarda ağlasığmaz vandalizm aktları törətməklə ədalət normalarını da pozur. Ədalət isə ümumbəşəri dəyərdir və onun müdafiəsi təkcə bir ölkəni və xalqı deyil, ümumilikdə bəşəriyyəti qayğılandırmalıdır.

#### Biz öz torpağımızda vuruşuruq

Düşmənin növbəti təxribatlarına qarşı əks-zərbə əməliyyatlarının başlandığı gün xalqa müraciətində də, cəbhə bölgəsində yaralanaraq hazırda hospitalda müalicə olunan hərbçilərimizlə görüşündə də Prezident İlham Əliyev bu məqamı xüsusi qeyd etdi: "Bizim işimiz haqq işidir, biz öz torpağımızda vuruşuruq, Vətən uğrunda vuruşuruq.

*Ardı 7-ci səh.*



## Xankəndi vahiməyə düşüb

### Dağlıq Qarabağın Azərbaycan torpağı olduğunu artıq açıq etiraf edən ermənilər bu ərazidən kütləvi qaçırlar

**Ermənilərin sentyabrın 27-dən başlayaraq təmas xəttində həyata keçirdikləri təxribatların qarşısını qətiyyətlə alan Azərbaycan Ordusu işğalçı ölkəyə sarsıdıcı zərbələr vurmaqda davam edir.**

Ermənistanda hesab edilir ki, bu müharibə ölkəni daha böyük problemlərə düçar edəcək. Onu da anlayırlar ki, artıq həm hərb, həm də diplomatiya cəbhəsində Azərbaycana indi daha böyük fərqlə uduzmağa başlayıblar.

Cəbhə xəttində baş verənlərlə bağlı erməni mətbuatında davamlı olaraq məlumatlar paylaşılır. Qeyd olunur ki, son bir həftə ərzində Ermənistana köç edən əhalinin sayı 20 mini ötüb.

*Ardı 5-ci səh.*

## Qarabağ uğrunda hər meydanda QƏLƏBƏ!

### Ağdam klubu Avropa Liqasının qrup mərhələsinə vəsiqə qazandı

**Hazırda Prezident, Ali Baş Komandan İlham Əliyevin əmri ilə Silahlı Qüvvələrimiz dövlətin ərazi bütövlüyünün bərpası, torpaqlarımızın işğalçılardan - erməni faşistlərindən və muzdlu terrorçulardan təmizlənməsi uğrunda mübarizə aparır. Qəhrəman əsgərlərimizin cəbhə boyunca qazandığı uğurlar hamımızı sevindirir.**

Xalqımızın oğul və qızları şanlı Ordumuza hərtərəfli dəstək verərək möhkəm birlik nümayiş etdirirlər. Beynəlxalq arenalarda ölkəmizi ləyaqətlə təmsil edən idmançılarımız da onların arasındadır. Srağagün Ağdamın "Qarabağ" futbol klubu UEFA Avropa Liqası yarışlarının həlledici pley-off oyununda Polşanın paytaxtı Varşavada ölkə çempionu "Legiya" komandası ilə qarşılaşmışdır. Xalqımız üçün belə bir vacib məqamda futbolçularımız böyük əzmkarlıq və ustalıq nümayiş etdirərək 3:0 hesabı ilə qələbə qazanmış və ardıcıl olaraq 7-ci dəfə Avropa Liqasının qrup mərhələsində yerini təmin etmişdir.

Matçda ağdamlılar rəqibi bütün komponentlər üzrə üstələdilər. "Qarabağ"ın qarşısını almaq mümkün deyildi. "Şükürlər olsun ki, komanda olaraq bunun öhdəsindən gələ bildik. Qazanacağımız qələbənin nə dərəcədə vacib olduğunu dərk edirdik. Sevinirəm ki, buna nail olduq".

*Ardı 8-ci səh.*



## Hədəfdə yenə dinc əhalidir

### Erməni terroru amansızlıqla davam edir

**Dünya çoxlu qanlı hadisələrə, döyüşlərə, qırğınlara şahidlik edib... Tarix saysız təcavüzkarlar görüb, xeyli işğalları, müharibələri qanlı səhifələrlə yazıb... Amma bu işğalların bir qırmızı xətti, müharibələrin müəyyən qayda-qanunu, döyüşlərin rəhmi olub...**

Ermənilərin zaman-zaman azərbaycanlılara qarşı törətdiyi qanlı cinayətlərin, vəhşiliklərin isə Yer üzündə misli-bərabəri yoxdur. Elə təkcə Xocalı müsibəti erməni şovinizminin soyqırımı siyasətinin ən dəhşətlisi, insanlığa sığmayan, tarixdə görünməyən terror aktıdır. Xocalı soyqırımı Azərbaycan tarixinin ən qanlı səhifələrindən olmaqla bərabər, bəşər tarixinin də ən genişmiqyaslı və xüsusi amansızlıqla törədilmiş hərbi cinayətlərindəndir...

*Ardı 9-cu səh.*

**Düşmənin ümumilikdə 2300-dən artıq canlı qüvvəsi; 200-dək tank və digər zirehli texnikası; 228-dən artıq artilleriya, yaylım atəşli raket sistemləri, minaatan; 30-dan çox hava hücumundan müdafiə vasitələri; 6 komanda-idarəetmə və komanda-müşahidə məntəqələri; 5 silah-sursat anbarı; 50-dən artıq tank əleyhinə vasitələr; 110-dan artıq avtomobil texnikası; 8 "Qrad" yaylım atəşli reaktiv sistemi; 1 "S-300" zenit-raket kompleksi məhv edilib**

# Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsi, əzəli tarixi torpağıdır

## Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri zati-aliləri cənab Şefik Caferoviçə

Hörmətli cənab Sədr!

Sizə səmimi salamlarımı yetirir, Ermənistanın Azərbaycana qarşı hərbi təxribatı ilə bağlı Bosniya və Herseqovinanın obyektiv mövqeyinə görə Sizə öz adımdan və Azərbaycan xalqı adından təşəkkürümü bildirirəm.

Cari ilin sentyabrın 27-də Ermənistan silahlı qüvvələri tərəfindən qoşunların təmas xətti boyu yaşayış məntəqələrimizin və hərbi birləşmələrimizin mövqelərinin ağır artilleriya qurğularından atəşə tutulması nəticəsində hərbi qulluqçularımız, 20-yə yaxın mülki şəxsimiz, o cümlədən iki uşaq həlak olmuş, 50-dən çox mülki şəxs yaralanmışdır. Bu hərbi təcavüzün qarşısının alınması məqsədilə Azərbaycan Ordusu zəruri əks-hücum tədbirlərini həyata keçirir.

Bu təxribat Ermənistanın ölkəmizə qarşı 30 ildən artıq yürütdüyü işğalçılıq siyasətinin davamıdır. Son vaxtlar, xüsusilə də iyul-avqust aylarında Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi hərbi təxribatlar müntəzəm xarakter almış, bu ölkənin hərbi-siyasi rəhbərliyi danışıqlar prosesini şüurlu şəkildə sarsıtmağa yönəlmiş təcavüzkar bəyanatlar səsləndirmişdir. Eyni zamanda Ermənistan beynəlxalq hüququ kobud şəkildə pozaraq Azərbaycanın işğal olunmuş ərazilərində xarici vətəndaşların qeyri-qanuni məskunlaşmasını həyata keçirmiş, torpaqlarımızda vuruşmaq üçün on minlərlə könüllüdən ibarət hərbi birləşmələr yaratmışdır.

Azərbaycan Ordusu öz doğma torpağında ölkəmizin ərazi bütövlüyünü müdafiə edir və bundan sonra da edəcəkdir. Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsi, əzəli tarixi torpağımızdır. Bütün beynəlxalq ictimaiyyət Azərbaycanın ərazi bütövlüyünü tanıyır.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsiplərinə, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin tələblərinə uyğun olaraq ölkəmizin ərazi bütövlüyü, suverenliyi və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı çərçivəsində həll olunması ilə bağlı Bosniya və Herseqovinanın ədalətli mövqeyinə görə, Sizə bir daha təşəkkür edirəm. Ölkənizin Azərbaycana göstərdiyi bu dəstəyi xalqımız yüksək qiymətləndirir.

İnanıram ki, ölkələrimiz arasındakı ənənəvi dostluq münasibətləri və qarşılıqlı faydalı əməkdaşlıq xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da ardıcıl şəkildə inkişaf edəcək və genişlənəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost Bosniya və Herseqovina xalqına daim rifah və əmin-amanlıq diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 oktyabr 2020-ci il*

# Ermənistan ordusunun mülki əhalini qəsdən hədəfə alması beynəlxalq humanitar hüququn kobud surətdə pozulmasıdır

## Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvlərinə

**İlk növbədə, Sizə səmimi salamlarımı yetirir, Ermənistanın Azərbaycana qarşı hərbi təxribatı ilə bağlı verdiyiniz bəyanatda əks olunmuş obyektiv mövqeyə görə sizə öz adımdan və Azərbaycan xalqı adından təşəkkürümü bildirirəm.**

Məlum olduğu kimi, sentyabrın 27-də Ermənistan silahlı qüvvələri atəşkəs rejimini kobud şəkildə pozaraq ordumuzun cəbhə zonasında yerləşən mövqelərini və dinc insanların yaşadığı bir sıra məntəqələri qəsdən və hədəflənmiş şəkildə intensiv atəşə tutmuşdur. Bu xain hücum nəticəsində iki gün ərzində hərbçilərimiz, 20-yə yaxın mülki şəxs, o cümlədən iki uşaq həlak olmuş, 50-dən artıq mülki şəxs yaralanmışdır. Ermənistanın hərbi təcavüzünün qarşısının alınması, mülki əhalinin təhlükəsizliyinin təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının Silahlı Qüvvələri zəruri əks-həmlə tədbirlərini həyata keçirir.

Son vaxtlar Ermənistanın Azərbaycana qarşı hərbi təxribatları müntəzəm xarakter almış, iyul ayında Ermənistanın dövlət sərhədi istiqamətində növbəti təxribatı nəticəsində hərbçilərimiz və bir mülki şəxs həlak olmuşdur. Avqust ayında isə erməni diversiya dəstəsi təmas xəttini keçməyə cəhd etmişdir. Ancaq ordumuzun atdığı qətiyyətli addımlar nəticəsində Ermənistan layiqli cavabını almışdır.

Bu təxribatlar Ermənistanın avantürist və təcavüzkar hərbi-siyasi rəhbərliyinin bəyan etdiyi yeni ərazilər uğrunda yeni işğal siyasətinin davamıdır. Eyni zamanda Ermənistan ordusunun mülki əhalini qəsdən hədəfə alması beynəlxalq humanitar hüququn kobud surətdə pozulmasıdır. Bu əməllər Ermənistan silahlı qüvvələrinin döyüş hazırlığına daxil edilmiş taktikadır ki, 1992-ci ilin fevral ayında törədilmiş Xocalı soyqırımı zamanı xalqımız bu vəhşiliyin şahidi olmuşdu.

Dünyanın diqqətinin BMT Baş Assambleyasının 75-ci sessiyasına, COVID-19 pandemiyası ilə mübarizəyə yönəldiyi dövrdə Ermənistanın siyasi-hərbi rəhbərliyinin növbəti hərbi avantüra və təxribata əl atması bu rejim tərəfindən beynəlxalq hüquqa, BMT Nizamnaməsinə və beynəlxalq ictimaiyyətə münasibətdə sərgilədiyi saymamazlığı bir daha nümayiş etdirdi.

Azərbaycan Silahlı Qüvvələri öz doğma torpağında ölkəmizin ərazi bütövlüyünü müdafiə edir. Beynəlxalq ictimaiyyət Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz hissəsi, bizim əzəli tarixi torpağımız olduğunu tanıyır. BMT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, ATƏT, Avropa Parlamenti və digər aparıcı beynəlxalq təşkilatların qəbul etdiyi çoxsaylı qərar və qətnamələr Azərbaycanın ərazi bütövlüyünü tanıyaraq Dağlıq Qarabağın Azərbaycana məxsus olduğunu açıq-aydın təsbit edir. BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi erməni silahlı qüvvələrinin dərhal, tam və qeyd-şərtsiz işğal edilmiş torpaqlarımızdan çıxarılmasını tələb edir.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi yalnız beynəlxalq hüquq əsasında, Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı çərçivəsində həll olunmalıdır.

Bir daha Azərbaycanın haqq işinə göstərdiyiniz dəstəyə görə sizə minnətdarlığımı bildirir, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə gələcək fəaliyyətində uğurlar arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 oktyabr 2020-ci il*

# Mehriban Əliyevanın Qarabağla bağlı arzuları Türkiyə mediasında geniş işıqlandırılıb

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəsmi sosial şəbəkə hesablarından Ermənistanın işğalçılıq siyasəti və davamlı təxribatlarının daha da intensivləşməsi nəticəsində iki ölkə arasındakı mövcud gərginliyin hərbi qarşıdurma vəziyyətinə gəlməsi barədə paylaşımları Türkiyənin aparıcı kütləvi informasiya vasitələri tərəfindən geniş işıqlandırılıb.

AZƏRTAC xəbər verir ki, Anadolu Agentliyi, "Sabah", "Yeni şəfəq", Hüriyyət", "Təqvim" və digər populyar qəzetlər, eləcə də nüfuzlu xəbər portalları bu məlumatı geniş oxucu auditoriyasına təqdim ediblər.

Bildirilir ki, paylaşımda Azərbaycan dövlətinin heç vaxt başqasının torpaqlarına iddialı olmadığı, heç zaman insanlığa qarşı cinayət törətmədiyini diqqətə çatdıran Birinci vitse-prezident Mehriban Əliyeva göstərilən səmimi dəstəyə görə Türkiyə xalqına və şəxsən Prezident Rəcəb Tayyib Ərdoğana minnətdarlığını ifadə edib.

Qardaş ölkə KİV-ində Birinci vitse-prezidentin aşağıdakı fikirləri də yer alıb: "Bu gün biz azərbaycanlılar niyyətimizlə, hərəkət və dualarımızla misli görünməmiş birlik göstəririk. Ulu Tanrı Azərbaycan xalqına onun müqəddəs mübarizəsində yar olsun!

Qoy Uca Tanrı hər bir azərbaycanlıya müqəddəs Qarabağ torpağını öpməyi nəsib etsin!




Allah şəhidlərimizə rəhmət etsin! Qəbirləri nurla dolsun!"

# Milli Məclisin iclasında






# Heç bir təzyiq Azərbaycanı yolundan döndərə bilməz

## Parlamentdə Fransanın ATƏT-in Minsk qrupunun həmsədrliyindən uzaqlaşdırılması tələb edildi

**"Hamımızın ürəyi cəbhə xəttində döyüşən ordumuzla döyünür. Ordumuz düşmənə qarşı uğurla əks-hücum əməliyyatı keçirir və ağır zərbələr endirir. Azərbaycan Ordusunun gücünü görən bəzi qüvvələr, vaxtilə heç nə deməyən beynəlxalq təşkilatlar indi müxtəlif bəyanatlarla çıxış edirlər. Bizə təsir göstərib haqq yolundan döndərməyə çalışırlar. Bu beynəlxalq təşkilatlara cavab olaraq Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin sözlərini yada salmaq yerinə düşər: "Biz işğal altında olan torpaqlarımızı bərpa edirik. Qarabağ bizim əzəli torpaqlarımızdır. Azərbaycan xalqı bu işğalla heç vaxt barışmayacaq. Demişdim ki, əgər məsələ danışıqlar yolu ilə həll olunmazsa, Azərbaycanın tam haqqı var ki, məsələ hərbi yolla öz həllini tapsın. Bu haqqı bizə Azərbaycan xalqı verib, bu haqqı bizə beynəlxalq hüquq normaları verib.**

Hamımızın eyni fikri var. Ordumuzun müzəffər yürüşü sonuncu erməni əsgər torpaqlarımızdan qovulana qədər davam etməlidir. Bütün xalqımız da, biz də əminik ki, bu, belə olacaq. Bu savaş bizim qələbəmizlə başa çatacaq".

Milli Məclisin dünənki plenar iclası parlamentin Sədri Sahibə Qafarovanın bu fikirləri ilə başladı.

### ATƏT-in Minsk qrupunun formatı dəyişdirilməlidir

İclasda Ermənistanın təxribatları nəticəsində cəbhədə başlanan savaş və Azərbaycanın haqq işinə təzyiqlər göstərməyə çalışan bəzi qüvvələrin tutduğu mövqe müzakirə mövzusu oldu. Milli Məclis Sədrinin müavini Fəzail İbrahimli, Parlamentin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov, İnsan hüquqları komitəsinin sədri Zahid Oruc, Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov, Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva, deputatlardan Fazil Mustafa, Arzu Nağıyev, Sevil Mikayılova, Kamal Cəfərov, Nigar Arpadarai, Tural Gəncəliyev, Razi Nurullayev, Bəhruz Məhərrəmov, Şahin İsmayılov, Naqif Həmzəyev çıxış edərək əsgər və zabitlərimizin yanında olduqlarını, onların xaqlımıza qələbə sevinci yaşadacaqları günün uzaqda olmadığını vurğuladılar.

Çıxış edənlər birmənalı olaraq Fransanın Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində tutduğu mövqeyə kəskin etiraz bildirdilər. Qeyd edildi ki, Fransa ATƏT-in MİnsK qrupunun həmsədri kimi mandatına uyğun hərəkət etmir.

Komitə sədri Səməd Seyidov ATƏT-in Minsk qrupunun 3 həmsədr ölkəsinin birgə bəyanatına münasibət bildirərkən qeyd etdi ki, bu, həmsədrlər səviyyəsində deyil, 3 dövlət başçısının fikri kimi hazırlanan bəyanat idi. Ancaq bu bəyanatlar bölgədə sülhə töhfə verməyə xidmət etmir: "Fransa prezidenti Emmanuel Makronun son açıqlamaları da bu qəbildəndir. Makron deyir ki, "Qarabağın Azərbaycan tərəfindən yenidən ələ keçirilməsini qəbul etməyəcəyik". Bu, nə deməkdir?! Qarabağ Azərbaycan torpağıdır. Azərbaycan torpağının işğalçıdan azad olunması Azərbaycan xalqının haqqıdır və beynəlxalq hüququn tələbidir. Son hadisələr göstərir ki, ATƏT-in Minsk qrupunun formatı dəyişdirilməlidir. Fransa ATƏT-in Minsk qrupunun həmsədrliyindən çəkilməlidir. Azərbaycanın bu ölkə ilə münasibətlərinə yenidən baxılmalıdır. Azərbaycanın hərbi əməliyyatları davam etdirməsi bu cür bəyanatlara ən yaxşı cavab olacaq".

Digər çıxış edənlər də birmənalı şəkildə bildirdilər ki, Fransa prezidentinin Dağlıq Qarabağdakı vəziyyətlə bağlı son bəyanatı qeyri-adekvatdır və heç bir çərçivəyə sığmır. Beynəlxalq mandata zidd olan belə bəyanatlar sülhə deyil, balansın pozulmasına gətirib çıxarır. Fransa hökumətinin ATƏT-in Minsk qrupunun həmsədri kimi münaqişənin sülh yolu ilə həllinə deyil, daha da qızışdırılmasına, status-kvonun saxlanmasına gətirib çıxaran bəyanatlar verməsi qəbuledilməzdir. Ona görə də Minsk qrupunun formatına yenidən baxılmalı və Fransa bu məsələlərə özünün ciddi münasibətini bildirməlidir.

### İki yeni medal təsis edilir

Sonra gündəlikdəki məsələlərin müzakirəsinə başlanıldı. Milli Məclisin Sədri Sahibə Qafarova bildirdi ki, gündəliyə parlamentin sentyabrın 30-da keçirilən iclasında birinci oxunuşda müzakirədən keçən 14 qanun layihəsinin ikinci oxunuşda müzakirəsi daxil edilib.

Əvvəlcə Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Azərbaycan Dəmir Yollarının 140 illiyi (1880-2020)" yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" qanunda dəyişiklik edilməsi barədə layihəni ikinci oxunuşda müzakirəyə təqdim etdi. Qanun layihəsinə əsasən, Azərbaycan Dəmir Yollarının 140 illiyi ilə əlaqədar olaraq təsis edilən yubiley medalı ilə vəzifələrini nümunəvi icra edən, fəaliyyətində yüksək nəticələr göstərən, dəmir yolu nəqliyyatı sahəsində çalışan işçilər, dəmir yolu nəqliyyatı sahəsinin inkişafında və təkmilləşdirilməsində xüsusi xidmətləri olan şəxslər, habelə beynəlxalq tərəfdaşlar təltif ediləcək. Qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

"Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin 10 illiyi (2012-2022)" yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə də ikinci oxunuşda baxıldı. Vurğulandı ki, bu medalla həqiqi hərbi xidmət keçən və xidməti vəzifələrini nümunəvi yerinə yetirən zabit və gizirlər, müddətdən artıq hərbi xidmət keçən hərbi qulluqçular, ehtiyatda olan və istefaya buraxılmış hərbçilər, həmin orqanda səmərəli fəaliyyət göstərən mülki işçilər, habelə bu sahədə xüsusi xidmətləri olan digər şəxslər təltif ediləcəklər. Əli Hüseynli yeni təsis edilən medalın bu sahədə fəaliyyət göstərən insanların ruh yüksəkliyinin artırılmasında xüsusi rolu olacağını dedi, sənədin birinci oxunuşda müzakirəsi zamanı səsləndirilən təkliflərə münasibət bildirdi. Layihə səsə qoyularaq təsdiqləndi.

### Övladlığa götürülmüş, valideynlərini itirmiş uşaqların təhsil haqlarını dövlət ödəyəcək

İclasda Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi də müzakirə edildi. Bildirildi ki, Azərbaycan Prezidenti 28 dekabr 2018-ci ildə tikinti obyektlərində tikintiyə icazə və obyektin istismarına icazə verilməsinin sadələşdirilməsi ilə bağlı tədbirlər haqqında Fərman imzalayıb. Tikintiyə dövlət nəzarəti prosedurlarında nəzərdə tutulan sadələşdirmələrlə əlaqədar müvafiq qanunların təkmilləşdirilməsi ilə əlaqədar təkliflərin hazırlanması barədə Nazirlər Kabinetinə tapşırıq verilib. Təqdim edilən qanun layihəsi həmin təkmilləşdirilməyə dair təklifləri nəzərdə tutur. Qanun layihəsi ikinci oxunuşda təsdiqləndi.

"Dövlət rüsumu haqqında" qanuna təklif edilən dəyişikliklər də ikinci oxunuşda təsdiq edildi. Qanun layihəsinə təklif olunan dəyişikliklər minik avtomobillərinin özgəninkiləşdirilməsi haqqında müqavilələrin dövlət qeydiyyatına alınmasına görə dövlət rüsumunun məbləğinin hər il üçün təsdiq olunması mexanizmindən imtina olunmasını və rüsumların daimi olaraq müəyyən edilməsini nəzərdə tutur.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov "Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" qanun layihəsini ikinci oxunuşda təqdim etdi. Bildirildi ki, qanun layihəsi daimi qulluq tələb edən sağlamlıq imkanları məhdud uşağa və ya birinci dərəcə əlilliyi olan şəxsə baxan, onunla birlikdə yaşayan valideynin, arvadın (ərin), himayəçinin və ya qəyyumun gəlirlərinin gəlir vergisindən azad olunan hissəsinin artırılaraq 200 manat məbləğində müəyyən edilməsini, güzəşt tətbiq olunan kateqoriyaya sağlamlıq imkanları məhdud uşaqları övladlığa götürən şəxslərin də aid edilməsini nəzərdə tutur. Deputat sənədin birinci oxunuşda müzakirəsindən sonra heç bir təklif və ya iradın qeydə alınmadığını vurğuladı.

Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova və deputat Məlahət İbrahimqızı da bu qanun layihəsi ilə bağlı fikirlərini bildirdilər. Layihə təsdiq edildi.

Parlamentin Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev "Təhsil haqqında" qanunda dəyişiklik edilməsi barədə məsələ ilə bağlı bildirdi ki, layihə "Övladlığa götürmə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 10 dekabr tarixli 393 nömrəli Fərmanına uyğun olaraq hazırlanıb. Düzəliş övladlığa götürülən uşaqların təhsil xərclərinin dövlət vəsaiti hesabına ödənilməsini ehtiva edir. Bu, ölkəmizdə övladlığa götürməni, xüsusilə az və orta təminatlı ailələr tərəfindən valideyn himayəsindən məhrum olan uşaqların övladlığa götürülməsini təşviq edəcək.

Deputatlardan Əli Məsimli, Məlahət İbrahimqızı və Kəmaləddin Qafarov qanun layihəsi ilə bağlı fikirlərini bildirdilər, valideyn himayəsindən məhrum olan uşaqlarla bağlı dövlətin üzərinə götürdüyü vəzifələri yüksək humanistlik kimi dəyərləndirdilər. Layihə ikinci oxunuşda qəbul edildi.

Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" qanunda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) layihəni şərh edərkən vurğuladı ki, bu qanun layihəsi də valideyn himayəsindən məhrum olmuş uşaqların övladlığa götürülməsinin stimullaşdırılması məqsədi daşıyır. Təklif olunan dəyişikliklərə əsasən, övladlığa götürülmüş uşaqların dövlət, bələdiyyə və özəl ali və orta ixtisas təhsili müəssisələrində və ali məktəblərin magistratura səviyyəsində ödənişli əsaslarla təhsil aldıqları müddətdə təhsil haqqının dövlət hesabına ödənilməsi nəzərdə tutulur. Komitə sədri bildirdi ki, birinci oxunuşda müzakirələr zamanı heç bir təklif qeydə alınmayıb. Qanun layihəsi təsdiqləndi.

### Pedaqoji fəaliyyətinə qadağa qoyulan şəxsləri işə götürənlər cərimələnəcək

"Sosial müavinətlər haqqında" qanuna təklif olunan dəyişikliklərlə bağlı qanun layihəsini şərh edən parlamentin Əmək və sosial siyasət komitəsinin üzvü İlham Məmmədov bildirdi ki, bu layihə də "Övladlığa götürmə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Prezidentin 2018-ci il 10 dekabr tarixli 393 nömrəli Fərmanına uyğun olaraq, valideyn himayəsindən məhrum olmuş uşaqların övladlığa götürülməsini stimullaşdırmaq və uşaqları övladlığa götürən ailələri dəstəkləmək məqsədilə hazırlanıb.

Deputat birinci oxunuşda müzakirədən sonra heç bir irad və təklifin səsləndirilmədiyini dedi və layihə səsə qoyularaq ikinci oxunuşda da təsdiqləndi.

Deputat İlham Məmmədov həmçinin Əmək, Cinayət və İnzibati Xətalar məcəllələrinə, "Uşaq hüquqları haqqında" qanuna təklif edilən dəyişiklikləri də ikinci oxunuşda təqdim etdi. Bildirdi ki, layihə "Gənclər siyasəti haqqında" qanuna uyğunlaşdırma xarakteri daşıyır. Layihə səsvermə yolu ilə təsdiq edildi.

Qısa müzakirədən sonra Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında" və "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə və Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihələri də ikinci oxunuşda təsdiq edildi.

Əmək və sosial siyasət komitəsinin üzvü İlham Məmmədov Əmək Məcəlləsində, "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Təhsil haqqında", "Məktəbəqədər təhsil haqqında", "Peşə təhsili haqqında", "Əlilliyi olan şəxslərin hüquqları haqqında" və "Ümumi təhsil haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim etdi. Birinci oxunuşdan sonra layihə üzərində heç bir düzəlişin aparılmadığı diqqətə çatdırıldı. Qanun layihəsi səsə qoyularaq təsdiqləndi.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini ikinci oxunuşda təqdim edərkən vurğuladı ki, məcəlləyə yeni 192.12-ci maddə əlavə olunur. Əlavəyə əsasən, qanunla pedaqoji fəaliyyətlə məşğul olması qadağan edilən şəxslərlə pedaqoji fəaliyyətlə məşğul olmaq üçün əmək müqaviləsinin bağlanılmasına görə vəzifəli şəxslər üç min manat məbləğində cərimə ediləcəklər. Layihə səsə qoyularaq qəbul edildi.

Gündəliyin sonuncu məsələsi olan "Publik hüquqi şəxslər haqqında" Qanunda dəyişiklik edilməsi barədə layihəni Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli təqdim etdi. Qeyd edildi ki, təklif olunan dəyişikliyə əsasən, publik hüquqi şəxsin təsisçisi onun strukturu və işçilərin say həddi ilə yanaşı, əməkhaqqı fondunun həcmini də təsdiq edəcək. Layihə ikinci oxunuşda təsdiqləndi.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Prezidentin köməkçisi Hikmət Hacıyev Rusiyada akkreditə olunmuş aparıcı xarici KİV nümayəndələri üçün mətbuat brifinqi keçirib

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Rusiya Federasiyasında akkreditə olunmuş dünyanın aparıcı xarici KİV nümayəndələrinə (Reuters, Voice of America, Financial Times, Frankfurter Allgemeine Zeitung, Die Welt, EFE, ABC Spain, Bloomberg, CNN, France Presse, RAI, Al Jazeera, Al Arabiya, Der Standard, Asahi və s.) videoformatda mətbuat brifinqi keçirib.



AZƏRTAC xəbər verir ki, Hikmət Hacıyev xarici media nümayəndələrini Ermənistan silahlı qüvvələrinin son təxribatları barədə geniş məlumatlandırıb. Mülki əhali arasında həlak olan və yaralananların olduğunu təəssüflə bildirən Prezident köməkçisi mülki infrastrukturun məqsədyönlü şəkildə hədəfə alındığını diqqətə çatdırıb.

Habelə Hikmət Hacıyev Ermənistandan fərqli olaraq Azərbaycan Silahlı Qüvvələrinin beynəlxalq humanitar hüquqa ciddi əməl etdiyini, eləcə də ermənilərin hərbi əməliyyatlar zamanı mülki insanlardan qalxan kimi istifadə etməsi ilə bağlı səhih məlumatların olduğunu xüsusilə qeyd edib.

Daha sonra Prezidentin köməkçisi jurnalistlərin suallarını cavablandırıb və onları Azərbaycana dəvət edib.

❖ ❖ ❖

Dünən Ermənistanın baş naziri öz xalqını təşvişə salacaq formada "Facebook" hesabında paylaşımlar etmişdi. Bu paylaşımlara görə, hansısa dronlar Yerevan üzərində hərəkət edirdilər.

Hikmət Hacıyev deyib: "Dövlətimizin başçısı tərəfindən qeyd edildiyi kimi, Ermənistanın baş naziri hər bir fürsətdə yalan, riyakarlıq və xalqını aldatmaqla məşğuldur. Ermənistan Müdafiə Nazirliyi tərəfindən, guya, bu dronların vurulması barədə videolar hazırlandı. Lakin bir müddət sonra bu videoların fotoskop olduğu üzə çıxdı və onların silinməsi tələb olundu. Bu, bir daha göstərir ki, yalan əsasında qurulmuş ssenari idi. Onların hər bir yalanı ifşa olunur".

Prezidentin köməkçisi həmçinin bildirib ki, Prezident İlham Əliyevin də bəyan etdiyi kimi, bizim erməni xalqı, mülki əhali ilə işimiz yoxdur. Mülki şəxsləri hərbi obyektlərdən kənar durmağa çağırırıq. Belə olan halda onların da təhlükəsizliyi təmin oluna bilər.

❖ ❖ ❖

Əməliyyatların gedişi göstərir ki, Azərbaycan Ordusu dronlardan, yüksək texnologiyalardan istifadə edərək düşmənin hərbi infrastrukturunu sıradan çıxarır.

Prezidentin köməkçisi bildirib ki, Ermənistanın silahlı qüvvələrinin əsas logistik, hərbi-sursat anbarlarına ciddi zərbələr vurulub. "Bu, Ermənistan silahlı qüvvələrinin müqavimətini əsaslı şəkildə sarsıdır. Bu zərbələr Ermənistan silahlı qüvvələrinin cəbhədəki bölmələrinin müqavimətini böyük dərəcədə azaldıb. Otuz il ərzində Ermənistan tərəfindən Azərbaycanın işğal olunmuş ərazilərində qurulmuş hərbi istehkam sistemlərinin, maddi-texniki bazanın qısa müddətdə sıradan çıxarılması Ermənistan silahlı qüvvələrinin döyüş müqavimətinin sıradan çıxarılması deməkdir", - deyə H.Hacıyev vurğulayıb.

❖ ❖ ❖

Ermənistan xarici jurnalistləri döyüş bölgəsinə müxtəlif adlarla çağıraraq onları canlı hədəfə çevirməyə çalışır.

Prezidentin köməkçisi xarici jurnalistləri həmin ərazilərə daxil olmamağa çağırıb: "Əgər onlar atəş məntəqələrinə yaxın ərazilərə gətirilirsə, onların təhlükəsizliyinə cavabdeh deyilik. Ermənilər həmin jurnalistləri atəş nöqtəsinə yaxın ərazilərə gətirir və bununla da təxribatlarını davam etdirir. Bu məsələdə birbaşa məsuliyyət Ermənistanın üzərinə düşür".

❖ ❖ ❖

Bu, Vətən müharibəsidir. Azərbaycan dövlətinin işi haqq işidir. Azərbaycan Ermənistanın təcavüzünün nəticələrinin aradan qaldırılması üçün fəaliyyət göstərir. İşğala son qoyulduqdan sonra regionun inkişafı üçün münbit zəmin yaranacaq.

Torpaqların azad edilməsinin Azərbaycan xalqının tələbi olduğunu vurğulayan Prezidentin köməkçisi bildirib: "Hazırda ölkədə ümummilli həmrəylik var. Azərbaycan xalqının iradəsindən kənar münaqişənin həlli mövcud deyil. Bu xüsusda qardaş Türkiyənin Azərbaycana dəstəyini yüksək qiymətləndiririk. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan 30 il ərzində danışıqlar aparılmasına baxmayaraq, torpaqların azad edilmədiyini bildirib. Prezident İlham Əliyevin təşəkkürünü bir daha çatdırırıq. O cümlədən Pakistan, Macarıstan, Türk Şurası, İƏT tərəfindən Azərbaycana verilən dəstəyi yüksək qiymətləndiririk. Azərbaycan xalqı dəstək verən dost dövlətləri, həmçinin riyakarları heç vaxt unutmayacaq".

❖ ❖ ❖

Azərbaycan Silahlı Qüvvələri çətin iqlim və istehkam şəraitində düşmənə qarşı əks-hücum əməliyyatı həyata keçirir.

Prezidentin köməkçisi bildirib ki, ermənilər 30 il ərzində işğal olunmuş ərazilərdə dərin istehkam sistemləri qurub. Bəzi yerlərdə bu istehkamların uzunluğu 8-10 metrə çatır. Relyef şəraiti də ağırdır. Bildiyiniz kimi, həmin yerlər, əsasən, dağlıq ərazilərdir. Lakin bu çətinliklərə baxmayaraq, Azərbaycan Silahlı Qüvvələri addım-addım irəliləyir. "Əsgərlərimiz düşmənin atəş nöqtələrini susdura-susdura, bəzən də atəş altında irəli gedir. Ermənistanın uzun illər ərzində qurduğu istehkam sistemləri sıradan çıxarılır. Hazırda Murovda qar var, qış şəraitidir. O çətin iqlim şəraitində, 3300-3500 metr yüksəklikdə əsgərlərimiz torpaqlarımız uğrunda rəşadətlə döyüşür, torpaqlarımızı azad edir. Biz onlarla fəxr edirik", - deyə Hikmət Hacıyev qeyd edib.

❖ ❖ ❖

Ermənistan silahlı qüvvələrinin acizliyi fonunda Ermənistan ərazisindən Azərbaycanın mülki yaşayış məntəqələrinə qarşı raket hücumu həyata keçirilir. Ermənistan bununla Cenevrə Konvensiyasını pozur.

Prezidentin köməkçisi qeyd edib ki, ilkin olaraq Vardenis rayonu istiqamətindən Daşkəsən rayonuna raket zərbəsi endirilib. Azərbaycan tərəfi həmin atəş hədəfini məhv edib. Dünən Ermənistan Füzuli istiqamətində "Smerç" sistemindən istifadə edərək Cocuq Mərcanlı kəndini atəşə tutub, 20-yə yaxın evə ziyan dəyib. Bu gün Gorusdan "Toçka-U" raketi vasitəsilə Şəmkirə raket atəşi olub. Bir daha xəbərdarlıq edirik ki, Ermənistan tərəfindən açılan bu atəşlə bağlı Azərbaycan Ermənistan ərazisində olan legitim hərbi hədəflərə qarşı tədbirlər görəcək. Ermənistan silahlı qüvvələri istər şəxsi, istər texnika baxımından üzləşdiyi itkiləri bu cür kompensasiya etməyə çalışır. İyirmidən artıq mülki şəxsimiz həlak olub, 50-dən çox mülki şəxsimiz isə yaralanıb.

# Bu gün Azərbaycanda ümummilli həmrəylik hökm sürür

"Azərbaycan xalqı bizə dəstək verən dost dövlətləri və riyakarları heç vaxt unutmayacaq. Azərbaycan dövlətinin işi haqq işidir. Azərbaycan Ermənistanın təcavüzünün nəticələrinin aradan qaldırılması üçün mübarizə aparır. İşğala son qoyulduqdan sonra regionun inkişafı üçün münbit zəmin yaranacaq".

AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib. Prezidentin köməkçisi bildirib ki, bu gün ölkəmizdə ümummilli həmrəylik var. Torpaqlarımızın azad edilməsi Azərbaycan xalqının tələbidir. Münaqişənin Azərbaycan xalqının iradəsindən kənar həlli mövcud deyil. Bu xüsusda qardaş Türkiyənin Azərbaycana dəstəyini yüksək qiymətləndiririk. O cümlədən Pakistanın da dəstəyini yüksək dəyərləndiririk. Macarıstanın, Türk Şurasının, İslam Əməkdaşlıq Təşkilatının Azərbaycana dəstəyini də yüksək qiymətləndiririk.

# Ermənistan ordusunun Azərbaycanın yaşayış məntəqələrini və mülki əhalisini qəsdən hədəfə alması vəhşilik, barbarlıqdır

Ermənistan silahlı qüvvələri Azərbaycanın yaşayış məntəqələrini və mülki əhalisini qəsdən hədəfə almaqda davam edir. Yalnız bu gün ərzində Tərtərə 2 mindən çox mərmi düşüb. Bu, vəhşilik, barbarlıq və insanlığa yaraşmayan hərəkətdir.

Bu fikirləri KİV-ə açıqlamasında Prezidentin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib. Hikmət Hacıyev deyib: "Ermənistanın beynəlxalq humanitar hüququn, o cümlədən 1949-cu il Cenevrə Konvensiyanın müddəalarını kobud surətdə pozan bu hərəkəti müharibə cinayətidir. Bildiririk ki, Azərbaycan Silahlı Qüvvələri tərəfindən adekvat cavab tədbirləri həyata keçiriləcək".

*AZƏRTAC*

# Estoniya parlamentinin Azərbaycanla parlamentlərarası əlaqələr üzrə deputat qrupu cəbhədəki vəziyyətlə bağlı bəyanat yayıb

Estoniya parlamentinin Azərbaycan ilə parlamentlərarası əlaqələr üzrə deputat qrupu çox sayda günahsız insanın həlak olduğu Dağlıq Qarabağda Ermənistanla Azərbaycan arasında hərbi münaqişənin gərginləşməsini dərin narahatçılıqla izləyir.

AZƏRTAC xəbər verir ki, qrupun bununla bağlı bəyanatında deyilir: "Biz münaqişənin beynəlxalq hüququn norma və prinsiplərinə uyğun həll edilməsinin tərəfdarıyıq. Biz regionun bütün dövlətlərinin suverenliyinə, ərazi bütövlüyünə və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına tam dəstəyimizi ifadə etməkdə davam edirik. Eyni zamanda biz hazırkı vəziyyətin ciddiliyini nəzərə alaraq tərəfləri hərbi əməliyyatları dayandırmağa, atəşkəsi bərpa etməyə və ATƏT-in Helsinki Yekun Aktına və onun yerinə yetirilməsi ilə bağlı elementlərə əsaslanan Minsk qrupunun vasitəçiliyi ilə yenidən danışıq masasına


Eesti keeles Juurdepääs Kontaktid Sisukaart
RIIGIKOGU TEGEVUS TUTVUSTUS JA AJALUGU

Eesti-Aserbaidžaani parlamendirühma avaldus

29.09.2020 / Fraktsioonide pressiteated, Ühenduste teated

**Eesti-Aserbaidžaani parlamendirühm jälgib sügavama murega Mägi-Karabahhis Armeenia ja Aserbaidžaani vahelise sõjalise konflikti eskaleerumist, kus paljud süütud inimesed on juba elu kaotanud.**

Seisame konflikti lahendamise eest kooskõlas rahvusvahelise õiguse normide ja põhimõtetega. Kinnitame jätkuvalt oma täielikku toetust piirkonna kõigi riikide suveräänsusele, territoriaalsele terviklikkusele ja rahvusvaheliselt tunnustatud piiride puutumatusele.

Praeguse olukorra tõsidust arvestades kutsume konflikti mõlemat osapoolt üles lõpetama vaenutegevust, kehtestama taas vaherahu ja naasma läbirääkimistelaua juurde, et olla eestvedajad kõigis OSCE Minski rühma kaasesimeeste vahendatavates pingutustes, tuginedes OSCE Helsingi lõppakti põhimõtetele ja selle rakenduselementidele, ning anda seeläbi uut hoogu Mägi-Karabahhia konflikti rahumeelsele lahendamisele, mis oleks kogu piirkonna stabiilsuse ja arengu olulisim tegur.

qayıtmağa çağırırıq. Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsinə yeni təkan vermək bütün regionun sabitliyi və inkişafı üçün çox vacibdir".

# Azərbaycanın və Fransanın Xarici İşlər nazirləri arasında telefon danışığı olub

Oktyabrın 2-də Azərbaycan Respublikasının Xarici İşlər naziri Ceyhun Bayramov və Fransa Respublikasının Xarici İşlər naziri Jan İv Lö Drian arasında telefon danışığı olub.




Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, nazir Jan İv Lö Drian bölgədə yaşanan gərginlikdən ciddi narahatlıq ifadə edib. O, gərginliyin aradan qaldırılması və atəşkəsə riayət olunmasının vacibliyini vurğulayıb. Bu xüsusda ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin rəhbərlərinin açıqlamasına istinad edilib.

Ceyhun Bayramov bu ilin 27 sentyabr tarixində Ermənistan tərəfinin əl atdığı yeni hərbi təcavüzə cavab olaraq, Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin öz beynəlxalq tanınmış sərhədləri çərçivəsində əks-həmlələri həyata keçirdiyini bildirib. Nazir Ermənistan silahlı qüvvələrinin azərbaycanlı mülki şəxslərin və mülki infrastrukturun məqsədli şəkildə hədəfə alınmasına və mülki insanlar arasında itkilərin olması faktına diqqəti cəlb edib. Bunun Ermənistan tərəfindən növbəti dəfə beynəlxalq humanitar hüququn kobud şəkildə pozulması halının olduğunu vurğulayan nazir dinc əhalinin atəşə tutulmasının Ermənistan rəhbərliyinin terrorçu mahiyyətini göstərdiyini qeyd edib. Nazir bölgədə gərginliyin hələ də davam etdiyini bildirərək, yaranmış vəziyyətin tam məsuliyyətinin Ermənistan siyasi-hərbi rəhbərliyinin üzərinə düşdüyünü qeyd edib.

# Ukrayna Prezidenti Vladimir Zelenski Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini bəyan edib

Ukrayna Prezidenti Vladimir Zelenski Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini bəyan edib.

AZƏRTAC bu barədə "RBK-Ukraina"ya istinadla xəbər verir ki, Prezident V.Zelenski Çernovitskaya vilayətində jurnalistlərlə söhbət zamanı deyib: "Azərbaycanlılar bizi dəstəklədikləri kimi, biz də Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü dəstəkləyirik". V.Zelenski ölkələrin bir-birinin suverenliyi və ərazi bütövlüyü məsələsində qarşılıqlı dəstəyini başlıca aspekt adlandırıb. O, qeyd edib ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə bənzər münaqişələri dondurulmuş adlandırmaq olmaz, çünki bu vəziyyət daimi ola bilməz".

Ukrayna Prezidenti deyib: "Mən medianın, cəmiyyətin və qərbli tərəfdaşların diqqətinə çatdırmaq istəyirəm ki, sadəcə dondurulmuş münaqişələr olmur. Onlar müəyyən vaxtadək dondurulmuş ola bilər. Bizim mövqeyimiz belədir".

Ukrayna dövlətinin başçısı son illərdə Azərbaycan ilə öz ölkəsinin münasibətlərinin möhkəmlənməsini də vurğulayıb. O deyib: "Azərbaycan ilə münasibətlərə gəlincə, son iki ildə bu münasibətlər xüsusilə iqtisadiyyat və geosiyasi istiqamətlərdə çox möhkəmlənib".

# İraq bölgədəki gərgin vəziyyətdən narahatdır

Oktyabrın 2-də Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramovla İraqın Xarici İşlər naziri Fuad Hüsseyn arasında telefon danışığı olub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazir Fuad Hüsseyn bölgədəki gərgin vəziyyətlə bağlı narahatlığını ifadə edib və hazırkı durumla maraqlanıb. Nazir Ceyhun Bayramov Ermənistan silahlı qüvvələri tərəfindən sentyabrın 27-də Ermənistanın bütün cəbhə xətti boyu Azərbaycana qarşı iriçaplı silahlar və artilleriya qurğularından istifadə edərək həyata keçirdiyi yeni təcavüz aktına cavab olaraq Azərbaycan Silahlı Qüvvələrinin əks-həmlələr həyata keçirdiyini qarşı tərəfin diqqətinə çatdırıb. Ermənistanın ənənəvi olaraq beynəlxalq humanitar hüququ kobud şəkildə pozduğu, azərbaycanlı mülki əhali və infrastrukturu atəşə tutduğu, nəticədə mülki insanlar arasında itkilərin olduğu barədə İraq Xarici İşlər nazirinə məlumat verilib. Davamlı sülh və təhlükəsizliyə nail olmaq üçün BMT Təhlükəsizlik Şurasının qətnamələri başda olmaqla, beynəlxalq təşkilatların qəbul etdiyi qərar və qətnamələrin yerinə yetirilməsinin zəruriliyi vurğulanıb.

# XİN ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin rəhbərlərinin bəyanatına dair açıqlama yayıb

Məlum olduğu kimi, sentyabrın 27-dən Ermənistan silahlı qüvvələri atəşkəs rejimini kobud şəkildə pozaraq, təmas xətti boyunca Azərbaycan Respublikasının mövqelərini iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından atəşə tutaraq Azərbaycana qarşı növbəti təcavüzə əl atıb.

Azərbaycan mövqelərinə qarşı yeni təcavüz aktı Ermənistanın son aylar ərzində sərgilədiyi təxribatçı fəaliyyətin, o cümlədən 12-16 iyul Tovuz istiqamətində hücum cəhdi, 23 avqust Goranboy istiqamətində diversiya-kəşfiyyat təxribatı, Azərbaycanın işğal olunmuş ərazilərində qeyri-qanuni məskunlaşdırma siyasətinin aparılması, eləcə də Ermənistan rəhbərliyinin təhrikçi bəyanat və fəaliyyətinin davamıdır.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Xarici İşlər Nazirliyinin ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin rəhbərlərinin bəyanatına dair açıqlamasında yer alıb.

XİN-in açıqlamasında deyilir: "Azərbaycan Respublikasının Prezident İlham Əliyev BMT-nin Baş Assambleyasının 75-ci sessiyasının ümumi müzakirələrdə çıxışı zamanı Ermənistanın Azərbaycana qarşı yeni hərbi təxribata hazırlaşdığı ilə bağlı xəbərdarlıq edib. Qeyd etmək istərdik ki, Ermənistan rəhbərliyi tərəfindən həm sözdə, həm də əməldə törədilmiş təxribatlar, o cümlədən Azərbaycanın işğal olunmuş ərazilərindəki qondarma rejimin "inaqurasiyasında" iştirak üçün Şuşa şəhərinə getməsi, işğal olunmuş Xankəndi şəhərində təhrikçi xarakterli "Qarabağ Ermənistandır" bəyanatını səsləndirməsi, işğalçı ölkənin "yeni ərazilər üçün yeni müharibə" konsepsiyasını irəli sürməsi, münaqişənin həlli ilə bağlı danışıqlarda 7 qeyd-şərt irəli sürməsi, eləcə də danışıqların formatını dəyişdirmək cəhdləri ATƏT-in Minsk qrupu həmsədrlərinin vasitəçiliyi ilə aparılan münaqişənin həlli prosesinə zərbə vurub. Azərbaycana qarşı növbəti hərbi təcavüzü çərçivəsində Ermənistan silahlı qüvvələri ənənəvi şəkildə beynəlxalq hüququn norma və prinsiplərini, xüsusilə də beynəlxalq humanitar hüquq və 1949-cu il Cenevrə Konvensiyaları və onların Əlavə Protokollarını kobud şəkildə pozaraq, Azərbaycanın mülki əhalisini və infrastrukturunu məqsədyönlü şəkildə atəşə tutur, bununla da mülki əhaliyə qarşı müxtəlif cinayətlər törədir. Oktyabrın 1-nə olan məlumata əsasən, Azərbaycanın 19 mülki şəxsi qətlə yetirilib, 55 nəfər yaralanıb və 200-dən çox ev və mülki obyektlər dağıdılıb. Ermənistan tərəfindən Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və ətraf rayonlarının işğalı zamanı hərbi əməliyyatlarda terror qruplaşmalarından və muzdlu döyüşçülərdən istifadə edildiyinə dair çoxsaylı faktlar mövcuddur. Hazırda da Ermənistan rəhbərliyi bu siyasəti davam etdirərək, həyata keçirdiyi yeni təcavüz aktı çərçivəsində Azərbaycana qarşı ekstremist ünsürlərdən geniş istifadə edir. ATƏT-in Minsk qrupu bu günədək verdiyi çoxsaylı bəyanatlarda status-kvo vəziyyətinin qəbuledilməz olduğunu vurğulayıb. Ermənistan isə buna rəğmən işğala əsaslanan status-kvo rejiminin möhkəmləndirilməsi məqsədini güdür. Görünən odur ki, Ermənistan münaqişənin danışıqlar yolu ilə həllində maraqlı deyil və işğal etdiyi ərazilərin ilhaqına çalışır. BMT Təhlükəsizlik Şurasının 1993-cü il 822, 853, 874 və 884 saylı qətnamələri başda olmaqla beynəlxalq təşkilatların qəbul etdiyi çoxsaylı qərarların Ermənistanın işğalçı qüvvələrinin Azərbaycanın işğal edilmiş bütün ərazilərindən çıxarılması ilə əlaqədar tələbləri bu günədək Ermənistan tərəfindən yerinə yetirilmir. Əksinə, cəzasızlıq mühitində Ermənistan Azərbaycana qarşı yeni təcavüz aktlarına əl atır. Bölgədə yaranmış vəziyyətin tam məsuliyyəti Ermənistanın siyasi və hərbi rəhbərliyinin üzərinə düşür".

# *XİN:* Mülki şəxsləri və obyektləri hədəfə alan Ermənistan beynəlxalq humanitar hüquq normalarını kobudcasına pozur

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin məlumatına əsasən, oktyabrın 2-də günorta saatlarından etibarən Ermənistan ərazisindən Azərbaycanın Şəmkir rayonunun Sabirkənd kəndi raket atəşinə, Tovuz rayonunun Ağdam kəndi isə artilleriya atəşinə tutulur.

Ermənistan silahlı qüvvələri həmçinin işğal olunmuş ərazilərimizdən Bərdə rayonunun Əmirli və Ağdam rayonunun Quzanlı yaşayış məntəqələrini artilleriya atəşinə tutur.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, mülki şəxsləri və obyektləri məqsədyönlü şəkildə hədəfə alan Ermənistan tərəfi beynəlxalq humanitar hüquq normalarını, eləcə də bu xüsusda üzərinə götürdüyü öhdəlikləri kobudcasına pozur.

Təcavüz siyasətini davam etdirən Ermənistan, ölkə rəsmilərinin bəyan etdiyi kimi, "yeni ərazilər üçün yeni müharibə" taktikasını həyata keçirməyə çalışır.

"Azərbaycan Ordusu ölkəmizin beynəlxalq sərhədləri çərçivəsində ərazi bütövlüyünü qorumaq və mülki əhalinin təhlükəsizliyini təmin etmək üçün Ermənistan tərəfinin həmlələrinə adekvat cavab verəcəkdir. Bir daha bəyan edirik ki, yaranmış vəziyyətə görə tam məsuliyyət Ermənistanın üzərinə düşür", - deyə məlumatda bildirilir.

# *"Euractiv"*: Macarıstan Azərbaycanı dəstəkləyir

Dağlıq Qarabağda gərginləşən qarşıdurmada Macarıstanın mövqeyi Azərbaycanı dəstəkləməkdən ibarətdir.

AZƏRTAC xəbər verir ki, bu barədə Avropa İttifaqının "Euractiv" internet-nəşri yazır.

Nəşrdə bildirilir ki, Macarıstan XİN-in bəyanatında deyilir: "Sakinləri arasında ermənilərin sayca üstünlük təşkil etdiyi Dağlıq Qarabağ Azərbaycanın beynəlxalq səviyyədə tanınan sərhədləri hüdudunda yerləşir və Macarıstan beynəlxalq hüququn ümumi prinsipi kimi dövlətlərin ərazi bütövlüyünü və suverenliyini dəstəkləyir".

İnternet-portalda Macarıstan XİN-in bəyanatından "Macarıstan Ermənistan-Azərbaycan münaqişəsinin genişləndiyi zonada gərginliyin azaldılmasına və münaqişənin ATƏT-in Minsk qrupu formatı çərçivəsində danışıqlar yolu ilə həllinə çağırır" sözləri sitat gətirilir.

# XİN Ermənistanın qoşunların təmas xətti boyunca dinc sakinləri və mülki infrastrukturu atəşə tutması ilə bağlı bəyanat yayıb

Azərbaycan Xarici İşlər Nazirliyi Ermənistan silahlı qüvvələrinin təmas xətti boyunca dinc sakinləri və mülki infrastrukturu məqsədyönlü şəkildə ağır artilleriyadan istifadə etməklə atəşə tutmasına dair bəyanat yayıb. XİN-in Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, bəyanatda deyilir:

"Sentyabrın 27-dən etibarən cavab olaraq, Azərbaycan silahlı qüvvələrinin həyata keçirdiyi əks-hücum əməliyyatlarında döyüş meydanında bir-birinin ardınca acı məğlubiyyətə uğrayan Ermənistan informasiya məkanında da ard-arda cəfəng iddialar ortaya atmaqla, primitiv yollarla Azərbaycanın haqlı mübarizəsinə kölgə salmaq məqsədi güdür. Azərbaycan Silahlı Qüvvələri Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunması, mülki əhalisinin təhlükəsizliyinin təmin edilməsi məqsədilə özünü müdafiə hüququ çərçivəsində və beynəlxalq humanitar hüquqa tam əməl etməklə beynəlxalq səviyyədə tanınmış ərazilərimizin daxilində hərbi əməliyyat həyata keçirir. Azərbaycan Ordusunun hədəfi ölkəmizin ərazilərinə beynəlxalq hüquqa zidd olaraq müdaxilə etmiş Ermənistan silahlı qüvvələridir və Silahlı Qüvvələrimiz işğal edilmiş ərazilərimizdəki legitim hərbi hədəfləri zərərsizləşdirmək istiqamətində tədbirlər görür. Silahlı Qüvvələrimiz tərəfindən qeyd edilən məqsədlə atılan bütün addımlar beynəlxalq hüququn norma və prinsipləri, BMT Nizamnaməsindən irəli gələn hüquqlar çərçivəsində icra edilir. Silahlı Qüvvələrimiz tərəfindən aparılan hərbi əməliyyatlar gedişində Ermənistanın illərdən bəri özünün işğalçı siyasətini ört-basdır etmək məqsədilə beynəlxalq ictimaiyyətə sırımağa çalışdığı, guya, münaqişənin Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin erməni əhalisinin öz müqəddəratını təyin etmə uğrunda mübarizəsi olduğu, Ermənistanın münaqişə tərəfi olmadığı, bu ölkənin Dağlıq Qarabağ əhalisini müdafiə etdiyi kimi qondarma tezislər tamamilə iflasa uğramışdır. Münaqişə zonasında son günlər baş verən hadisələr Ermənistan tərəfindən işğal edilmiş ərazilərimizdə yaratdığı qanunsuz rejimin irqçilik və etnik ayrıseçkilik əsasında yaradılmış oyuncaq struktur olması əyani şəkildə sübut olunub. Ermənistanın işğalçılıq siyasətini müşayiət etmiş etnik təmizləmə, soyqırımı və digər ağır müharibə və insanlıq əleyhinə cinayətlər nəticəsində 750 mindən çox dinc azərbaycanlının ən sadə insan hüquq və azadlıqlarının kobud şəkildə pozulması fonunda Ermənistanın öz təcavüzkar hərəkətlərini insan hüquqlarının müdafiəsi kimi qələmə verməsinə artıq heç kim inana bilməz. Özünün hərbi və informasiya müstəvisində ağır məğlubiyyətlərini kompensasiya etmək məqsədilə Ermənistan Azərbaycana qarşı böhtan xarakterli yeni iddiaları tirajlamağa uğursuz cəhd edir. Bu xüsusda Azərbaycan Silahlı Qüvvələrinin işğal edilmiş ərazilərdə mülki insanları və mülki infrastrukturu hədəfə aldığını, Türkiyə Silahlı Qüvvələrinin Azərbaycan tərəfindən hərbi əməliyyatlarda iştirak etdiyini və Yaxın Şərqin bəzi münaqişəli bölgələrindən muzdluların Azərbaycan tərəfindən Ermənistana qarşı əməliyyatlara cəlb edildiyinə dair əsassız və cəfəng iddialar irəli sürülür. Ermənistanın Azərbaycanın mülki insanları və infrastrukturu hədəf alması ilə bağlı iddiaları ən azı ona görə saxta və əsassızdır ki, məhz Ermənistanın həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində təmas xəttinin qarşı tərəfindən bütün mülki şəxslər öz evlərindən qovulmuşdur və bu ərazilərdə Ermənistanın işğalı davam etdirmək üçün formalaşdırdığı hərbi infrastrukturdan başqa hər hansı bir infrastruktur qalmamışdır. Bunun əksinə olaraq, təmas xəttinin Azərbaycan Silahlı Qüvvələrinin nəzarətində olan hissəsində sıx şəkildə məskunlaşmış yaşayış məntəqələri və onları təmin edən mülki infrastruktur yerləşir. Münaqişənin davam etdiyi bütün müddət ərzində Ermənistan silahlı qüvvələri tərəfindən davamlı olaraq hədəf alınan bu yaşayış məntəqələrinə son 5 gün ərzində ciddi ziyan dəymiş, mülki vətəndaşlar arasında çoxsaylı itkilər və yaralananlar qeydə alınmışdır".

Qeyd olunur ki, Türkiyənin hazırkı hərbi əməliyyatların tərəfi kimi qələmə verməklə, Ermənistan həm Azərbaycan Silahlı Qüvvələrinə qarşı acizliyini özünün ictimaiyyətinə izah etmək, həm də beynəlxalq ictimai rəydə ənənəvi olaraq "yazıq" imici yaratmaqla, türkofob dairələrdən dəstək ummağa cəhd edir: "Ermənistan tərəfi birmənalı bilməlidir ki, Türkiyə ən yaxın strateji tərəfdaşımız olmaqla, Azərbaycanın haqq işinə özünün birmənalı və sarsılmaz dəstəyini ifadə etmişdir. Bu dəstək yalnız Azərbaycan və Türkiyə arasında qədim tarixə söykənən qardaşlıq münasibətlərinin təzahürü deyildir. Türkiyə Azərbaycanı məhz haqlı olduğuna, işğala məruz qaldığına və işğal edilmiş ərazilərini azad etmək hüququna malik olduğuna görə dəstəkləyir. Ermənistan tərəfi həm də unutmamalıdır ki, Türkiyə münaqişənin nizama salınmasının həvalə olunduğu ATƏT-in Minsk qrupunu yaradan və onun daimi üzvü olan dövlətdir. Bu baxımdan Türkiyə tərəfindən münaqişənin həlli ilə bağlı beynəlxalq hüququn norma və prinsiplərinə, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə və ATƏT-in əlaqədar sənədlərinə söykənən mövqe nümayiş etdirməsindən Ermənistan və ya hər hansı bir digər tərəf təəccüblənməməlidir. Bu, Türkiyənin beynəlxalq ictimaiyyətin nüfuzlu və hörmətə malik olan məsuliyyətli üzvü olmasından irəli gələn bir mövqedir və bütün digər dövlətlər, xüsusilə münaqişənin BMT və ATƏT-in istinad olunan sənədləri çərçivəsində mandat həvalə edilmiş Minsk qrupunun digər üzvləri üçün nümunə təşkil edir. Azərbaycan və Türkiyənin çoxşaxəli əməkdaşlığı 30 ilə yaxındır ki, Cənubi Qafqaz regionunda inkişafın, tərəqqinin, sabitlik və təhlükəsizliyin təməlini təşkil edir. Bu müddət ərzində regionda həyata keçirilən qitə və qlobal miqyaslı bütün layihə və təşəbbüslər üçün Türkiyə və Azərbaycan əməkdaşlığı lokomotiv rolunu oynamışdır. Ermənistanın isə bundan yararlana bilməməsi yalnız bu ölkənin özünün seçimidir və buna görə Ermənistan Türkiyə və Azərbaycanı deyil, məhz özünü günahlandırmalıdır. Azərbaycan və Türkiyə arasında bütün sahələrdə olduğu kimi, hərbi-texniki sahədə də sıx əməkdaşlıq olduğu da açıq və birmənalıdır. Hazırda işğalçı Ermənistan ordusuna qarşı həyata keçirilən hərbi əməliyyatlara gəldikdə isə, Azərbaycanın ərazi bütövlüyü və suverenliyini təmin etmək üçün qarşıya qoyulan məqsədə nail olmağa tam şəkildə qadir olan güclü, peşəkar və ən müasir silah və sursatla təmin edilmiş ordusu var və bu işdə digər dövlətin iştirakına ehtiyac yoxdur. Ermənistanın terrorçu və muzdlu şəxslərin Azərbaycan tərəfindən hərbi əməliyyatlara cəlb edildiyinə dair iddialara cavab olaraq, bir daha qeyd edirik ki, Ermənistan propaqanda maşınının bu iddiaları tamamilə əsassızdır. Hərbi əməliyyatlar hələ başlamamışdan öncə Ermənistan tərəfindən tirajlanan, heç bir fakta əsaslanmayan bu iddialar Ermənistanın 27 sentyabr tarixində həyata keçirdiyi təcavüz aktı ilə bağlı zəruri informasiya fonu yaratmaq məqsədi güdür, bu ölkənin Yaxın Şərqin bir sıra ölkələrindən olan erməni mənşəli terrorçuların mənfur "xidmətlərindən" istifadə etməsindən diqqəti yayındırmaq, Azərbaycanın haqlı mübarizəsinə ləkə salmaq niyyəti ilə apardığı böhtan kampaniyasının bir elementidir. Münaqişənin davam etdiyi bütün müddət ərzində məhz Ermənistan terrorçu dəstələrdən Azərbaycanlı dinc əhaliyə qarşı insanlıq əleyhinə cinayətlərin törədilməsində intensiv şəkildə istifadə etmiş, xüsusi qəddarlığı ilə seçilmiş terrorçuları bu gün də Ermənistanda milli qəhrəman statusu daşıyır, Azərbaycana qarşı təcavüzkar müharibədə iştiraka məcbur edilən ermənilər üçün nümunə kimi şöhrətləndirilir və qəhrəmanlaşdırılır. Ermənistan tərəfindən Yaxın Şərq ölkələrindən terrorçu etnik erməni ünsürləri kütləvi və sistemli şəkildə işğal edilmiş ərazilərimizdə yerləşdirilməsinə dair saysız-hesabsız faktlar davamlı şəkildə beynəlxalq ictimaiyyətin, xüsusilə ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin diqqətinə çatdırılmışdır. Hazırda işğal edilmiş ərazilərimizə qanunsuz yerləşdirilmiş bu terrorçu ünsürlər Azərbaycana və onun mülki əhalisinə qarşı təcavüzkar müharibədə iştirak edir. Bu terrorçu dəstələrin Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış ərazilərindən çıxarılmasına dair beynəlxalq ictimaiyyətə olan çağırışlarımız öz nəticəsini vermədiyi şəraitdə, beynəlxalq və regional sülh və təhlükəsizlik üçün ciddi hədə olan bu problemin həlli yalnız Azərbaycan Silahlı Qüvvələri tərəfindən ərazilərimizin işğalına son qoyulması ilə mümkün olacaqdır. Erməni propaqandasının Azərbaycana qarşı böhtan kampaniyasının etnik və dini mövzuları məsuliyyətsiz şəkildə sui-istifadə etməklə mümkün ola biləcək ən aşağı səviyyəyə endiyi, Ermənistanın özünün işğalçı siyasətini "səlib yürüşü" "demokratiya uğrunda mübarizə" kimi cəfəng şüarlarla beynəlxalq ictimaiyyətə sırımağa çalışdığı bir vəziyyətdə onun əsassız iddialarını qətiyyətlə rədd edirik".

# Çağırışçılar müddətli həqiqi hərbi xidmətə yola düşürlər



Prezident İlham Əliyevin avqustun 26-da imzaladığı Sərəncama əsasən, 2002-ci ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1985-2001-ci illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan vətəndaşlarının müəyyənləşdirilmiş qrafik əsasında xidmət yerlərinə göndərilməsinə başlanılıb.

Xidmətdən AZƏRTAC-a bildiriblər ki, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən çağırışçıların müddətli həqiqi hərbi xidmətə yola salınması oktyabrın 30-dək davam edəcək.

Gənc əsgərlər cəbhəyə deyil, müvafiq qoşun növlərinin hərbi hissələrinə - təlim mərkəzlərinə göndərilir və qarşıdakı üç ay müddətində orada təlimlər keçəcək, hərbin sirlərini öyrənəcək və sonra xidmətlərini təyin olunduqları yerlərdə davam etdirəcəklər. Oktyabr çağırışçıları müddətli həqiqi hərbi xidmətə Azərbaycan əsgəri olmaq kimi şərəfli bir missiyanı yerinə yetirəcəkləri üçün qürur hissi ilə yola düşürlər.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti çağırışçılara hərbi xidmətlərində uğurlar arzulayır.

# Müdafiə Nazirliyi xəbər verir

## *Polkovnik Vaqif Dərgahlı:* "Ermənistan cəbhəyə qadınları göndərir"



**Əldə olunan məlumata əsasən, son günlər davam edən şiddətli döyüşlər nəticəsində xeyli itki verən düşmən ciddi şəkildə şəxsi heyət çatışmazlığı ilə üzləşir.**

Buna səbəb çoxlu sayda itkilərlə yanaşı, Ermənistan silahlı qüvvələrinin bir sıra ön xətt bölmələrin şəxsi heyətində ruh düşkünlüyünün müşahidə olunması, bir çox hərbi qulluqçunun isə, ümumiyyətlə, döyüşdən imtina etməsidir.

Bunu Müdafiə Nazirliyinin Mətbuat xidmətinin rəisi polkovnik Vaqif Dərgahlı AZƏRTAC-a açıqlamasında deyib.

V.Dərgahlı bildirib ki, itkilərinin gündəngünə artması və ehtiyat qüvvələrinin az olması Ermənistan müdafiə nazirliyini ölkə qadınlarına müraciət etməyə vadar edib. Ermənistan müdafiə nazirliyi tərəfindən artıq qadın batalyonu yaradılıb və hazırda komplektləşdirilir.

## *General-mayor Hikmət Həsənov:* "Hərbçilərimizin döyüş əzmi qələbəmizi təmin edəcək"



Hərbi birliyin şəxsi heyətinin amalı qələbə qazanmaq naminə son damla qanımızadək vuruşmaq və düşməni darmadağın etməkdir.

AZƏRTAC Müdafiə Nazirliyinin saytına istinadla xəbər verir ki, bunu hərbi birliyin komandiri general-mayor Hikmət Həsənov deyib.

"Bunun üçün əsgərlərimizin döyüş ruhu və qələbə əzmi kifayət qədər yüksəkdir", - deyə general bildirib.

# Ermənistan Silahlı Qüvvələrinin 193-cü desant həmlə taborunun döyüş bayrağı ələ keçirilib

İşğalçı Ermənistan silahlı qüvvələrinin bölmələri rəşadətli Azərbaycan Ordusunun sarsıdıcı zərbələri qarşısında duruş gətirməyərək nəinki öz mövqelərini, hətta döyüş bayraqlarını də qoyub qaçır.



AZƏRTAC xəbər verir ki, Ermənistan silahlı qüvvələrinin 193-cü desant həmlə taborunun hava endirim komanda birliyinin döyüş bayrağı ələ keçirilib.

Döyüş bayrağı hər bir hərbi hissənin şərəf və qeyrət rəmzidir. Bu bayraq aid olduğu hərbi hissə ilə birlikdə döyüş əməliyyatları bölgəsində olmalıdır. Hərbi hissənin bütün şəxsi heyəti döyüş bayrağını fədakarlıq və mərdliklə qorumalı, onun ələ keçirilməsinə yol verməməlidir. Döyüş bayrağı itirildikdə onun məxsus olduğu hərbi hissə ləğv edilməlidir.

Fotolardan da göründüyü kimi, düşmənin 193-cü desant həmlə taborunun hava endirim komanda birliyinin döyüş bayrağı cəsur Azərbaycan əsgərinin ayaqları altındadır. Bu fotolar bir daha sübut edir ki, əgər Ermənistan ordusu Azərbaycanın əbədi və əzəli torpaqlarından geri çəkilməsə, onun işğal olunmuş ərazilərimizdəki digər hərbi hissə və bölmələrini də eyni aqibət gözləyir.

## *Müdafiə Nazirliyi:* Ermənistan ordusunun əsgərləri arasında atışma olub

Əldə edilən məlumata əsasən, gecə döyüşləri zamanı geri çəkilən Madagizdəki 6-cı dağ atıcı alayının əsgərləri arasında atışma baş verib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, şəxsi heyət arasında hökm sürən qorxu və vahimə hissi erməni hərbçilərində ruh düşkünlüyü yaradıb.

## Ermənistan silahlı qüvvələri mülki obyektləri atəşə tutmaqda davam edir

Düşmən Ermənistan ərazisindən Şəmkirin Sabirkənd, işğal olunmuş ərazilərimizdən isə Ağdamın Quzanlı, Xındırıstan, Əlibəyli, Əhmədağalı və Səfərli, Bərdə rayonunun Əmirli, Soğanverdilər, Tovuz rayonunun Ağdam kəndlərini, Tərtər şəhərini və rayonun Şıxarx qəsəbəsini raket atəşinə tutub.

# Müdafiə Nazirliyi düşmənin canlı qüvvə və döyüş texnikasının məhv edilməsinə dair yeni görüntüləri paylaşıb

**Azərbaycan Respublikasının Müdafiə Nazirliyi düşmənin canlı qüvvə və döyüş texnikası sarıdan ağır itkilər verməsinə dair növbəti video paylaşıb.**



Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a daxil olan videoda bölmələrimizin dəqiq zərbələri nəticəsində düşmənin canlı qüvvə və döyüş texnikasının məhv edilməsi əks olunub.

# Ermənistan ordusunun bir neçə hərbi texnikası ələ keçirilib

Azərbaycan Ordusunun qətiyyətli zərbələri qarşısında duruş gətirə bilməyən düşmən silah-sursatını, döyüş texnikalarını ataraq və döyüş mövqelərini tərk edərək qaçır.

AZƏRTAC xəbər verir ki, qəhrəman hərbçilərimiz uğurlu əməliyyat nəticəsində düşmənin daha bir neçə - ondan çox texnikasını, o cümlədən "URAL" markalı hərbi maşınlarını qənimət olaraq ələ keçirib. Avtomobillərin içərisində Ermənistan ordusuna məxsus silah-sursat, geyimlər, əsgər ləvazimatları və s. aşkarlanıb. Hərbi texnikalar istifadəyə yararlıdır.

Qeyd edək ki, daha əvvəl də Ermənistan ordusunun bir neçə hərbi maşını qənimət olaraq ələ keçirilmişdi.

❖ ❖ ❖

Cəbhənin Füzuli istiqamətində ordumuzun həyata keçirdiyi uğurlu döyüş əməliyyatları davam edir. Bu istiqamətdə geri çəkilən düşmənin daha bir texnikası bölmələrimiz tərəfindən ələ keçirilib.

Azərbaycan Ordusunun əks-həmləsi və sarsıdıcı zərbələri nəticəsində böyük ruh düşkünlüyünə qapılan düşmən yenə də özünə məxsus texnikanı, silah-sursatı ataraq qaçıb.

Hərbçilərimiz tərəfindən ələ keçirilən bugünkü texnika "ZİL-131" markalı hərbi avtomaşın olub. Texnikanın içərisində ermənilərə məxsus su qabları, çanta və digər əşyalar var.

# *Bahar MURADOVA:* "Azərbaycan Ordusunun başladığı bu zəfər yürüşü bizi hədəfimizə çatdıracaq"

"İnanırıq ki, Azərbaycan Ordusunun başladığı bu zəfər yürüşü bizi öz hədəfimizə çatdıracaq, ərazi bütövlüyümüzü bərpa edəcək və doğma yurdundan didərgin düşmüş insanların haqqını özlərinə qaytaracaq".

AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova oktyabrın 2-də keçirdiyi mətbuat konfransında deyib.

B.Muradova bildirib ki, beynəlxalq ictimaiyyətə komitənin adından etiraz bəyanatı göndərilib, bu məsələyə biganə qalmamaq məsləhət görülüb, lakin gözləntilərin bəziləri özünü doğrultmayıb.

"Ermənistan öz arsenalında olan demək olar ki, bütün silahlardan istifadə edərək Azərbaycana qarşı növbəti təcavüz aktı reallaşdırmağa çalışırdı. Bu döyüşdə də hər zaman olduğu kimi, mülki əhali, xüsusilə də insanların kütləvi toplaşdığı müəssisələr, həmçinin məktəblər, xəstəxanalar, məcburi köçkünlər üçün yeni tikilmiş qəsəbələrin hədəfə alınması onların öz xislətində, əməllərində müsbət mənada heç bir inkişafın olmadığını göstərir. Bu faktlar ermənilərin cinayətkarlığa meyillərini daha da "zənginləşdirir". Əlbəttə ki, düşmənin təmas xəttinə yaxın yerlərdə və ondan xeyli uzaqda yerləşən, qaçqın və məcburi köçkünlərin məskunlaşdığı əraziləri, qəsəbələri seçməsi xüsusilə qeyd olunmalıdır", - deyə komitə sədri bildirib.

Qeyd edilib ki, məcburi köçkünlər bir neçə dəfə erməni hücumundan zərər, əziyyət çəkiblər, qurbanlar veriblər. Ötən illər ərzində Azərbaycan dövləti tərəfindən onların məskunlaşdırılması, məşğulluğunun təmin olunması üçün böyük işlər görülüb. Bildirilib ki, ermənilər hazırda Şəmkir, Yevlax, Ağcabədi, Cəbrayıl, Füzuli kimi rayonların əhalisini təhlükə altında qoyurlar. Bu gün səhərə olan məlumata görə, mülki şəxslər arasında 55 yaralı var, 19 nəfər həlak olub. Həlak olanların çoxu qadın və yaşlı insanlardır.

Təcavüzkar ölkənin beynəlxalq hüquqa hörmətsizlik etdiyini, beynəlxalq prinsiplərə məhəl qoymadığını bildirən komitə sədri deyib: "Ermənistan 1992-ci ildə BMT-nin "Uşaq hüquqları haqqında" Konvensiyasını ratifikasiya edib. "Uşaq hüquqları haqqında" Konvensiyanın



38-ci maddəsinin 4-cü bəndində "Silahlı münaqişələr zamanı mülki əhalinin müdafiəsi ilə bağlı beynəlxalq humanitar hüquq üzrə öz öhdəliklərinə uyğun olaraq iştirakçı dövlətlər silahlı münaqişənin toxunduğu uşaqların müdafiəsini və onlara baxılmasını təmin etmək üçün bütün mümkün tədbirləri görürlər" qeyd olunub. Ermənistan üzərinə götürdüyü beynəlxalq öhdəlikləri kobudcasına pozur. Bu da, şübhəsiz ki, hərbi cinayətdir. "Müharibə zamanı mülki əhalinin müdafiəsi" haqqında Cenevrə Konvensiyasının 3-cü maddəsinə görə, döyüş əməliyyatlarında birbaşa iştirak etməyən şəxslərin həyat və sağlamlığına qəsd, xüsusən adamöldürmənin bütün növləri, bədən xəsarəti yetirmə, qəddar rəftar və ya işgəncə qadağan edilir. Müharibə təkcə döyüş meydanında getmir, ermənilər, həmçinin sosial şəbəkələrdə, mediada kiberhücumlarla prosesə dəstək verirlər.

Bahar Muradova həmçinin bildirib ki, Ermənistan BMT-nin Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrini kobud şəkildə pozur. Həmin qətnamələrdə Azərbaycana qarşı güc tətbiq edilməsi və onun ərazilərinin işğalı pislənilir, ölkəmizin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı bir daha təsdiq olunur. BMT-nin Ümumdünya İnsan haqları Bəyannaməsinin 3-cü maddəsində hər bir insan yaşamaq, azadlıq və şəxsi toxunulmazlıq hüququna malik olduğu, sənədin 13-cü maddəsində hər bir insanın, hər bir dövlətin hüdudları daxilində sərbəst hərəkət etmək və özünə yaşayış yeri seçmək hüququna malik olduğu bildirilir. Bununla da bir daha görürük ki, Ermənistan regionda sülhün bərqərar olması üçün heç bir addım atmır, əksinə, vəziyyəti daha da təhlükəli hala salır.

# Azərbaycan öz ərazisində beynəlxalq hüququ bərpa edir




Əvvəli 1-ci səh.

Dövlət başçısı qeyd etdi ki, Ermənistan rəhbərliyinin Azərbaycanofob bəyanatları və edilən təxribatlar bu ölkənin Azərbaycana qarşı yeni müharibəyə hazırlaşdığını nümayiş etdirir. Buna görə İlham Əliyev BMT-ni və beynəlxalq ictimaiyyəti Ermənistanı növbəti hərbi təcavüzdən çəkindirməyə dəvət etdi.

Sentyabrın 25-də Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarı qəbul edərkən də Prezident İlham Əliyev son dövrlərdə baş verən bütün prosesləri, Ermənistanın iyul təxribatını, Azərbaycana diversiya qrupu göndərdiyini, könüllülərdən ibarət qoşun yaratdığını, Şuşada cinayətkar xunta rejiminin qondarma liderinin dırnaqarası andiçmə mərasiminin keçirildiyini və digər təxribatçı hərəkətləri detallı şəkildə onun diqqətinə çatdırdı. “Kəşfiyyat mənbələrimizdə məlumat var ki, çox ciddi hərbi hazırlıqlar gedir, onların hərbi qüvvələri təmas xəttində, dövlət sərhədində cəmləşir” deyən İlham Əliyev başqa bir xəbərdarlığını da etdi ki, əgər Ermənistan hücum etsə, peşman olacaq.

Beləliklə, Azərbaycan Prezidenti xüsusilə son günlərdə davamlı şəkildə Ermənistanın yeni hərbi əməliyyatlara başlamaq niyyəti ilə bağlı beynəlxalq ictimaiyyəti yetərincə məlumatlandırmışdı. Eyni zamanda Ermənistanın özü də xəbərdar edilmişdi. Lakin nə beynəlxalq təşkilatlar, nə də Ermənistan bu xəbərdarlıqdan nəticə çıxarmadı. Ona görə sentyabrın 27-də Ermənistanın təxribatının qarşısını layiqincə alan Azərbaycan işğalçı dövləti, sözün əsl mənasında peşman etməkdədir.

## Makronun mövqeyi Fransanın Minsk qrupunun həmsədri kimi mandatına ziddir

Zamanında fəallıq göstərməyən, Ermənistana qarşı kəsərli təsir mexanizmlərini tətbiq etməyən, işğalçıya “dur” deməyən təşkilatlar və bir sıra dövlətlər son günlər atəşkəsdən, sülh danışıqlarından dəm vurmağa başlayıblar. Lakin Azərbaycan zamanında onları xəbərdar etmiş, Ermənistanı işğalçı siyasətdən çəkindirməyə, Dağlıq Qarabağ problemi ilə bağlı BMT-nin 4 qətnaməsinin yerinə yetirilməsinə çağırmışdı. Bütün bunlara laqeyd yanaşıldığından, Ermənistanın işğalçı əməllərinə göz yumulduğundan Azərbaycan işğal olunmuş ərazilərində beynəlxalq hüququn normalarını özü bərpa edir. Ona görə indi hansısa təşkilatın və ya dövlətin danışıqlara çağırışı artıq gecdir.

Bu sırada xüsusən Fransanın nümayiş etdirdiyi mövqe diqqətdən yayınmaya bilməz. Çünki Fransa prezidenti Emmanuel Makronun hərbi əməliyyatlar başlayandan bəri tutduğu mövqe və verdiyi bəyanatlar bu ölkənin münaqişənin nizamlanması prosesindəki beynəlxalq mandatına ziddir və neytral vasitəçilik missiyasının tələblərinin kobudcasına pozulmasıdır. Çünki ATƏT-in mandatına uyğun olaraq vasitəçilik edən dövlət münaqişə tərəflərindən birinə açıq və birmənalı dəstək verə, tərəflərə yanaşmada balansı nümayişkarcasına poza bilməz. Lakin Fransa prezidenti açıq şəkildə ermənipərəst mövqe ortaya qoymaqla məhz bu yolu tutub.

Əlbəttə, Fransanın dövlət başçısının ermənipərəst mövqeyinin, çağırışlarının, bəyanatlarının hərbi əməliyyatlara təsiri baxımından Azərbaycan üçün əhəmiyyətsizdir. Onun heç bir diplomatik və vasitəçilik missiyasına cavab verməyən mövqeyi sadəcə Fransada qarşıdan gələn seçkilərlə bağlıdır və bu ölkədə yaşayan erməni diasporunun səslərinin qazanılmasına yönəlib. Bu gün Makron münaqişənin nizamlanması üçün vasitəçiliklə deyil, seçki kampaniyası ilə məşğuldur. Makron Cənubi Qafqazda sülh uğrunda deyil, Fransadakı erməni seçicilərinin səsi uğrunda mübarizə aparır.

Ümumiyyətlə, Makronun davranışı və açıqlamaları göstərir ki, o, Fransa dövlətinə başçılıq etmək üçün tələb olunan keyfiyyətlərə malik deyil. Aşağı səviyyəli sarı mətbuatın yaydığı feyk xəbərlərin Fransa kimi ölkənin başçısının dilindən səslənməsi, ilk növbədə, fransız xalqı üçün başucalığı gətirmir. Vaxtilə De Qoll kimi şəxsiyyətin lideri olduğu ölkəyə bu gün sarı mətbuatın xəbərlərinin təbliğatçısı səviyyəsinə enən Makronun rəhbərlik etməsi təəssüf doğurur.

Azərbaycanın daim Fransa ilə dostluq münasibətləri yüksək səviyyədə olub, ölkəmizdə fransız dilli orta və ali məktəb var, Fransa şirkətləri Azərbaycandakı neft müqavilələrinin iştirakçıları olub, Prezident Heydər Əliyev 1993-cü ildə prezident kimi ilk səfərini məhz Fransaya etmişdi. İlham Əliyev də 2003-də ilk səfərini Fransaya edib. Azərbaycan Fransadakı tarixi abidələrin bərpa və yenidənqurması prosesində fəal iştirak edir. Bütün bunların fonunda Makron hökumətinin tutduğu mövqe təəssüf doğurur və ilk növbədə, Fransanın maraqlarına ziddir.

## Azərbaycanla müharibə fonunda Ermənistanda antisemitizm güclənir

Azərbaycan Silahlı Qüvvələrinin modernləşdirilməsi istiqamətində həyata keçirdiyi tədbirlərlə əlaqədar olaraq indiyə qədər bir sıra ölkələrlə, o cümlədən Türkiyə, Rusiya və İsraillə bu çərçivədə sıx əməkdaşlıq qurub. Ordumuzun arsenalında bu ölkələrin hərbi sənayesinin istehsalı olan müasir silahlar yer alır.

Hərbi əməliyyatlar başlayandan sonra cəbhədə ciddi itkilər verən Ermənistan Azərbaycana silah satışını iddia edərək öz səfirini İsraildən geri çağırdı. Qeyd etdiyimiz kimi, Azərbaycan həm də Rusiyadan silah alır və bu məntiqlə Ermənistan bu ölkədəki səfirini də geri çağırmalı idi. Ona görə də Ermənistanın öz səfirini İsraildən geri çağırması və bunu guya bu ölkə tərəfindən Azərbaycana silah satışı ilə əlaqələndirməsi antisemitizm siyasətini pərdələmək cəhdindən başqa bir şey deyil.

Məlum olduğu kimi, Ermənistanda antisemitizm və İsrailə qarşı nifrətin dərin kökləri var. Belə ki, ermənilər Birinci Dünya müharibəsi dövründə guya özlərinə qarşı olan “qeyri-insani” münasibətin beynəlxalq səviyyədə tanıdılması məsələsində İkinci Dünya müharibəsi dövründə yəhudi xalqının soyqırıma məruz qalmasını əsas maneə kimi görürlər.

Bu gün Ermənistanda antisemitizmdən siyasi rəqibləri ləkələmək və onları nüfuzdan salmaq üçün istifadə olunur. Məsələn, “WikiLeaks” ABŞ-ın Dövlət Departamentinin 2008-ci ilə aid “Ermənistan mətbuatı müxalifəti pisləmək üçün antisemitizmdən istifadə etməyə davam edir” başlığı altında bir məlumatını ifşa edib yaymışdı. Hətta həyat yoldaşının yəhudi olduğu iddia edilən Ermənistanın keçmiş prezidenti Levon Ter-Petrosyan da antisemit tənqidlərdən qaça bilməmişdi.

1991-ci ildə müstəqilliyini elan etdikdən sonra Ermənistana xoşməramlı səfərlər edən Amerika-Yəhudi təşkilatları da Ermənistan mediasında antisemit tənqidlərə məruz qalmışdılar. Ermənilər özləri də yəhudilərlə qarşıdurmalarının tarixi kökləri olduğunu bildirir və bunu semitlərlə arilərin qarşıdurması kimi qələmə verirlər.

Ötən əsrin əvvəllərində Azərbaycan ərazisində tüğyan edən erməni quldur dəstələrinin əsas hədəflərindən biri də yəhudilər olmuşdur. Azərbaycan Xalq Cümhuriyyətinin Fövqəladə İstintaq Komissiyasının protokollarında yəhudilərin ermənilər tərəfindən kütləvi qətlə yetirilməsinə dair faktlar əksini tapıb. ASALA kimi terror təşkilatlarının da hədəfi türklərlə yanaşı, həm də yəhudilər olub. 1980-ci ildə ASALA-nın başçısı olan Akop Akopyan 1972-ci ildə Münxendə Olimpiya Oyunlarında iştirak edən İsrail milli komandası üzvlərinin qətlə yetirilməsində fəal iştirak edib.

Göründüyü kimi, bu gün Ermənistanın İsrailə qarşı atdığı addımların kökündə hazırkı dövrdə siyasi motivlər deyil, tarixi gerçəklik amili dayanır. Təbii ki, Ermənistanın bu hərəkətləri yəhudi xalqı və İsrail dövləti üçün tamamilə əhəmiyyətsizdir. Necə ki, Qarabağda beynəlxalq hüququn norma və prinsiplərini bərpa edən Azərbaycana qarşı bəzi xarici şəbəkələr tərəfindən aparılan qərəzli kampaniya da tamamilə əhəmiyyətsizdir. Əsas odur ki, İlham Əliyev tarixi ədaləti sərkərdə qətiyyəti ilə bərpa edir.

***Rəşad CƏFƏRLİ,***
***“Azərbaycan”***

# Ordumuz təcavüzkarı beynəlxalq qanunvericilik çərçivəsinə qaytarmaqda israrlıdır

**Bu günlər Azərbaycan Ordusu müqəddəs vəzifəsini icra edir: Silahlı Qüvvələrimiz dövlətin uzun illərdir işğal altında qalan suveren ərazisini azadlığa qovuşdurmaq üçün azğınlaşmış düşmənə yerini göstərir.**

“Ermənistan respublikası” adlanan terrorçu dövlət indiyədək hansısa formada cəzalandırılmadığından hesab edirdi ki, hadisələr davamlı olaraq istədiyi məcrada cərəyan edəcək, işğal etdiyi torpaqlarda mənfur planlarını həyata keçirəcək, özgələrin torpaqları hesabına “Böyük Ermənistan” xülyasını maneəsiz gerçəkləşdirəcək. Düşmən ağlının ucuna da gətirə bilmirdi ki, zəbt etdiyi ərazinin qanuni yiyəsi var və o, nə vaxtsa təcavüzkarla haqq-hesab çəkəcək. Ona görə də Ermənistan rejiminin indi bütün dünyada çığır-bağır salması, həmişə sığal gördüyü havadarlarının dərhal təcavüzkarın yanında yer almayıb işə qarışmamasından hiddətlənməsi başadüşüləndir.

Erməni işğalçılarının həyasızlaşmasında beynəlxalq təşkilatların və Ermənistan-Azərbaycan münaqişəsinin tənzimlənməsi prosesində vasitəçilik edən dövlətlərin, ilk növbədə, ATƏT-in Minsk qrupunun günahı az deyil. Axı məlumdur ki, hələ 27 il əvvəl - 1993-cü ildə ən nüfuzlu beynəlxalq təşkilatın - BMT-nin Təhlükəsizlik Şurası dörd qətnamə qəbul edərək münaqişənin nizamlanmasının dəqiq yolunu göstərmişdir: erməni silahlı birləşmələri Azərbaycanın işğal olunmuş torpaqlarından dərhal, tam və qeyd-şərtsiz çıxarılmalıdır! Ardınca digər beynəlxal qurumlar, o cümlədən NATO, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, Avropa Parlamenti Ermənistanın təcavüzkar siyasətini pisləyib Azərbaycanın ərazi bütövlüyünün və hamı tərəfindən qəbul olunmuş sərhədlərinin toxunulmazlığına tərəfdar çıxmışdır.

Doğrudur, ötən dövrdə beynəlxalq vasitəçilər münaqişənin dinc yolla həlli naminə xeyli təşəbbüslər irəli sürmüş, ard-arda danışıqlar aparılmış, amma tənzimləmə prosesini ölü nöqtədən tərpətmək mümkün olmamışdır. Bu təşəbbüslərin, demək olar ki, hamısı Azərbaycanın milli maraqları ilə daban-dabana zidd olsa da, rəsmi Bakı prosesin başlaması üçün konstruktivlik nümayiş etdirmiş, müəyyən güzəştlərə getməyə hazır olduğunu bəyan etmişdir. Elə məqamlar olurdu ki, Azərbaycan və Ermənistan rəsmiləri danışıqlar zamanı ayrı-ayrı məsələlər barədə razılaşmalar əldə etdiyindən tərəflərin mövqelərinin tezliklə bir-birinə yaxınlaşacağı təsəvvürü yaranırdı. Lakin növbəti görüşdə Ermənistan tərəfi həmin razılaşmalardan müxtəlif bəhanələrlə geri çəkilir və beləliklə, tənzimləmə prosesi sıfır nöqtəyə qayıdırdı. Beləcə uzun müddət keçməsinə baxmayaraq, problemi nəinki həll etmək, hətta bu istiqamətdə, kiçik də olsa, addım atmaq mümkün olmadı.

Beynəlxalq vasitəçilər hadisələrin gedişinə münasibətdə seyrçi mövqe tutur, hansısa irəliləyişə nail olmağa maraq göstərmirdilər. Düzdür, istər ATƏT-in Minsk qrupu səviyyəsində, istərsə də digər müstəvilərdə danışıqlar zamanı tez-tez belə bir bəyanat verilirdi ki, münaqişə zonasında status-kvonun davam etməsi yolverilməzdir, yəni Ermənistanın işğalçılıq siyasətinə son qoyulmalıdır. Amma bu, bəyanatdan o tərəfə getməmiş, əməli işə çevrilməmişdir. Məsələ burasındadır ki, Ermənistan-Azərbaycan münaqişəsinin təməl prinsipi kimi Dağlıq Qarabağın statusunun müyyən edilməsi irəli sürülür, BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinə uyğun olaraq Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasının vacibliyi, təcavüzkarın işğal etdiyi torpaqlardan didərgin saldığı yüz minlərlə azərbaycanlının ev-eşiyinə qaytarılmasının zəruriliyi kimi məsələlər arxa plana keçirilirdi. Hətta Bakıya utanmadan təklif olunurdu ki, əzəli torpaqlarının itirilməsi ilə barışsın, heç nə olmamış kimi, Ermənistanla əlaqələr qursun. Azərbaycan tərəfi isə təkrar-təkrar vurğulayırdı ki, hərbi təcavüz faktdır və ona görə də təcavüzkarla təcavüzün qurbanının bərabər tutulması heç bir çərçivəyə sığmaz. Başqa sözlə, silahlı təcavüzün nəticələrinin aradan qaldırılması istiqamətində konkret addımlar atmaq, işğalçı tərəfə beynəlxalq hüquqa zidd hərəkətlərdən çəkinməyi başa salmaq lazımdır. Amma bu məqamlar təcavüzkar tərəfə izah edilmədi, nəticə etibarilə tənzimləmə prosesi yerində saydı. Üstəlik, Ermənistan faktiki olaraq danışıqlardan çəkildi və beləliklə, münaqişənin dinc vasitələrlə nizama salınması perspektivinin üstündən xətt çəkdi. Ermənistanın baş naziri Nikol Paşinyanın “Qarabağ Ermənistandır” kimi sərsəm bəyanatı tərəflər arasında dialoqa yer qoymadı. Digər tərəfdən, İrəvan rejimi gələcəkdə də danışıqlar masası arxasına keçməyi istisna etdi: guya ki, münaqişənin tərəfləri Ermənistan və Azərbaycan yox, Dağlıq Qarabağdakı separatçı qruplaşma və Azərbaycandır, ona görə də danışıqlar Xankəndi ilə Bakı arasında aparılmalıdır. Təbii ki, Azərbaycan tərəfi separatçı-terrorçu zümrə ilə dialoqa girə bilməzdi, çünki heç bir normal dövlət separatçılar və terrorçularla dialoq qurmur, onları məhv etmək üçün bütün mümkün tədbirləri görür.

Bütün bu səbəblərdən Ermənistanın əl-qolu açıldı, təcavüzkar dövlət işğal etdiyi Azərbaycan torpaqlarında yeni-yeni qanunsuz addımlar atmağa, müharibə cinayətləri törətməyə başladı. Düşmən əvvəlcə işğal etdiyi yaşayış məntəqələrinin adlarını dəyişdirib ermənіləşdirdi, sonra zəbt etdiyi ərazilərin məskunlaşdırılmasına start verdi. Dağlıq Qarabağa və ona bitişik rayonlara Ermənistandan və xarici ölkələrdən erməni ailələri köçürüldü. Bu faktı beynəlxalq səviyyədə də təsdiq olunmuş, amma dünya ictimaiyyəti əvvəlki kimi ağzına su alıb susmuşdur.

Tez-tez belə bir fikir səslənir ki, BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra etmək üçün mexanizm formalaşdırılmamışdır. Amma tarixi təcrübə göstərir ki, lazım gələndə beynəlxalq təşkilatın qərarlarını yerinə yetirmək üçün dərhal mexanizm tapılır və işə salınır. Məsələ Azərbaycanın üzərinə gələndə isə mexanizm söz-söhbəti ortaya çıxır.

Bununla belə, beynəlxalq qanunvericiliyin normalarını reallaşdırmağın başqa bir yolu da var. BMT-nin Nizamnaməsinə görə, hər bir üzv-dövlətin öz ərazi bütövlüyünü bütün mümkün vasitələrlə təmin etmək hüququ var. Bu gün Azərbaycan Silahlı Qüvvələri Qarabağda həm dövlətin ərazi bütövlüyünü, həm də Ermənistan tərəfindən pozulmuş beynəlxalq hüququ bərpa edir. Bu işi gördüyünə görə Azərbaycan əsgərinə yalnız alqış düşür.

***Allahverdi MEHDİYEV,***
***“Azərbaycan”***

# Xankəndi vahiməyə düşüb

## Dağlıq Qarabağın Azərbaycan torpağı olduğunu artıq açıq etiraf edən ermənilər bu ərazidən kütləvi qaçırlar









Əvvəli 1-ci səh.

## “Gedənlər gedir, qalanlar isə həyəcan keçirir”

Xankəndidən reportaj hazırlayan “Joxovurd” qəzetinin jurnalisti əhalinin evlərini tərk etməsini, hərbi postların isə boş qaldığını bildirib. Vurğulayıb ki, Stepanakert (Xankəndi-red.) cəhənnəmi xatırladır. Küçələr boş, şəhəri tərk edənlərin sayı hər gün artmaqdadır. Bölgədə qalan tək-tük ermənidən müsahibə alan müəllif qeyd edib ki, Azərbaycan Ordusu çox qəzəblidir. Onların qarşısını almaq çox çətin olacaq. Ermənistan ordusu çöküb, əsgərlər isə qaçır.

“4rd.am” saytının Xankəndidən hazırladığı reportajda insanların qorxu içərisində olduğu yazılır. Bildirilir ki, Yerevanda və ya digər şəhərlərdə qohumları olanlara bir çoxu həsəd aparır. Gedənlər gedir, qalanlar isə günləri zirzəmilərdə keçirirlər. Xankəndidə iş adamı Qaqik Muxtaryan sosial şəbəkədəki paylaşımlardan birində deyib ki, Azərbaycan tərəfinin endirdiyi zərbələr onları qorxuya salıb: “Çox narahatıq. Başqa heç bir şey haqqında düşünə bilmirik. Hər gün əsgərlərimiz ölür. Bütün bunlar bizdə böyük xof yaradıb.

## “Paşinyan istefa verməyə məcburdur”

“Armenianweekly.com” saytı yazır ki, cəbhədə gedən döyüşlərdəki ilkin nəticələr onu deməyə əsas verir ki, Ermənistan baş naziri Nikol Paşinyan baş verənlərdən sonra istefa verməyə məcburdur: “Ordumuz ağır məğlubiyyət almaqda davam edir və rəqib uzun illərdir möhkəmləndiyimiz strateji əhəmiyyətli yüksəklikləri, kəndləri tutdu. Bizi aldatmağa davam edirlər ki, strateji əhəmiyyətli yüksəkliklər bizdədir. İtkilərin həqiqi sayını gizlədirlər, hərçənd həqiqəti gizlətmək mümkün deyil. Azərbaycan tərəfi aşağı-yuxarı rəqəmləri açıqlayıb. Xüsusən rəhbərlik bizi həmişə inandırırdı ki, rəqibin təhdidləri boş sözlərdir. Onlar bizi aldadırdılar ki, Rusiya Azərbaycanın açıq hücumlarına imkan verməyəcək. Amma hər şey tamam fərqli oldu”.

Yazıda bir çox beynəlxalq təşkilatların fikirləri Ermənistan üçün çox təhlükəli adlandırılıb: “Qeyd olunur ki, münaqişənin həlli üçün Ermənistanın qoşunları Azərbaycanın işğal edilmiş ərazilərindən çıxarılmalı və torpaqlar Bakıya qaytarılmalıdır. Əfsuslar olsun ki, Ermənistan hakimiyyəti hadisələrin bu cür təhlükəli gedişinə hazır deyil. Təhlükənin dərəcəsi artmaqda davam edir”.

## Şuşa hospitalı yaralılarla doludur

Ermənilər sosial şəbəkələrdə də Yerevan rejiminə etiraz edirlər. Ermənistanın “İravnyuk” qəzeti cəbhə xəttində baş verən hadisələrdən sonra sadə ermənilərin Paşinyan hakimiyyətinə qarşı sərt fikirlərini səsləndirib. Sadə ermənilər müharibə istəmir və Dağlıq Qarabağın Azərbaycan torpağı olduğunu etiraf edirlər. Məsələn, fikirlərin birində deyilir: “Niyə anlamırdıq ki, Azərbaycanın ərazilərini ələ keçirsək də, onu həmişəlik saxlaya bilməyəcəkdik. Bizi dünyada it yerinə sayırlar. Biz it yox, insanıq”. Başqa bir misal: “Döyüşlərlə bağlı bizə verilən məlumatlara inanmayın. Hamısı yalandır. Azərbaycan əsgərləri postları ələ keçirəndə rəsmi qurumlar bu barədə bir kəlmə də danışmadılar. Biz daha nəyi bilmirik?! Müdafiə Nazirliyinin dediklərinə inanırsınız? Bu axmaq yalan danışıqlara nə vaxt son qoyacaq?”

Bu arada Ermənistan ordusunun mindən çox əsgərinin öldürüldüyünü diqqətə çatdıran “4rd.am” saytı işğal altındakı Şuşa hospitalına istinadən qeyd edir ki, bura yüzlərlə yaralı gətirilib. Öldürülənlər arasında əsgərlərlə yanaşı, kiçik və böyük rütbəli zabitlər də var. Avtomobillər, ağır zirehli texnika, artilleriya qurğuları məhv edilib.

## Separatçı rejimin rəhbəri Xankəndidən qaçıb

Ermənilərin sosial şəbəkələrdə yaydıqları məlumatlarda bildirilir ki, hətta separatçı rejimin rəhbəri Araik Arutyunyan da Xankəndini tərk edib. Ermənilər deyirlər ki, o hazırda Ermənistandadır.

Sosial şəbəkələrdə erməni gənclər açıq şəkildə bəyan ediblər ki, Qarabağ onlara lazım deyil: “Özünü prezident təyin edən qorxaq Arutyunyan indi qaçıb gedib Ermənistana. Yenə deyir ki, bizə kömək edin. İndiyədək özləri üçün kef edənlərin sonu belə olmalı idi. Onlara bu da azdır. Qarabağda özləri üçün klan qurublar, bu alçaqlara görə sadə erməni əhalisi əziyyət çəkir”.

***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***

## Uğurlu əks-hücum əməliyyatı işğala son qoyacaq!

# Vətən müharibəsi qələbə ilə başa çatacaq

**İşğal olunmuş torpaqlarımızın azadlığı uğrunda başlanan Vətən müharibəsi Azərbaycan Ordusunun uğurları ilə davam edir. Düşmən bütün cəbhələrdə sarsıdıcı məğlubiyyətə düçar olmaqdadır. Hər gün cəbhədən sevindirici xəbərlər gəlir. Qələbələrimiz isə yalnız hərb meydanı ilə yekunlaşmır. Prezident, Ali Baş Komandan İlham Əliyev Ermənistanı siyasi-diplomatik sferada da küncə sıxışdırıb. Bununla bağlı Milli Məclisin deputatlarının fikirlərini öyrəndik.**















### Ermənistan nə hərbi, nə də iqtisadi cəhətdən müharibə aparmaq gücündədir

**Tahir MİRKİŞİLİ,**
***Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri:***

- Ermənistanın hərbi təxribatının qarşısını alan Azərbaycan Ordusu işğalçını torpaqlarımızdan çıxarmaq üçün əks-hücum əməliyyatlarına başlayıb. Bir sıra ərazilər düşməndən azad edilib. İşğalçı qüvvələr bütün istiqamətlərdə ağır itkilər verməklə məğlubiyyətin hər gün yaxınlaşdığını hiss etməkdədirlər. Ordumuz döyüşlərdə ən müasir silahlarla yanaşı, yeni metodlardan da istifadə edir. Ermənistan rəhbərliyi döyüş başlayan gündən bütün səylərini müharibəni dayandırmağa yönəldib. Müxtəlif ölkələrin rəhbərlərinə zəng edən Ermənistan baş naziri onlardan Azərbaycanın əks-hücumunu dayandırmağı xahiş edir.

Maraqlıdır, Ermənistan nədən bu qədər tələsir, müharibənin dərhal dayandırılmasını xahiş edir? Səbəb yalnız hərbdirmi? Müasir dövrdə müharibə aparmaq həm də iqtisadi gücə və imkanlara əsaslanır. Təbii ki, döyüş meydanında əsgərin gücü, ruh yüksəkliyi, texnika və texnologiyanın varlığı və ondan istifadə vərdişləri, komandalığın döyüşü planlaşdırmaq bacarığı həlledici rol oynayır. Bunlarla yanaşı, təchizat, maliyyə imkanları, iqtisadiyyatın dözümlülüyü müharibə aparan tərəfin qələbəsini təmin edən əsas amillərdəndir.

Təhlillər göstərir ki, Ermənistan iqtisadi cəhətdən qısamüddətli döyüş aparmağa belə qadir deyil. Təqribi hesablamalara görə, son günlər Ermənistanın məhv edilmiş texnikalarının dəyəri artıq 1 milyard dolları keçib. Gündəlik döyüş əməliyyatlarını aparmaq milyonlarla dollara başa gəlir. Ermənistanın belə bir müharibəni davam etdirmək üçün iqtisadi gücü də yoxdur. İqtisadi cəhətdən 3 dəfə Azərbaycandan kiçik olan bu ölkənin hərbi büdcəsi cəmi 658 milyon dollardır. Azərbaycan Ordusunun hərbi büdcəsi isə 2,3 mlrd dollar təşkil edir. Yəni 4 dəfəyə yaxın böyükdür.

Digər tərəfdən Azərbaycan iqtisadiyyatının ehtiyatları kifayət qədər böyükdür. Ölkəmizin strateji ehtiyatları 52 milyard dollara yaxındır ki, Ermənistanda bu rəqəm 2,6 milyard dollar təşkil edir. Pandemiya dövrü Ermənistan iqtisadiyyatına ciddi zərbə vurub, halbuki Azərbaycan iqtisadiyyatı bu dövrdə ən az zərər görənlərdəndir.

Cəbhədə döyüşlər başlayan kimi Ermənistan dramının devalvasiyaya uğraması da bu ölkədə iqtisadi vəziyyətin son dərəcə ağır olduğunu deməyə əsas verir. Digər tərəfdən, işğalçı dövlətin iqtisadiyyatının əsas gəlir mənbəyi dağmədən sənayesidir. Dağ-mədən sənayesi isə həm Azərbaycanın işğal olunmuş ərazilərindən, həm də dövlət sərhədinə yaxın Ermənistan ərazilərindən hasil edilən məmulatlar hesabına gəlir əldə edir. Azərbaycanın apardığı uğurlu əməliyyatlar nəticəsində hər iki ərazidə hasilat dayanıb. Bu da Ermənistanı əsas gəlir mənbəyindən məhrum edib.

Beləliklə, Ermənistan hökuməti nə hərbi, nə də iqtisadi cəhətdən Azərbaycanla müharibə aparmaq gücündədir. Bunu özləri də yaxşı anlayırlar, ona görə bütün dünyaya yalvarırlar. Proqnozlar Azərbaycanın şəksiz qələbəsindən xəbər verir.

### Təxribatlar Ermənistanın özünə baha başa gəldi

**Elman MƏMMƏDOV,**
***Milli Məclisin deputatı:***

- Artıq bir neçə gündür cəbhə xəttində erməni hərbi birləşmələri sıxışdırılmış vəziyyətdədir. Cənab İlham Əliyevin Komandanlığı ilə Azərbaycan Ordusu işğal olunmuş torpaqlarımızı uğurla azad edir.

Hər ötən gün düşmənin istər canlı qüvvə, istər hərbi texnika baxımından imkanları tükənməkdədir. Ən mühümü odur ki, Azərbaycan hərbi əməliyyatları ən müasir döyüş imkanları ilə həyata keçirir və biz bu döyüşlərdə bir daha Prezident İlham Əliyevin həyata keçirdiyi modern ordu quruculuğunun şahidi olduq. Ermənistanın təbliğat maşını nə qədər yalan informasiyalar yaysa da, cəbhənin bütün istiqamətlərində Azərbaycan Ordusu düşmənin müdafiə eşalonlarını darmadağın edərək irəliləyir.

Əlbəttə, vəziyyətin bu həddə gəlib çatmasının birbaşa günahkarı Ermənistan dövlətidir. Danışıqlar prosesinin dalana dirənməsinə səbəb olan Paşinyan hakimiyyətinin bir-birinin ardınca törətdiyi siyasi və hərbi təxribatlar artıq müharibənin başlanmasını qaçılmaz etdi. İyul ayında Tovuza hücum, respublikamızın ərazisinə diversiya qrupunun göndərilməsi, Şuşanın paytaxt elan edilməsi, Livandan gətirilən ermənilərin Qarabağda yerləşdirilməsi kimi təxribatçı əməllərin məqsədi Azərbaycanı təxribata çəkmək idi. Amma nəticə etibarilə bu təxribatlar Ermənistanın özünə baha başa gəldi.

Ermənistan danışıqlar prosesini uzatmaqla status-kvonun saxlanması üçün hər cür təxribata əl atır və Azərbaycanı, xüsusən də Gəncə şəhərini vurmaqla hədələyirdi. Guya güclü orduya sahib olduğu görüntüsü yaratmaqla Azərbaycan xalqında təşviş yaratmağa çalışırdı. Beynəlxalq təşkilatlar isə təcavüzkara heç bir təzyiq göstərmirdi. İndi isə Azərbaycan Ordusunun inamlı qələbəsi nəticəsində məğlub duruma düşən Ermənistan həmin beynəlxalq təşkilatlara, havadarlarına yalvarır ki, Azərbaycana “dur” desinlər. Əgər Ermənistan öz ordusuna güvənirsə, nə üçün davamlı olaraq beynəlxalq təşkilatlara və xarici dövlətlərin rəhbərlərinə döyüşlərin dayandırılması üçün kömək göstərilməsi barədə çağırış edir? Hər kəs görür ki, Azərbaycan Ermənistanı siyasətdə olduğu kimi savaş meydanında da düz çökdürür.

Bu günlərdə Prezident İlham Əliyev Rusiyanın “Rossiya-1” telekanalının “60 dəqiqə” proqramında Ermənistanın və onun rəhbərliyinin işğalçı siyasətini bir daha ifşa etdi. Dövlətimizin başçısı hər zaman olduğu kimi, öz diplomatik bacarığını, qətiyyətli mövqeyini, prinsipiallığını nümayiş etdirdi. Rusiya ictimaiyyəti bir daha cənab İlham Əliyevin ölkəsini, xalqını necə sevdiyinə, onun haqq səsini necə müdafiə etdiyinə şahidlik etdi. Prezident faktlar əsasında danışdı və bütün suallara siyasi müdrikliklə cavab verdi.

N.Paşinyan isə yenə də ağ yalanlar səsləndirdi. Hətta suallara doğru-dürüst cavab verməkdə də çətinlik çəkdiyi açıq-aşkar görünürdü. O, hər zaman belə olub. Ona görə də həmin proqramda iştirak edən siyasətçilər, jurnalistlər Paşinyanın səsləndirdiyi fikirlərin doğru olmadığını, Azərbaycan Prezidentinin faktlar əsasında danışdığını vurğuladılar.

### Azərbaycan haqq yolundan dönməyəcək

**Cavanşir PAŞAZADƏ,**
***Milli Məclisin deputatı:***

- Sentyabrın 27-də Ermənistan silahlı qüvvələri atəşkəs rejimini kobud şəkildə pozaraq Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrini iriçaplı silahlar və artilleriyadan atəşə tutmaqla respublikamıza qarşı növbəti dəfə hərbi təcavüzə yol verdi. Lakin ilk gündən cəbhə xəttində baş verənlər, hücumun qarşısının Ordumuz tərəfindən dəyanətlə alınması və işğal edilmiş torpaqlarımızın azadlığı uğrunda dərhal əks-hücum planının həyata keçirilməsi göstərdi ki, Azərbaycan artıq erməni təcavüzünə dözmək fikrində deyil.

Ümumiyyətlə, Ermənistan tərəfi son dövrlər Dağlıq Qarabağ münaqişəsi ilə bağlı olduqca aqressiv bəyanatlar verir, təxribatçı əməllərini artırırdı. Ötən ilin avqustunda Paşinyan “Qarabağ Ermənistandır” deməklə faktiki olaraq danışıqlar prosesinə zərbə vurdu. Bu ilin iyulunda dövlət sərhədinin Tovuz rayonu istiqamətində Azərbaycana hücum edilməsi, avqust ayında Goranboya ermənilərin diversiya kəşfiyyat qrupunun göndərilməsi bir daha göstərdi ki, işğalçılıq Ermənistanın dövlət siyasətidir.

Bütün bunlarla yanaşı, son aylarda Ermənistan tərəfi Dağlıq Qarabağa və işğal olunmuş digər Azərbaycan ərazilərinə yeni hərbi qüvvələr cəmləyirdi ki, bu da onun yeni hərbi planlarından xəbər verirdi. Digər tərəfdən Livandakı partlayışdan sonra ermənilərin Dağlıq Qarabağa qeyri-qanuni köçürülməsi başlamışdı. Bununla da münaqişə ərazisinin məskunlaşdırılmasının yolverilməzliyi barədə 1949-cu il Cenevrə Konvensiyasını kobud şəkildə pozan Ermənistan Azərbaycana qarşı həm də siyasi təxribata yol verdi.

Yayılan xəbərlərdən də aydın olur ki, bu gün Ermənistan təlaş içindədir. 55 yaşına kimi kişilərin ölkədən çıxmasına qadağa qoyulması, məcbur olub qadınları ordu sıralarına cəlb etmələri ölkədəki acınacaqlı durumdan xəbər verir. Ermənistan etiraf etməsə də, xeyli sayda canlı və texniki itki verməleri faktdır. Yayılan kadrlarda da Azərbaycan Ordusunun ən müasir texniki imkanları ilə düşmənin hərbi texnikalarını necə məhv etdiyi, silahlı qüvvəsinə necə divan tutduğu görünür.

Bu gün müharibə tək döyüş meydanında deyil, həm də informasiya məkanında gedir. Bu müstəvidə də Prezident İlham Əliyev siyasi peşəkarlığı ilə erməni yalanlarına böyük zərbələr vurur. Məsələn, Rusiyada KİV-də ermənilərin təsiri kifayət qədər yüksəkdir. Lakin cənab İlham Əliyev sentyabrın 29-da “Rossiya-1” telekanalında yayımlanan “60 dəqiqə” proqramının efirində aparıcının suallarına verdiyi cavablarla Rusiya auditoriyası qarşısında erməni mifini darmadağın etdi. Bəlkə də cənab İlham Əliyev çıxış etməsəydi həmin verilişdə müzakirələr tamamilə Azərbaycanın əleyhinə gedəcəkdi. Amma İlham Əliyevin çıxışı müzakirələrin məcrasını dəyişdi, siyasi və hərbi ekspertlərin öz fikirlərinə korrektələr etməsinə səbəb oldu. Təsadüfi deyil ki, Rusiyada nəşr olunan “Natsionalnaya oborona” jurnalının baş redaktoru İqor Korotçenko: “İlham Əliyev şərtsiz olaraq dəqiq, tamamilə məntiqli, düzgün, ardıcıl çıxış etdi. Bu, MDBMİ məktəbidir. MDBMİ doğrudan da böyük kadrlar yetişdirir”, - deyə bildirdi.

Beynəlxalq ictimaiyyət qarşısında Prezident İlham Əliyevin çıxışından sonra indiyədək dəfələrlə rəzil duruma düşən N.Paşinyan bu dəfə də aciz vəziyyətdə qaldı. Yenə də çıxışında nala-mıxa vurdu, dili topuq çalaraq heç bir fakta əsaslanmayan yalan və uydurmalar söylədi. Lakin nə söyləsə də, Azərbaycan Prezidentinin tutarlı çıxışı qarşısında cılız vəziyyətdə qaldı.

Artıq Paşinyan aciz şəkildə ayrı-ayrı dövlətlərin rəhbərlərinə yalvararaq döyüşlərin dayandırılmasını istəyir. Çünki bu məğlubiyyət həm də onun siyasi sonu deməkdir. Prezident İlham Əliyev Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Klinik Hospitalında müalicə olunan hərbçilərlə görüşdə müxtəlif beynəlxalq təşkilatların, ölkələrin rəhbərlərinin zəng etdiyini bildirdi. Lakin indi şərtləri Azərbaycan diktə edir. Ermənistan müharibə istəmirsə, işğal olunmuş bütün torpaqları tərk etməlidir. Əks təqdirdə Azərbaycan öz haqq yolundan dönməyəcək və düşmənə qarşı hərbi cəza tədbirlərini axırıncı erməni əsgərinin torpaqlarımızdan qovulmasına qədər davam etdirəcək. Görünən odur ki, Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızın azad olunmasına lap az qalıb.

### Dünya ictimaiyyəti artıq əsl həqiqətlərdən xəbərdardır

**Sevinc FƏTƏLİYEVA,**
***Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini:***

- Ermənistanın növbəti hərbi təxribatına Azərbaycan Ordusu əks-həmlə ilə layiqli cavab verməkdədir. İndi işğalçı böyük təşviş içindədir. Eyni zamanda Azərbaycan bu gün yalnız döyüş meydanında deyil, diplomatik cəbhədə və informasiya müharibəsində də düşmən üzərində böyük üstünlük qazanıb. Prezident İlham Əliyevin Rusiyanın “Rossiya-1” telekanalının “60 dəqiqə” proqramına verdiyi müsahibə də bu faktı təsdiqləyir.

Prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində, BMT Baş Assambleyasının 75-ci sessiyası çərçivəsində qurumun 75 illiyinə həsr edilmiş Yüksək Səviyyəli İclasda, o cümlədən “Rossiya-1” telekanalının “60 dəqiqə” proqramına verdiyi müsahibəsində də Ermənistanın işğalçı siyasətini, baş nazir N.Paşinyanın münaqişənin nizamlanmasını daha da alovlandıran müharibə çağırışlarını, həmçinin bu ədalətsizliyə göz yuman beynəlxalq təşkilatları tənqid etdi. Dövlət başçısı “Rossiya-1” telekanalına verdiyi müsahibəsində də Ermənistanın müharibəyə başladığını, əsas hədəfin dinc əhali olduğunu, beynəlxalq humanizm prinsiplərini və beynəlxalq hüquq normalarını kobud şəkildə pozduğunu faktlarla ortaya qoydu. Bu müsahibə beynəlxalq aləmdə böyük rezonans doğurdu. Artıq dünya ictimaiyyəti də əsl həqiqətdən xəbərdardır. Ona görə cəbhədə təxribatların Ermənistan ordusu tərəfindən törədildiyinə, müharibənin ilk olaraq bu ölkə tərəfindən başlanılmasına əminlik ifadə olunur.

Ermənistanın baş nazirinin guya cəbhə bölgəsində türk əsgərlərinin və Türkiyəyə məxsus hərbi texnikanın olması, onların Ermənistan ordusuna qarşı vuruşduqları barədə yalanı da dövlət başçısı tərəfindən ifşa edildi. Bununla da xüsusən Rusiya auditoriyası N.Paşinyanın siyasi riyakar, böhtançı, yalançı olduğuna bir daha əmin oldu.

Ümumiyyətlə, Paşinyanın ölkəyə rəhbərliyi dövründə bütün beynəlxalq tədbirlərdə yalan danışdığı, siyasi riyakarlığı da dünya ictimaiyyətinə bəllidir. Budəfəki proqramda da onun suallara dili dolaşa-dolaşa cavab verməsi, sözləri düzgün tələffüz edə bilməməsi, suallar qarşısında aciz qalması yalançı və riyakar olmasından irəli gəlirdi. Bir sözlə, Paşinyan Azərbaycan Prezidentinin qarşısında yenə də aciz duruma düşdü.

### Ordumuzun rəşadəti qarşısında düşmənin qaçmaqdan başqa çarəsi yoxdur

**Cavid OSMANOV,**
***Milli Məclisin deputatı, YAP Ağdaş rayon təşkilatının sədri:***

- Bu günlərdə Azərbaycan Ordusunun həyata keçirdiyi hərbi əməliyyatlar nəticəsində işğal altındakı bir sıra kəndlərimizin və əlverişli yüksəkliklərin azad olunması bütün xalqımız tərəfindən sevinclə qarşılanır. Son aylarda daha da aqressivləşən işğalçı Ermənistan cəbhənin müxtəlif istiqamətlərində Silahlı Qüvvələrimiz tərəfindən məğlubiyyətə uğradılmaqdadır. Hərbçilərimizin rəşadəti qarşısında düşmənin qaçmaqdan başqa çarəsi yoxdur.

Öncə onu qeyd edim ki, Ordumuzun torpaqlarımızın azad edilməsi uğrunda hərbi əməliyyatlara başlaması hər şeydən əvvəl Azərbaycandakı milli həmrəyliyin, ölkə vətəndaşlarının hörmətli Prezident, Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşməsinin təsdiqi oldu. Sentyabrın 27-dən bəri minlərlə vətəndaşımızın düşmənə qarşı mübarizə aparmaq üçün könüllü şəkildə müraciət etməsi isə xalqımızın döyüş əzminin, insanlarımızın dərin vətənpərvərlik hisslərinə sahib olmasının göstəricisidir. Bu vətənpərvərliyin qarşısında isə istənilən düşmən acizdir.

Prezident İlham Əliyev bu barədə son aylarda ayrı-ayrı dövlət başçıları və beynəlxalq təşkilatların rəhbərləri ilə danışıqlar zamanı ətraflı məlumat vermiş, onları Ermənistanı işğalçılıq siyasətindən çəkindirməyə çağırmışdı. Son olaraq cənab Prezident BMT tribunasından bir daha erməni faşizmi barədə söz açaraq Ermənistanın yeni işğalçılıq planlarını həyata keçirməyə hazırlaşdığını və istənilən təxribatın nəticəsinin Ermənistana baha başa gələcəyini bəyan edərək dedi: “...Əgər öz çirkin planlarından əl çəkməsələr, onlar üçün nəticələr çox ağır olacaq. Onlar yeni müharibəyə hazırlaşırlar. Onların təmas xəttinə yaxın qüvvələrinin cəmləşməsi baş verir. Biz hər şeyi görürük, hər şeyi izləyirik. Onların bütün hərəkətlərini izləyirik. Əlbəttə ki, özümüzü müdafiə edəcəyik. Necə ki, Tovuzda özümüzü müdafiə etdik, bütün başqa istiqamətlərdə özümüzü müdafiə edəcəyik. Onlar üçün Tovuz hadisələri növbəti dərs oldu. Əgər yeni dərs almaq istəyirlərsə, biz buna hazırıq”.

Ümumiyyətlə, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ probleminin həll edilməməsinin əsas səbəblərindən biri beynəlxalq ictimaiyyətin Ermənistanın təcavüzkar siyasətinə laqeyd yanaşmasıdır. 1993-cü ildə qəbul edilən BMT-nin 4 qətnaməsi hələ də kağız üzərində qalıb. ATƏT-in, Avropa Şurasının müxtəlif dövrlərdə qəbul etdiyi sənədlər indiyədək icra olunmayıb. Dəfələrlə görmüşük ki, beynəlxalq təşkilatlar yeri gələndə işğalçı dövləti dərhal cəzalandırmağı bacarırlar. Lakin Azərbaycan torpaqlarını işğal edən Ermənistana qarşı indiyədək heç bir təzyiq olmayıb. Bunun nəticəsidir ki, bu ölkə illər boyu daha da həyasızlaşıb və azğınlaşıb.

Sentyabrın 27-də isə bütün dünya gördü ki, cənab İlham Əliyev BMT tribunasından Ermənistanın yeni işğalçılıq planları barədə dünya ictimaiyyətini xəbərdar edəndə nə qədər haqlı idi. Elə bu xəbərdarlıqdan nəticə çıxarılmamasının nəticəsidir ki, Ermənistan yenidən Azərbaycana hücum etdi. Lakin İlham Əliyev dünya ictimaiyyətini həm də xəbərdar etmişdi ki, Ermənistan öz çirkin planlarından əl çəkməsə, nəticələr onun üçün çox ağır olacaq. Budur, sentyabrın 27-də tezdən Ermənistanın hücumunun qarşısını alan Azərbaycan Ordusu əks hücum əməliyyatları ilə bütün cəbhəboyu Ermənistan ordusuna sarsıdıcı zərbələr endirməkdədir. Bu günlərdə cəbhənin ayrı-ayrı istiqamətlərində erməni hərbi birləşmələrinin mövqeləri darmadağın edilib, işğal altında olan bir neçə kənd azad edilib. Eyni zamanda strateji əhəmiyyət kəsb edən yüksəkliklər ələ keçirilib. Bu günlərdə, həmçinin qardaş Türkiyənin, o cümlədən Pakistanın və Ukraynanın qətiyyətli mövqeyi hər birimizi dərindən qürurlandırdı.

Mühüm məqamlardan biri də odur ki, Azərbaycan bu günlərdə hərb meydanında olduğu kimi, diplomatiya sahəsində də Ermənistana tutarlı zərbələr vurur. Belə ki, bir neçə gün əvvəl Prezident İlham Əliyev Rusiyanın “Rossiya-1” telekanalının “60 dəqiqə” proqramına verdiyi müsahibədə rus ictimaiyyətini əsl həqiqətlər barədə məlumatlandırdı. Eyni zamanda Ermənistan hakimiyyətinin avtoritar və diktator mahiyyətini ifşa etdi, Paşinyanın Sorosun əlaltısı olduğunu açıq bəyan etdi. Paşinyan isə həmişə olduğu kimi, cılız çıxışı ilə özünü növbəti dəfə rüsvay etdi.

Bundan sonra Dağlıq Qarabağ münaqişəsi ilə bağlı proseslərin hansı məcrada inkişafından asılı olmayaraq qalib Azərbaycan və Prezident İlham Əliyevdir. Proseslərin gedişatı isə işğal edilmiş ərazilərimizin tam olaraq bərpasına aparır.

Son günlər atəşkəslə bağlı müxtəlif bəyanatlar səslənir. Lakin bunların arasında Fransa prezidentinin söylədiyi fikirlər bu ölkənin ATƏT-in Minsk qrupunun həmsədri kimi fəaliyyətinə tamamilə ziddir. Belə ki, Fransa Minsk qrupunun həmsədri olsa da, Emmanuel Makron tamamilə fərqli mövqe göstərərək Ermənistana açıq və birmənalı dəstək verdi. Hesab edirəm ki, bu, əslində Makronun gələcək seçkilərdə Fransada yaşayan ermənilərdən dəstək almasına hesablanmış bir addımdır. Bununla belə, onun ermənipərəstliyi Fransanın ATƏT-in Minsk qrupunun həmsədri kimi fəaliyyətini mümkünsüz edir.

### Xalqımız bu tarixi missiyanı müvəffəqiyyətlə başa çatdıracaq

**Müşfiq MƏMMƏDLİ,**
***Milli Məclisin deputatı:***

- Bu günlərdə bütün xalqımızın nəbzi şanlı Ordumuzla birgə döyünür. Çünki vaxt gəlib, vədə yetişib, Azərbaycan Silahlı Qüvvələri torpaqlarımızın azadlığı uğrunda öz müqəddəs missiyasını yerinə yetirməyə başlayıb. Hər gün cəbhədən zəfər dolu xəbərlər eşidirik, düşmən bütün cinahlarda sıxışdırılır, bölmələrimizin sarsıdıcı zərbələri ilə məhv edilir. Sağ qalan erməni hərbçiləri isə illərdir möhkəmləndirdikləri mövqeləri tərk edərək geriyə qaçırlar.

Cəbhədə hərbi əməliyyatların yenidən alovlanması gözlənilən idi. Çünki Ermənistanın indiki hakimiyyətinin yürütdüyü siyasət onsuz da danışıqlar prosesini heçə endirmişdi. Paşinyanın ötən ilin avqustunda səsləndirdiyi sərsəm bəyanatından və bu ilin iyul ayında Tovuz istiqamətindəki hərbi təxribatdan sonra tamamilə aydın oldu ki, Ermənistanla sülh danışıqlarının aparılmasının mənası yoxdur. Sonrakı dövrdə qədim Azərbaycan şəhəri Şuşada qondarma inauqurasiya mərasiminin keçirilməsi, diversiya məqsədilə Azərbaycana xüsusi kəşfiyyat qrupunun göndərilməsi, Dağlıq Qarabağda və işğal olunmuş digər rayonlarımızın ərazilərində livanlı ermənilərin qanunsuz məskunlaşdırılması Ermənistanın Azərbaycana qarşı təxribatlarının nümunələri idi.

Azərbaycan tərəfi bu təxribatlarla bağlı beynəlxalq vəziyyəti vaxtında məlumatlandırmışdı. Prezident İlham Əliyev BMT tribunasından çıxışında Ermənistanın yeni hərbi əməliyyatlara hazırlaşdığını bəyan etdi. Lakin bu hərbi əməliyyat elə Ermənistanın öz başında çatladı. Qəhrəman Ordumuz sentyabrın 27-də Ermənistanın növbəti hərbi təxribatının qarşısını nəinki uğurla aldı, dərhal əks hücuma keçərək düşmənin layiqli cəzasını verdi.

İllərdir işğal etdikləri torpaqlarımızda özlərini rahat hiss edən, Şuşada toy-bayram keçirən ermənilərin indi canlarına qorxu düşüb. Yayılan məlumatlarda onların kütləvi şəkildə Ermənistana doğru qaçdıqları bildirilir. Bəli, onlar bu torpaqlarda heç vaxt rahat ola bilməyəcəklər. Bu torpaqların əsl sahibi olan azərbaycanlılar mütləq doğma yurdlarına dönəcəklər.

Bu günlərdə xalqımız bir daha öz əzmkarlığını nümayiş etdirdi, oğul və qızlarımız azadlıq mücadiləsinə qoşulmağa hazır olduqlarını göstərdilər. Prezident İlham Əliyevin qismən səfərbərlik elan etməsi ilə bağlı fərmanına əsasən ordu sıralarına çağırılan gənclər gülərüzlə, vüqarla çağırış məntəqələrindən yola düşdülər. Ən əsası isə hər bir azərbaycanlı Prezident İlham Əliyev kimi qətiyyətli, cəsarətli Ali Baş Komandanının olduğunu vurğuladı. Cənab İlham Əliyevin bu günlərdə bütün çıxışlarında ortaya qoyduğu əsl sərkərdə qətiyyəti hər bir azərbaycanlını qürurlandırdı, qəlbləri fəxarət hissi ilə doldurdu.

Bu günlər həm də Azərbaycanla Ermənistan arasında informasiya müharibəsi gedir. Bu baxımdan xüsusən indiki məqamda həm son hərbi əməliyyatlar, həm də buna qədər baş verənlərlə bağlı dünya ictimaiyyətinin doğru məlumatlandırılması mühüm əhəmiyyət kəsb edir. Aydın məsələdir ki, müharibənin yenidən alovlanması ayrı-ayrı ölkələrin ictimaiyyətinin diqqətini daha fəal şəkildə Ermənistan-Azərbaycan münaqişəsinə cəlb edib. Bu mənada Prezident İlham Əliyevin “Rossiya-1” telekanalının “60 dəqiqə” proqramında aparıcıların suallarına verdiyi cavablar əsl həqiqətlərin Rusiya ictimaiyyətinə çatdırılmasında böyük rol oynadı. Azərbaycan Prezidenti 12 dəqiqə ərzində elə bir çıxış etdi ki, artıq ondan sonra danışan Paşinyanın nə deməsinin əhəmiyyəti yox idi. Olduqca mükəmməl çıxışı, baş verənlərə sistemli yanaşması ilə Prezident İlham Əliyev həm də özünün yüksək siyasi peşəkarlığını ortaya qoydu ki, bu da həmin verilişin ekspertlərinin diqqətindən yayınmadı. Prezident İlham Əliyevin aparıcıların suallarına verdiyi cavablar nəticə etibarilə Ermənistanın yalan üzərində qurulmuş təbliğatına vurulan böyük zərbə oldu. Paşinyan isə dolaşıq, qeyri-səlis, sistemsiz, zəif çıxışı ilə cılızlığını, siyasi baxımdan zəifliyini ortaya qoydu. Əslində Ermənistan kimi işğalı dövlət siyasətinə çevirən bir dövlətin rəhbərindən başqa nəsə gözləmək də mümkün deyil.

Beləliklə, bu gün Azərbaycan özünün ərazi bütövlüyü uğrunda uğurla mübarizə aparır. Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuz inamla irəliləyir. Düşmən üzərində tam Qələbəyə lap az qalıb. Hər birimiz əminik və inanırıq ki, xalqımız bu tarixi missiyanı müvəffəqiyyətlə başa çatdıracaq.

***Rəşad CƏFƏRLİ,***
***Rəşad BAXŞƏLİYEV,***
***“Azərbaycan”***

# Xalq Orduya və Komandana güvənir, arxalanır

## Haqq davasında Zəfər bizimdir



Əvvəli 1-ci səh.

*Bizim davamız ədalətli davadır və əminəm ki, bu münaqişədə biz istədiyimizə nail olacağıq, haqq-ədalət öz yerini tapacaq və Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək. Uzun illər ərzində məcburi köçkün kimi yaşayan soydaşlarımız da öz doğma dədə-baba torpaqlarına qayıdacaqlar".*

Azərbaycan dövləti illərdir ki, beynəlxalq tribunalardan dünyanı ədalətin qorunmasına dəstək olmağa çağırır. Bir xalqın digərinə qarşı işğalçılıq siyasətinin cavabı verilmədikcə bu siyasətin qorxulu xəstəlik kimi dünyada yeni-yeni faciələrə səbəb olacağının xəbərdarlığını edir. BMT kimi mötəbər bir təşkilat Ermənistanın təcavüzkar siyasətinə qarşı dörd - 822, 853, 874 və 884 saylı qətnamələr qəbul edib. Bu qətnamələrdə də, dünyanın aparıcı ölkələrinin qəbul etdikləri bütün digər sənədlərdə də Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığının zəruriliyi vurğulanır. Əfsuslar olsun ki, beynəlxalq birlik ötən onilliklər ərzində bu qətnamələrin icrasına doğru real addımlar atmadı. Ermənistan silahlı birləşmələrinin işğal etdikləri Azərbaycan ərazilərindən dərhal çıxmasına deyil, münaqişənin atəşkəs və danışıqlar yolu ilə həll olunmasına üstünlük verildi. Bu işin məsuliyyətini üzərinə götürmüş ATƏT-in Minsk qrupu isə ciddi bir nəticəyə nail ola bilmədi. Beləliklə, bu proses uzandıqca uzandı.

### Döyüşə oğullar gedir

Hazırda Azərbaycanda bu münaqişə dövründə dünyaya gəlmiş böyük bir nəsil yetişib. Bu gün Vətənin ərazi bütövlüyü uğrunda döyüşə toy-bayram əhvali-ruhiyyəsində gedən balalarımız bu yeni nəslin təmsilçiləridir. Ötən əsrin 90-cı illərinin əvvəllərində igid ataların cəbhə bölgəsində apardıqları əks-hücum əməliyyatlarını bu gün onların igid oğulları davam etdirirlər. Azərbaycan dövləti Ermənistanın danışıqlar prosesini pozmaq üçün min bir fəndə əl ataraq münaqişə bölgəsindəki status-kvonu bundan sonra da illərlə qoruyub saxlamaq cəhdlərinə artıq dözmək fikrində deyil. Qeyd edək ki, status-kvonun qəbuledilməz olduğunu ATƏT-in Minsk qrupunun həmsədrləri qismində çıxış edən Rusiya, Fransa və ABŞ-ın dövlət başçıları da dəfələrlə bəyan ediblər. Bu isə o deməkdir ki, işğal altında olan ərazilər Azərbaycana qaytarılmalıdır.

Bunu son günlər cəbhə bölgəsində baş verənlərlə bağlı "Rossiya-1" telekanalının "60 dəqiqə" proqramının suallarını cavablandırarkən Azərbaycan Prezidenti İlham Əliyev bir daha diqqətə çatdırdı. Dövlət rəhbərimiz Azərbaycanın danışıqlarda həmişə konstruktiv mövqe nümayiş etdirdiyini vurğuladı. Ölkəmizin illər boyu işlənib hazırlanmış, Minsk qrupunun və onun həmsədrlərinin danışıqlar prosesi üçün əsas hesab etdikləri nizamlama prinsiplərinə də, danışıqların formatına da sadiq olduğunu bir daha qeyd etdi: *"Danışıqlar Ermənistan ilə Azərbaycan arasında aparılır. Münaqişənin yalnız iki tərəfi var. Bəzən münaqişədən söhbət gedəndə bütün tərəflər haqqında danışırlar. Bu, düzgün anlayış deyil. Bütün tərəflər yoxdur, yalnız iki tərəf var - Ermənistan və Azərbaycan. Lakin son illər ərzində, Ermənistandakı indiki hakimiyyətin törətdiyi Soros çevrilişindən sonra nələr baş verib? Ermənistanın baş naziri açıq-aşkar bəyan edir ki, "Qarabağ Ermənistandır və nöqtə". Belə olan halda hansı danışıqlar prosesindən söhbət gedə bilər?"*

### Qarabağ Azərbaycandır!

Xatırladaq ki, ATƏT-in Minsk qrupu tərəfindən işlənib hazırlanmış prinsiplər mahiyyətcə keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti ətrafındakı ərazilərin Azərbaycana verilməsini nəzərdə tutur. Çünki Ermənistan Dağlıq Qarabağ regionunun bütün ərazisini işğal etdikdən sonra ətraf rayonlarımızı da işğal etməklə "bufer zona" yaradıb. Bu zona işğal edilmiş Dağlıq Qarabağ ətrafında yerləşən Azərbaycan rayonlarını əhatə edir. Nəticədə Azərbaycanın Ermənistanla dövlət sərhədinin 70 faizindən çoxu və İran İslam Respublikası ilə sərhədinin 160 kilometri hazırda işğalçı Ermənistanın nəzarəti altındadır. Bu işğalı həyata keçirənlər də, hazırda münaqişə bölgəsindəki mövcud status-kvonu qorumağa çalışanlar da Ermənistan hərbçiləridir. Təcavüzkar ölkənin yeni baş naziri Nikol Paşinyan isə hakimiyyətə gələndən az sonra belə bir sərsəm iddia irəli sürməyə başlayıb ki, "Qarabağ Ermənistandır" və danışıqlar Dağlıq Qarabağın oyuncaq rejimi ilə aparılmalıdır. Bu sərsəm iddialara rəğmən, BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrində də, BMT Təhlükəsizlik Şurası sədrinin bəyanatlarında da bu münaqişədə məhz Ermənistan Respublikasının iştirakı etiraf olunur. Bu isə o deməkdir ki, Ermənistan bu münaqişədə bitərəf deyil, Azərbaycana qarşı hərbi təcavüzü, beynəlxalq cinayəti həyata keçirən tərəfdir. BMT Baş Məclisinin 1974-cü ildə keçirilən 29-cu sessiyasında isə təcavüzün istənilən forması (birbaşa, yaxud dolayısı ilə) hərbi cinayət elan edilib. Ona görə də böyük dövlətlər müasir beynəlxalq münasibətlər üçün təhlükəli olan təcavüzkarın qarşısını almaq istəyirlərsə, BMT Nizamnaməsinin 7-ci fəslinə müvafiq surətdə qəti praktik addımlar atmalı və Ermənistanı beynəlxalq birliyin iradəsinə tabe etdirməlidirlər. İşğalçı Ermənistanın BMT-nin Nizamnaməsini, digər beynəlxalq hüquq normalarını pozaraq sülh danışıqlarının artıq 20 ildən bəri mövcud olan formatını dəyişmək və status-kvonu qorumaq cəhdlərinin qarşısı alınmalıdır. İşğalçı ölkənin son aylar cəbhə xəttində törətdiyi davamlı təxribatlar da buna xidmət edirdi. Son günlər cəbhə xəttində baş verən proseslərə Ermənistan artıq bir neçə ay idi ki, hazırlaşırdı. İşğalçı Ermənistanın davranışları, ölkə rəsmilərinin verdikləri bəyanatların xronologiyası onların bu təxribata şüurlu şəkildə getdiklərini göstərirdi. Ermənistanın müharibəyə hazırlaşmasını və onu dayandırmağın zəruriliyini Azərbaycan Prezidenti elə bu günlərdə BMT Baş Assambleyasındakı çıxışı zamanı da nəzərə çatdırmışdı. 30 il ərzində olduğu kimi yenə də beynəlxalq qurumlar tərəfindən əməli addımlar atılmadığından Azərbaycan dövləti beynəlxalq hüququn verdiyi imkanlardan istifadə edərək Ermənistanın təxribatlarının qarşısını qətiyyətlə aldı. 2016-cı ildəki Aprel zəfərindən sonra Şanlı Ordumuz Ermənistana daha böyük sarsıdıcı zərbə vurdu.

### Azərbaycan əsgəri zəfərləri ilə işğal yaralarını sağaldır

Bu əməliyyatlarda beynəlxalq hüquq normaları məhz bizim tərəfimizdədir. BMT Nizamnaməsinin 25-ci maddəsində BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qərarların yerinə yetirilməsinin icbari xarakter daşıdığı göstərilib. BMT Təhlükəsizlik Şurasının münaqişə ilə bağlı qəbul etdiyi 4 qətnamədə erməni hərbi birləşmələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən tamamilə qeyd-şərtsiz qaydada çıxarılması tələbi öz əksini tapıb. Bu baxımdan həm BMT Nizamnaməsinin 25-ci maddəsini, həm də 51-ci maddəsini əsas götürərək, Azərbaycan dövləti işğal altında olan torpaqlarını hərbi yolla geri qaytarmaq hüququnu özündə saxlayır. Bu, beynəlxalq hüququn prinsiplərinə tamamilə uyğundur.

Əgər Ermənistan 30 il ərzində öz işğalçı mövqeyindən geri çəkilmirsə, bütün imkanları münaqişənin həllindən çox mövcud vəziyyətin qorunmasına yönəldirsə, Azərbaycanın öz torpaqlarının azadlığı üçün hərbdən başqa yolu qalmır. Torpaqlarımızın işğalı və böyük bir dövr ərzində işğal altında saxlanması, təbii ki, səfalət içində yaşayan, əhalisinin sayı getdikcə azalan, öz sərhədlərini belə qorumaq üçün başqa bir ölkənin köməyinə bel bağlayan Ermənistanın hünəri deyil. 30 il əvvəl işğal planını güclü havadarların əli ilə gerçəkləşdirmişdi. Əfsuslar olsun ki, 1990-cı illərin əvvəllərində Azərbaycanda mövcud olan xaos, siyasi böhran, ayrı-ayrı silahlı qruplaşmalar arasındakı hakimiyyət davaları da torpaqlarımızın itirilməsində böyük rol oynamışdı. Bu gün Azərbaycan əsgərinin hər qarışı uğrunda canınından keçdiyi, günlərlə ölüm-dirim savaşı apardığı kəndlərimizin, şəhərlərimizin o illərdə hansısa hakimiyyət hərisinin cılız iddialarına görə bir-birinin ardınca düşmənə verilməsini xatırlamaq çox ağır hissdir. Bu münaqişə həmin illərdə yaranmış vəziyyəti fürsət bilərək torpaqlarımızı işğal etmiş, təkcə Azərbaycan xalqına qarşı deyil, ümumən, bəşəriyyətə qarşı Xocalı faciəsi kimi qanlı cinayətlər törətmiş işğalçıların bağrımıza vurduqları yaradır. İgid döyüşçülərimiz bu gün apardıqları haqq savaşı ilə o yaranı da sağaldırlar. İllər əvvəl içimizdəki düşmənlərin tariximizə vurduqları ləkəni təmizləyirlər. Bununla həm də bir daha sübut edirlər ki, heç bir işğalçı ölkə zamanın ədalət mühakiməsindən qaça bilməyəcək və bu aqibət indi təcavüzkar Ermənistanı da haqlamaqdadır.

### Faşist xislətinə sadiq düşmən

Yaralı hərbçilərimizlə görüşü zamanı Ali Baş Komandan dedi: *"Azərbaycan öz doğma torpağında vuruşur və siz haqq yolunda yaralanmısınız. Bizim əsgərlərimiz xilaskar əsgərlərdir. Erməni əsgərləri işğalçı əsgərlərdir. Fərq bundadır. Biz öz torpağımızda vuruşuruq, erməni əsgəri başqa dövlətin torpağında - Azərbaycan torpağında ölür. Mən erməni xalqına üz tutub demək istəyirəm ki, onlar öz rəhbərliyinin çirkin əməllərinin girovuna çevrilməsinlər. Bu gün öz hökumətini məsuliyyətə cəlb etsinlər. Öz övladlarını Azərbaycan torpaqlarına göndərməsinlər. Nə işi var erməni əsgərinin Azərbaycan torpağında? Biz öz torpağımızda vuruşuruq. Bizim əsgər və zabitlərimiz öz torpağında həlak olur, öz torpağında yaralanır və biz öz torpaqlarımızı azad edirik".*

Ermənistan son hərbi əməliyyatlarda da yenə cinayətkar, faşist xislətinə uyğun davranır. İşğalçı ölkənin hərbçilərinin silahlı münaqişələrin aparılması qaydalarına məhəl qoymadan Azərbaycanın dinc əhalisini atəşə tutması, cəbhəboyu ərazilərdə yaşayan silahsız, mülki şəxslərin öldürülməsi bunun bariz təsdiqidir. Ermənistan silahlı qüvvələri cəbhəboyu zonada yerləşən mövqelərimizi və yaşayış məntəqələrini günlərdir ki, müxtəlif çaplı silahlardan intensiv atəşə tutur. Düşmənin bizim yaşayış məntəqələrimizi, mülki əhalini qəsdən hədəfə alması beynəlxalq humanitar hüququn, o cümlədən 1949-cu ildə qəbul olunmuş Cenevrə Konvensiyasının kobud surətdə pozulmasıdır. Müharibə hər nə qədər tərəflərin bir-birinə qarşı silahlı güc tətbiqi olsa da, onun öz qayda-qanunları var. Hərbi əməliyyatlar vəhşilik həddinə gəlməməlidir. Cenevrə Konvensiyasına görə hərbi münaqişələr zamanı xüsusilə mülki əhali arasında itkilərə səbəb olacaq və mülki obyektlərə zərər vura biləcək hücumlar qadağandır. Ermənistanın günlərdir mülki insanlarımızı hədəfə alması, hətta məktəbliləri qətlə yetirməsi isə göstərir ki, 1992-ci ilin fevralında Xocalıda azərbaycanlı mülki şəxslərə qarşı törədilmiş soyqırımı vəhşilikləri bu gün də Ermənistan silahlı qüvvələrinin döyüş hazırlığına daxil edilmiş taktikadır. Bunun özü müvafiq beynəlxalq hüquq normalarına əsasən, Ermənistanın Azərbaycana qarşı növbəti hərbi təcavüzü və güc tətbiqi aktıdır. İşğalçı ölkə bütün bu hərbi cinayətlərinə görə ədalət mühakiməsi qarşısında cavab verməli olacaq. Bu vəhşiliklərə göz yuman, Ermənistanın bəşəri cinayətlərini dəstəkləyən başqa hər kəs də əli azərbaycanlı körpələrin qanına batmış müttəhimlərlə tarixin haqq-hesab anında yanaşı olacaq. Çünki Ermənistan kimi beynəlxalq cinayətkara hər hansısa şəkildə dəstək vermək regionda sülhə, sabitliyə qarşı çıxmaqdır. İnkişafın qarşısını almaqdır. İnsan faciələrinə, təcavüzkar qonşumuzun quldur əməllərinə şərik olmaqdır.

### Quldur dövlətə dəstək olanlar bəşər qarşısında da hesab verəcəklər

Bütün gərgin zamanlarda, sınaq məqamlarında olduğu kimi, bu gün də Azərbaycanın yanında duran, qardaş elinin həyanını, doğma sözlərinin ruhlandırıcı gücünü bir an belə əskik etməyən Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın Böyük Millət Məclisinin tribunasından bəyan etdiyi kimi, bu regionda davamlı sülhün yolu ermənilərin işğal etdikləri hər qarış Azərbaycan torpağından geri çəkilmələrindən keçir: "Ermənistan hakimiyyətini hər şeyi bir kənara qoyub, təkidlə Türkiyəyə böhtan atmaq cəhdləri də xilas etməyəcək. Bu quldur dövlətə dəstək verənləri bəşərin vicdanı qarşısında hesab verəcəkləri barədə xəbərdar edirəm. Rəbbim azərbaycanlı qardaşlarımızın yar və yardımçısı olsun!"

Azərbaycan Ordusu ötən onilliklər ərzində döyüş meydanında, səngərlərdə gücləndiyi kimi, Azərbaycan dövlətinin də diplomatik arenada mövqelərini möhkəmləndirməsi sayəsində bu gün haqlı mövqeyimizə dəstək verənlər daha çoxdur. Artıq bütün dünya Dağlıq Qarabağ münaqişəsində haqq-ədalətin, beynəlxalq hüquq normalarının kimin yanında olduğunu gözəl bilir. Ermənistan rəhbərliyi isə Azərbaycanın son sarsıdıcı zərbələrindən sonra isterik vəziyyətdə müxtəlif ünvanlara üz tutur. Müzəffər Ordumuzun rəşadəti qarşısında müqavimət gücü artıq tam tükənməkdə olduğundan hərbi əməliyyatların mümkün qədər tez bir zamanda dayandırılması üçün acizcəsinə kömək istəyir. Tarixboyu başqalarının əlində alət olduğunu, heç zaman öz taleyinə sahiblik edə bilmədiyini miskin davranışları ilə növbəti dəfə sərgiləyir. Eyni zamanda öz cılız mahiyyətindən irəli gələrək cəbhə xəttində olduğu kimi, informasiya savaşında da ağlasığmaz uydurmalara əl atır. Bura Azərbaycanın, guya, Suriyadan muzdlu döyüşçülər gətirməsi, yaxud Türkiyə hərbçilərinin bu münaqişədə iştirakı barədə saxta xəbərlərin dövriyyəyə buraxılması da daxildir. Ermənistan rəhbərliyinin bu cür iddialarla özünü necə gülünc vəziyyətə qoyduğunu, Azərbaycan Prezidentinin isə siyasətdəki mükəmməlliyini "Rossiya-1" kanalına müsahibəsi zamanı hər kəs gördü. Azərbaycan Prezidenti İlham Əliyev bəyan etdi ki, biz 2 milyon əhalisi olan Ermənistana qarşı 10 milyon əhalidən 10 minlərlə ehtiyatda olanları orduya çağırırıq, bizim insan ehtiyatlarına ehtiyacımız yoxdur. "Buna görə də biz özümüzü müdafiə etməyə və təcavüzkarı elə cəzalandırmağa qabilik ki, o, bir daha bizim tərəfə baxmağa cəsarət etməsin".

### Bizim yalnız bir şərtimiz var

Ermənistanı bu çarəsiz durumdan xilas etməkdən ötrü döyüşlərin dayandırılması xahişi ilə dövlət rəhbərliyimizə ardıcıl müraciətlər edən beynəlxalq təşkilatlar, xarici ölkələrin başçıları isə bu dəfə qarşılarında başqa bir Azərbaycanı görürlər. O Azərbaycanı ki, artıq kənardan verilən ümidlərə bel bağlamaq niyyətində deyil və irəli sürdüyü yeganə şərtə əməl edilməyənə qədər qılıncı qınına qoymayacaq.

Ali Baş Komandan cənab İlham Əliyevin bəyan etdyi kimi, *"Bizim bir şərtimiz var, torpaqlarımızdan qeyd-şərtsiz, tam və dərhal çıxıb rədd olmalıdırlar. Bu şərtim qüvvədədir və əgər bu şərtimə Ermənistan hökuməti əməl edərsə, döyüşlər dayanacaq, qan tökülməyəcək, sülh olacaq, bizim bölgəmizə sülh gələcək. Biz sülh istəyirik, biz məsələnin həllini istəyirik, əks təqdirdə 30 ilə yaxın danışıqlara ümid bəsləməzdik. Danışıqlara bizim sadiq qalmağımızın yeganə səbəbi o idi ki, ümid var idi. Bizə ümidlər verilirdi, bizə siqnallar göndərilirdi ki, bir qədər səbir edin, məsələ həll olunacaq. Amma mən demişdim ki, Azərbaycan xalqı bu işğalla heç vaxt barışmayacaq. Demişdim ki, əgər məsələ danışıqlar yolu ilə həll olunmazsa, Azərbaycanın tam haqqı var ki, məsələ hərbi yolla öz həllini tapsın. Bu haqqı bizə Azərbaycan xalqı verib, bu haqqı bizə beynəlxalq hüquq normaları verib".*

Azərbaycan xalqı bütün varlığı ilə bu gün Ordumuzun, Silahlı Qüvvələrimizin Ali Baş Komandanının yanındadır. Belə bir həmrəyliklə illərdən bəri həsrətində olduğumuz böyük Zəfər tezliklə bizim olacaq.

***Nurlana ƏLİYEVA,***
***BSU-nun rektoru,***
***YAP Qadınlar Şurasının sədri,***
***professor***

## Azərbaycanın ən müasir tarixinin qəhrəmanı

**Bu gün Qarabağda baş verənlər dünya ictimaiyyətinin diqqət mərkəzindədir. Oktyabrın 1-də Brüsseldə Avropa Birliyi liderləri, Moskvada Rusiya Təhlükəsizlik Şurasının üzvləri, daha öncə isə BMT Təhlükəsizlik Şurası və Minsk qrupuna daxil olan dövlətlərin başçıları yaranmış vəziyyətlə bağlı narahatlıqlarını dilə gətirib, tərəfləri barışığa dəvət ediblər.**

Erməni təcavüzü, Ermənistanın beynəlxalq hüquq norma və prinsiplərinə sayğısızlığı, azərbaycanlılara qarşı etnik təmizləmə siyasətini 30 ildir susqunluqla izləyən, açıq-aşkar ikili standartlar tətbiq edən dünya başbilənlərinin hazırkı canfəşanlığı suallar doğurmaya bilməz. Bəlkə də bu canfəşanlıq BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qəbul etdiyi 4 qətnaməsinin kağız üzərində qalması, Xocalı soyqırımı, "köhnə qitə"də erməni lobbisinin sifarişilə yazılmış siyasi ssenarilərin tərkib hissəsi olan qərəzli şouların reallaşdırılması zamanı sərgilənsəydi, Qarabağ problemi çoxdan həllini tapmış olardı. Amma görünən odur ki, indiyədək dünya supergücləri "Kim güclüdür, o da haqlıdır" prinsipinə sadiq qalıblar və seçimlərini yanlış ediblər. Bu məqamı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan dəqiqliklə və adil şəkildə dəyərləndirib: "Ermənilərin qədim Azərbaycan torpağı Qarabağın işğalına qarşı kor, kar, lal qalanların bu gün sərgilədikləri duruş ikiüzlülükdür. İşğalçılara səssiz qalan, vətənini qoruyanı isə suçlayanların sözünün bizim üçün heç bir dəyəri yoxdur".



Siyasi proseslərdə qlobal maraqların miqyasını və meqatrendləri, beynəlxalq müstəvidə gedən oyunları, qlobal siyasi konfiqurasiyanın bir cinahında hələ də neoimperializm siyasətini davam etdirməkdə israrlı olan dövlətlərin məqsədlərini dəqiq hesablayan Prezident İlham Əliyev öz nitqlərində dəfələrlə yeganə çıxış yolu kimi güclü Azərbaycanı gördüyünü səsləndirib və bu istiqamətdə ciddi addımlar gerçəkləşdirib. Hazırda Azərbaycan dünya reytinqlərində layiqli yer tutub, "Davamlı İnkişaf Hədəfləri İndeksi"nə görə 166 ölkə arasında 54-cü pillədə qərarlaşıb, iqtisadiyyatda pozitiv dinamika qorunur, cəmiyyətdə milli birlik ruhu yüksəkdir.

Sirr deyil ki, Azərbaycan Respublikasının müstəqilliyini bərpa etdiyi gündən bu yana üzləşdiyi ən böyük təhdid ərazisinin 20 faizinin erməni işğalçıları tərəfindən ilhaqı, 1 milyondan artıq azərbaycanlının qaçqın və məcburi köçkün vəziyyətinə düşməsidir. Bu fakt eyni zamanda işğal prosesini müşayiət edən digər təzahürlər Azərbaycanın, həmçinin bütövlükdə bölgənin iqtisadi, sosial və humanitar inkişafına neqativ təsirsiz ötüşməyib. Buna baxmayaraq, 30 ildir ölkə rəhbərliyi təmkinlə problemin sülh, danışıqlar yolu ilə həllinə çalışıb. Lakin ölkə Prezidentinin sentyabrın 27-də xalqa müraciətində qeyd etdiyi kimi, "məhz Ermənistanın riyakar, qeyri-konstruktiv və yalançı siyasəti nəticəsində hazırda danışıqlar faktiki olaraq dayanıbdır. Növbəti təxribatın törədilməsi məhz bu məqsədləri güdür və bu məqsədlər onlar üçün əsas məqsədlərdir". Göründüyü kimi biz təmkin sərgilədikcə ermənilər daha da azğınlaşıb, unudublar ki, Qarabağ tarixən Azərbaycanın ərazisidir, tarixi isə dəyişmək mümkün deyil. Bu gün məhz tarixi ədalətin bərpası, erməni faşizminin durdurulması üçün Azərbaycan mənfur düşmənin açdığı bütün cəbhələrdə ona layiqli cavabını verir.

Bəlli faktdır ki, çətin dönəmlərdə, xüsusilə müharibə dönəmində hər bir xalqın güclü liderə ehtiyacı olur. Azərbaycanın bu sarıdan bəxti gətirib. Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə məntiqli arqumentləri, qətiyyəti və məğrur duruşuyla Ermənistan baş nazirinin sərsəm sayıqlamaları ilə ölkəsinin yalanla yoğrulan siyasətini ifşa edən, həm Ermənistanda, həm də onun hüdudlarından kənarda dəfələrlə aciz və komik duruma düşən Paşinyanın dərsini verib. Bu gün bütün dünya azərbaycanlıları "Qarabağ Azərbaycandır və nida işarəsi", - deyən liderinin savaşın davamı üçün zəruri strateji və taktiki qərarlarının arxasındadır. Çünki Azərbaycanın Ali Baş Komandanının qərarları ölkəsinin qüdrətindən qaynaqlanır, sadəcə intuisiyaya deyil, həm də güclərin və vasitələrin dəqiq hesablanmasına əsaslanır.

İlham Əliyev qısa zaman çərçivəsində milli qüruru canlandırıb, Azərbaycanı beynəlxalq arenada bərabərhüquqlu tərəfdaş kimi qəbul etdirib. "Bu yaxınlarda bizim Azərbaycanın qədim şəhəri olan Şuşada qondarma kriminal xunta rejiminin başçısının "andiçmə" mərasimi keçirilmişdir. Bu, təxribat deyilmi? Bu, bizə qarşı təhqirdir. Onlar hesab edirdilər ki, biz bu təhqirlə barışacağıq, razılaşacağıq. Onlar bizi şüurlu şəkildə təxribatlara çəkirlər və bunun acı nəticələrini görəcəklər. Bu yaxınlarda qondarma "Dağlıq Qarabağ respublikası" parlamentinin qədim Azərbaycan şəhəri - Şuşaya köçürülməsi haqqında qərar qəbul edildi. Bu, növbəti təxribatdır. Bu yaxınlarda Ermənistanın baş naziri bəyan etmişdir ki, on minlərlə insanı birləşdirən "könüllü" hərbi birləşmələr yaradılacaqdır. Bu, nə üçün lazımdır? Bunlar kimə qarşı vuruşacaqlar? Bu, Azərbaycana qarşı bu gün törədilən təxribatın hazırlıq mərhələsi idi. Mən artıq bir neçə dəfə demişdim, o cümlədən bu yaxınlarda BMT kürsüsündən demişdim ki, Ermənistan yeni müharibəyə hazırlaşır, Ermənistan dayandırılmalıdır və dayandırılacaqdır", - deyən dövlət başçısının qətiyyəti həm dostlarını, həm də düşmənlərini heyran qoymaya bilməz. İlham Əliyevin böyük uğurunun sirrini üç sözlə ifadə etmək olar: uzaqgörənlik, inam və hədəfə çatmaq. O, siyasətçilərə məxsus kübarlıq və liderlərə xas cəsarətə malik, ölkəsinin gələcəyi ilə bağlı aydın baxışa sahib şəxsiyyətdir. Azərbaycan Prezidenti siyasi uzaqgörənliyi ilə seçilir, düzgün hədəflər seçməyi və onlara çatmağı, imkanlardan düzgün istifadə etməyi bacarır, səbirlidir və çağırışları qələbəyə çevirməkdə mahirdir. Amma ən əsası o, necə irəliləmək lazım olduğunu yaxşı bilir. Məhz bu səbəbdəndir ki, İlham Əliyev öz hərəkətləri ilə Ermənistanı idarə etmiş və idarə edən "təlxək liderləri" hər zaman çətin vəziyyətə salıb. Sonuncularla müqayisədə dövlət başçımızın daha cəsarətli olması Azərbaycan həqiqətlərinin təntənəsinə, Azərbaycanla bağlı psixoloji baryerlərin aradan götürülməsinə şərait yaradıb. İlham Əliyevin ilk gündən situasiyanı düzgün dəyərləndirməsi, yerində və zamanında atılan addımlar və verilən açıqlamalar sayəsində ermənilər ən güclü dayağından - Rusiyanın dəstəyindən məhrum duruma düşüblər. İlham Əliyev "Rossiya-1" telekanalının "60 dəqiqə" proqramında "bu gün Ermənistanda Soros rejimi mövcuddur. Belarusda baş tutmayan çevriliş iki il bundan əvvəl Yerevanda baş tutdu. Bu gün Paşinyanın şəxsində Ermənistanın rəhbəri Sorosun əlaltısıdır", - deməklə hər zaman ermənilərin yalanlarını təkrarlamağa meyilli rus auditoriyasına ciddi və düşündürücü mesaj ünvanlayır. Nəticə özünü gözlətmir: belə ki, Rusiya sentyabrın 27-dən, yəni Qarabağ münaqişəsi geniş miqyasda kəskinləşəndən neytrallığını saxlayır. Bunu Ermənistanın baş naziri Nikol Paşinyan özü də etiraf edib. "Hazırda Rusiya tamamilə neytral mövqe tutur", - deyə Paşinyan "The Spectator" nəşrinə müsahibəsində Yerevanın Moskvadan dəstək zəmanəti alıb-almadığı barədə sualı cavablandırarkən bildirib.

Artıq siyasi opponentlərinin belə liderliyini qeyd-şərtsiz qəbul etdikləri İlham Əliyevin ən vacib keyfiyyəti ümumi hədəfi düzgün müəyyənləşdirmək və xalqı ardıcıl şəkildə o hədəfə doğru aparmaqdır. "Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!" - söyləməklə cənab Prezident növbəti hədəfi açıqlayıb. Bəli, indi yeganə hədəf Qarabağ, onun işğaldan azad edilməsidir və hazırda Azərbaycanın böyüklü-kiçikli bütün vətəndaşları "mən qalibəm-sən qalibsən" paradiqmasından yola çıxaraq cəsarətli liderinin rəhbərliyi ilə ən müasir tarixini yazır və böyük dönüş üçün zəmin hazırlayır.

***Ziyafət HƏBİBOVA,***
***siyasi elmlər doktoru, professor,***
***Azərbaycan Respublikasının***
***Prezidenti yanında Dövlət İdarəçilik***
***Akademiyasının şöbə müdiri***

# Torpaqların işğaldan azad olunması uğrunda Vətən müharibəsi başlayıb




*Əvvəli 1-ci səh.*

Bu sözləri deyən "Qarabağ"ın yarımmüdafiəçisi, Horadiz şəhərində anadan olmuş və 1 yaşında yurdundan didərgin düşmüş Qara Qarayev hazırkı vəziyyətdə qazandıqları uğuru o qədər də böyük saymır: "Əsgərlərimizin döyüşdə qazandığı zəfərlər daha önəmlidir. Çünki orada daha çətindir, səhvlər bağışlanmır. Əsgərlərimiz torpaqlarımızı qorumaq üçün hər saniyə ölümlə üz-üzədirlər. Nə qədər idmanla məşğul olsaq da, beynəlxalq arenada çıxış etsək də, fikirlərimiz, dualarımız əsgərlərimizlədir".

Qara matçdan öncə iki gün yata bilmədiyini deyir: "Yuxularım qarışmışdı. İstər-istəməz həyəcan keçirirdim. Cəbhədə qazanılan zəfərlərin qarşılığında Polşadan qələbə sevinci ilə qayıtmalı idik və biz bunun öhdəsindən gələ bildik. Bu işdə baş məşqçimiz bizə çox kömək oldu. O, futbolçuları tamamilə qələbəyə kökləmişdi. Hamımız məsuliyyəti dərk edirdik".

Varşavada qazanılmış mühüm qələbədən sonra Ağdam klubunun baş məşqçisi Qurban Qurbanov da hadisələrə münasibətini bildirmişdir: "Hazırkı vəziyyətdə, müharibə şəraitində bu, vacib qələbədir. Matçdan dərhal sonra futbolçularıma təşəkkürümü bildirdim. Onların üzərində həddən artıq yük var idi. Onlar oyunun məsuliyyətini dərk edirdilər. Bu, futbolçuların meydandakı çıxışından, üz ifadələrindən də hiss olunurdu. Nə qədər ki, futbol, idman var, bu yük üstümüzdən götürülməyəcək. "Qarabağ"da bu, ikiqat olur. Azarkeşlərimiz bizdən daim qələbə gözləyirlər. Biz də öz növbəmizdə hər zaman Azərbaycanı, Qarabağımızı, Ordumuzu layiqincə təmsil etməyə çalışırıq. Son günlər əsgərlərimizin fədakarlığını düşünsək, bizim etdiyimiz çox cüzidir... Hər bir halda futbolçularımla fəxr edirəm ki, belə bir nəticə əldə etdik. Hətta oyundan öncə söhbətimiz oldu ki, bu gün burada legioner yoxdur, hamımız azərbaycanlıyıq. Onlar da həqiqətən özlərini azərbaycanlı kimi göstərdilər. Ölkəyə, komandaya sevgilərini meydanda nümayiş etdirdilər. Hesabın 3:0 olmasına baxmayaraq, son dəqiqəyədək maksimum istək, konsentrasiya ilə oynadılar. Meydanda rəqibə heç bir mübarizədə uduzmamağa çalışırdılar. Bu da Ordumuzun döyüşlərdəki qələbələri ilə bağlı idi. Ona görə bu qələbənin xüsusi yeri var".

Varşavanın "Polşa ordusu" stadionunda keçirilən oyunda "Qarabağ" futbolçuları meydançanın hər bir qarışında döyüşürdülər desək, yanılmarıq və bu, yekunda öz bəhrəsini verdi. Matç bitdikdən sonra "Qarabağ"ın futbolçuları, məşqçiləri və klubun digər nümayəndələri Ordumuza dəstək nümayiş etdirərək əsgər salamı verdilər.

Bu günlərdə Ordumuz uzun illər işğal altında qalmış bir çox ərazilərimizi düşməndən təmizləmişdir. İnanırıq ki, "Qarabağ" futbolçularının möhtəşəm qələbəsinin ardınca Qarabağda davam edən hərbi əməliyyat tezliklə erməni faşistlərinin darmadağın olunması və ərazi bütövlüyümüzün bərpası ilə nəticələnəcək.

***Rizvan HİLALOĞLU,***
***"Azərbaycan"***

# İndi mərdlik vaxtı, qeyrət çağıdır

## Ana xeyir-duası döyüşən oğullara güc-qüvvət verir

Dünyada ana qədər incə qəlbli, ana qədər kövrək bir məxluq varmı, görəsən?! Yer üzünün ən ucqar bir guşəsində atılan güllənin səsi də sanki ona gəlib çatır. Üzünü belə görmədiyi əsgərlər, haqq işi uğrunda vuruşan döyüşçülər üçün dua edir. Bu top-tüfəng öz yurdumuzda,öz torpağımızda səslənəndə analarımızın yüzqat incələnən qəlbi şir, aslan ürəyinə də dönə bilir ("Aslanın erkəyi, dişisi olmaz" deyib xalqımız).



Vətən, torpaq uğrunda haqq savaşına qalxan oğullarımıza xeyir-dua verər analar, qələbə dilər. Ulu nənələrimizin bayatı dili ilə oğullara sağ-salamatlıq arzulayar:

*Sən igidlər nəslisən,*
*Dəyməz heç güllə sənə!..*

Oğullar da qəlblərindəki ana sevgisi ilə atılar döyüşə. Ana Vətən, ana torpaq, ana yurd, ana qeyrəti uğrunda vuruşar və... Lazım gələndə həyatından keçər igidlərimiz. Çünki torpaq əgər uğrunda ölən varsa, Vətəndir!

Belə olduğu halda Azərbaycan anası qəlbini polada da döndərə bilir. "Bağrına daş bağlayıb" ifadəsi dilimizdə əbəs yerə yaranmayıb ki...

"Şəhid anası" deyə çağırıldığı andan ağır oturub batman gələn xanım-xatın Azərbaycan qadınlarının gözü önünə üç onillikdən çoxdur erməni faşistləri tərəfindən xalqımızın başına gətirilən faciələr, müsibətlər, soyqırımları gələr. Oğlunun torpaq, xalq, haqq işi uğrunda şəhid olduğunu düşünərək başını uca tutar. Dərin kədər qarışıq bir ülvi hiss də keçirər, fəxarət duyar, qürurlu duyğular yaşayar. "Oğulu böyütmüşəm - Vətən üçün!" deyən analarımız azdırmı?

Dünən oğlu orduda zabit kimi xidmət edən bir anaya ürək-dirək, təsəlli verdik, səbir dilədik. O isə bütün döyüşçülərimizə uğur, qələbə arzuladı, hamısının sağ-salamat olması üçün dua etdi. O ana bilir ki, oğlu odlu döyüşlərdədir. O ana hətta belə düşünməyə də özündə güc tapır: "Nə oğlum indiyə qədərki şəhidlərimizdən artıqdır, nə də özüm onların analarından..."

Dünən bir zabit xanımı ilə həbsöhbət olduq. O da anadır, iki körpəsi var, üçüncüsünün yolunu gözləyir. Ömür-gün yoldaşı odlu cəbhədə düşmənlə üz-üzə olan bu gənc qadın çox təmkinlidir: "Demişəm, evdən, uşaqlardan nigaran qalmasın. Fikri işində, xidmətində olsun, Vətən qarşısında müqəddəs borcunu yerinə yetirsin".

İstər-istəməz yadımıza vaxtilə radio dalğalarında "Müharibə illərinin mahnıları" silsilə verilişlərində səslənən bir nəğmə düşür:

*Gəl, ana yurdumun qızı, gəlini,*
*İndi namus vaxtı, qeyrət dəmidir.*
*Sən də əsirgəmə kömək əlini,*
*Hər sözün, söhbətin can məlhəmidir.*

Bu gün yüzlərlə Azərbaycan qızının qəlbindən silaha sarılmaq keçir. Ancaq güclü dövlət olan Azərbaycanın güclü Ordusu buna ehtiyac duymur. Azərbaycan oğulları yağı düşmənə necə lazımdırsa, elə də cavab verir. Ancaq bu gün də, böyük şairimiz Səməd Vurğunun zamanında dediyi kimi, "Hər sözün, söhbətin can məlhəmidir", Azərbaycan qızı, Azərbaycan anası!

Bütün müharibələrdə döyüşən ordu, vuruşan əsgər və zabitlər arxa cəbhədən güc alır. Həm də təkcə maddi mənada yox. Bəlkə ondan az əhəmiyyət daşımayan mənəvi dəstəkdən söhbət gedir.

Bu gün Azərbaycan Ordusunun arxasında Azərbaycan dövləti, xalqımız dayanıb. Döyüşən hər oğul, eyni zamanda, öz evindən, ailəsindən mənəvi güc alır. Anasından, bacısından, ömür-gün yoldaşından eşitdiyi hər söz onun qolunun qüvvətini, gözünün işığını artırır. Əgər yarası olsa, o sözlər məlhəmə çevrilir. Ana xeyir-duası, qadın sədaqəti, bacı sevgisi düşmən üstünə şığıyan oğullarımızın qələbəyə inamını artırır.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Hərb tariximizə yeni şanlı səhifələr yazılır

**Artıq bir neçə gündür ki, Ermənistanın Azərbaycana qarşı təcavüzə səbəb olan hərbi təxribatlarının qarşısı Milli Ordumuz tərəfindən qətiyyətlə alınır, bütün istiqamətlərdə düşmənə sarsıdıcı zərbələr endirilir. Uğurlu hərbi əməliyyatlarla bağlı xəbərlər ictimaiyyətdə rəğbət doğurur.**

Etiraf edək ki, müharibə, terror, qərəz və haqsızlıq dinindən, irqindən və milli mənsubiyyətindən asılı olmayaraq hər kəsi ağrıdır, insanları ölüm və faciələrlə üz-üzə qoyur. Bunun bariz nümunələrini Azərbaycan xalqı otuz ildən artıqdır ki, mənfur ermənilərin timsalında görür. 30 ildən artıqdır ki, Azərbaycan torpaqlarının iyirmi faizi Ermənistan silahlı birləşmələrinin işğalı altındadır, bir milyona yaxın insan öz dədə-baba yurdundan qaçqın və köçkün düşüb. Erməni silahlıları, erməni terrorçuları işğal etdikləri ərazilərdən tutmuş paytaxt Bakı Metropolitenində, eləcə də ölkəmizin müxtəlif bölgələrində xidmətdə olan sərnişin avtobusları və sərnişin qatarlarında dəfələrlə faciələrə səbəb olan, beynəlxalq aləmin diqqətindən yayınmayan terror aktları həyata keçiriblər. Ermənistan hakimiyyəti ordusunun Azərbaycanın işğal etdikləri ərazilərdən çıxarılması üçün nüfuzlu beynəlxalq təşkilatların qərar və qətnamələrinə, tələb və tövsiyələrinə əməl etməyib. Bu illər ərzində ATƏT-in Minsk qrupu heç bir nəticə ortaya qoymayıb.

Ötən 30 il müddətində Ermənistanda dəfələrlə hakimiyyət dəyişikliyi olsa da, onların faşist xarakteri, işğalçılıq niyyəti dəyişməyib. Ermənistanın bütün beynəlxalq aləmin gözü qarşısında sentyabrın 27-də Azərbaycan ərazisinə sərhədboyu hücumu, dinc əhalini iriçaplı silahlardan və qumbaraatanlardan atəşə tutması, əlavə torpaqlar işğal etmək istəməsi hamıda təəssüf doğurub. Həmin gün Azərbaycan Prezidenti İlham Əliyevin xalqımıza müraciətində təxribatın səbəbləri, habelə son saatlarda Ermənistanın işğalçılıq addımları, bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan Azərbaycan mövqelərini atəşə tutduğunu bildirib. Eyni zamanda belə əməllərin bir daha Ermənistan faşizminin eybəcər sifətini göstərdiyini, dinc əhaliyə qarşı bu cür qəddarlığın ancaq faşist dövlətlərinə aid olduğunu xatırladıb.

İqtidara gəldiyi gündən bəri verdiyi vədlərə əməl edə bilməyən Nikol Paşinyan hakimiyyətdə qalmağın yeganə yolunu müharibə mühiti yaratmaqda və daxildə narazı kütlənin fikrini başqa istiqamətə yönəltməkdə görür. Bununla ölkənin və əhalinin müdafiə qayğıları ilə məşğul olması ilə gündəmi zəbt etmək istəyir.

Lakin işğalçı Ermənistan bilməlidir ki, beynəlxalq qanunların tələbləri baxımından Azərbaycan öz torpaqlarını işğaldan azad etmək hüququna malikdir. Artıq ölkəmiz iqtisadi baxımdan güclənib, milli birliyə nail olunub, Azərbaycan xalqı dövlət başçısını dəstəkləyir, insanlar, xüsusən də gənclər Milli Ordunun sıralarında Vətən naminə, torpaqlarımızın düşmən tapdağından azad edilməsi üçün könüllü olaraq döyüşə getməyə hər an hazırdırlar. Bu sıradan neçə-neçə könüllü bu dəqiqə cəbhənin ön xəttində düşmənlə mərdliklə vuruşur. Hərbçilərimiz cəbhənin təmas xəttində yüksək vətənpərvərlik nümayiş etdirir, əsgər və zabitlərimiz şücaət və qəhrəmanlıq salnaməsi yaradırlar. Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşməyi, hətta bu yolda şəhid olmağı özlərinə şərəf bilirlər.

Dövlət başçısı Təhlükəsizlik Şurasının iclasında Azərbaycan torpaqlarında ikinci qondarma erməni dövlətinin yaradılmasına imkan verilməyəcəyini bir daha xatırlatmaqla, Dağlıq Qarabağın tarixi ilə bağlı beynəlxalq tədbirlərdə müxtəlif kürsülərdən dəfələrlə bu barədə öz sözünü dediyini, öz qəti mövqeyini, tarixi həqiqətləri dünya ictimaiyyətinə çatdırdığını, məqsədyönlü və yorulmaz səylər nəticəsində bu gün Dağlıq Qarabağ münaqişəsi ilə bağlı dünyada tam geniş təsəvvür yarandığını vurğulayıb.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin illərdən bəri səbir və təmkinlə həyata keçirdiyi ölkənin hərbi təhlükəsizliyi siyasəti bu gün müstəqil dövlətimizin öz ərazi bütövlüyünü təmin etməsinə hərtərəfli zəmin yaradıb. Azərbaycan Ordusu neçə gündür düşmənə ağır zərbələr endirir, onları zərərləşdirdikcə geri çəkilməyə məcbur edir. Dünyanın sülhpərvər siyasətçiləri, uzaqgörən və obyektiv dövlət xadimləri Ermənistanı müharibə iddiasından əl çəkməyə, insanları əsassız qırğına verməməyə, Azərbaycanın suveren ərazisindən qoşunlarını çıxarmaqla atəşkəsə, sülhə nail olmağa çağırırlar. Ermənistanın baş naziri Nikol Paşinyan və işğalçı qoşunların komandir heyəti deyilənləri nəzərə alaraq, ağıllarını başlarına yığıb dincliklə Dağlıq Qarabağı və digər işğal etdikləri əraziləri tərk etməlidirlər.

Ölkəmizin bütün əhalisi dövlət başçısının və hərbçilərimizin haqq yolunda olduğuna, dədə-baba torpaqlarımızın işğaldan azad ediləcəyinə, nəhayət, ədalətin zəfər çalacağına tam əmindirlər. Bu əminlik həm də ondan irəli gəlir ki, hər bir vətəndaş ölkəmizin özünü müdafiə etdiyinə, hərbçilərimizin əks-hücumlarda peşəkarlığına, Azərbaycanın hərb tarixinə şanlı səhifələr yazan rəşadətli odumuzun gücünə inanır.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***





# Azərbaycandan Ermənistana növbəti dərs

**İşğalçılıq siyasəti yeridən təcavüzkar Ermənistan Azərbaycan torpaqlarına sentyabrın 27-də, səhər saatlarında genişmiqyaslı hücuma keçdi. Sərhəd məntəqələrimizi, dinc vətəndaşlarımızı ağır artilleriya atəşlərinə məruz qoyan düşmən ordumuzun əks-hücumu ilə layiq olduğu cavabı aldı.**

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq norma və prinsiplərə, BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinə, eləcə də ATƏT-in Minsk qrupu həmsədrlərinin vasitəçiliyi ilə həllinə məhəl qoymayan, əslində, ikili oyun oynayan təcavüzkar Ermənistanın Azərbaycandan tutarlı dərs alması qaçılmaz idi. Cənubi Qafqazın ən güclü silahlı qüvvələri sayılan Azərbaycan Ordusu cavab atəşi ilə əks-hucuma keçərək, 30 ilə yaxındır erməni terrorçu, quldur dəstələrinin əsarəti altında qalan ərazilərimizin bir hissəsini, xüsusən əlverişli, strateji əhəmiyyətə malik bəzi yüksəklikləri azad etməklə, nəyə qadir olduğunu göstərdi.

Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 27-də televiziya ilə xalqa müraciət edərək, təcavüzkarların növbəti təxribatının qarşısının alındığı və Milli Ordumuzun zəfərlərə doğru irəliləməsini bildirdi.

Mülki əhali arasında itkilərin, yaralananların olmasına baxmayaraq, ordumuz düşmənin ön və arxa mövqelərinə ağır zərbələr endirir. Məhz bu cavab tədbirləri nəticəsində düşmənin bir çox hərbi texnikası sıradan çıxarılıb, canlı qüvvəsi məhv edilib.

Bu, bir daha faşizm ideologiyası ilə silahlanmış Ermənistanın təcavüzkarlığını və işğalçılıq siyasətinin növbəti təzahürüdür. Dövlət başçısının müraciətində bildirilir ki, iyul ayında Azərbaycan düşmənə layiqli cavabı verdi, öz ərazi bütövlüyünü qorudu və bir daha göstərdi ki, Azərbaycanla hədə-qorxu dilində danışan bundan peşman olacaq: "...Əfsuslar ki, bu, onlar üçün dərs olmadı. Halbuki mən iyul təxribatından sonra demişdim ki, Ermənistanın bu acı məğlubiyyəti onlar üçün dərs olmalıdır.

Son vaxtlar Ermənistanın Azərbaycana qarşı hərbi təxribatları müntəzəm xarakter almışdır. İyul ayında Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz istiqamətində yenə də artilleriya atəşi nəticəsində hərbçilərimiz və bir mülki şəxs həlak olmuşdur. Heç kəsə sirr deyil ki, ilk atəşi, o cümlədən artilleriya atəşini Ermənistan açıbdır və ilk həlak olanlar da məhz Azərbaycan həbçiləri olmuşdur. Azərbaycan düşmənə layiqli cavabını verdi və düşmən bir santimetr irəliyə gedə bilmədi. Düşmən dayandırıldı, ölkəmizin ərazi bütövlüyü qorundu. Sarsıdıcı zərbələr nəticəsində Ermənistan tərəfi məcbur olub acı məğlubiyyətlə razılaşdı. Mən bu barədə demişəm, bir daha demək istəyirəm, əgər bizim istəyimiz olsaydı, hərbi döyüşləri Ermənistan ərazisinə keçirə bilərdik. Ancaq bizim Ermənistan ərazisində hərbi hədəflərimiz yoxdur və belə olan halda bir neçə gündən sonra atəş dayandırılmışdır".

Prezident Ermənistanın bu təxribatı törətməklə hansı məqsəd güddüyünə aydınlıq gətirərkən qeyd etdi ki, ilk növbədə Azərbaycan torpaqlarının işğalı onların planındadır və bunu gizlətmirlər. Ermənistanın hərbi-siyasi rəhbərliyi Azərbaycanı yeni işğalla hədələməyə çalışırdı: yeni ərazilər uğrunda işğal siyasəti. Onların rəhbərliyinin siyasəti budur. Digər səbəb də var: Ermənistanda mövcud olan çox ciddi sosial, iqtisadi və siyasi məsələlərdən ölkə əhalisinin fikrini yayındırmaq, Azərbaycandan düşmən obrazı yaratmaq. Ermənistan hər necə olur-olsun, çalışır ki, danışıqlar prosesi pozulsun. Buna nail olanların riyakar, qeyri-konstruktiv və yalançı siyasəti nəticəsində danışıqlar pozulub. Budəfəki təxribat da məhz həmin məqsədləri güdür. Çünki bu, çirkin siyasi oyunların əsas məqsədləridir.

Sentyabrın 27-də keçirilən Təhlükəsizlik Şurasının iclasında dövlətimizin başçısı bir daha əmin olduğunu bildirdi ki, uğurlu əks-hücum əməliyyatımız ədalətsizliyə, otuz ilə yaxın davam edən işğala son qoyacaq. Çünki Azərbaycan xalqı öz torpağında yaşamaq istəyir. Onlar Vətən həsrəti ilə yaşayırlar: "Ermənistan rəhbərliyi tərəfindən öz dədə-baba torpaqlarından zorla didərgin salınmış insanlar doğma ocaqlarına qayıtmaq istəyirlər. Baxmayaraq ki, artıq onların ocaqları vəhşilər tərəfindən dağıdılıb. Baxın Ağdam şəhərinin qalıqlarına. Baxın Füzuli şəhərinin qalıqlarına. Baxın işğal edilmiş ərazilərdə bizim məscidlərimizin, qəbiristanlıqlarımızın dağılmış vəziyyətinə. Bütün bunları erməni cəlladları törədib və biz tam haqlıyıq. Bizim mübarizəmiz haqq mübarizəsidir və bu gün Azərbaycan vətəndaşları dövlətə tam dəstək göstərirlər, bu dəstəyi biz daim hiss edirik. Azərbaycan vətəndaşı Azərbaycan Ordusunun yanındadır. Otuz ilə yaxın öz doğma torpaqlarına qayıda bilməyən soydaşlarımıza da üz tutub deyirəm, biz əlimizdən gələni edəcəyik ki, sizi öz doğma torpaqlarınıza qaytaraq".

Müdafiə naziri, general-polkovnik Zakir Həsənovun Təhlükəsizlik Şurasının iclasında verdiyi məlumatlar xalqımızın qəti qələbəyə - Azərbaycan Ordusunun Murovdağ zirvəsinə sancdığı kimi, tezliklə Şuşada da üçrəngli bayrağımızı dalğalandıracağına inamını bir daha artırdı. Füzuli, Cəbrayıl, Tərtər və Ağdam rayonlarının kəndləri artilleriyadan atəşə tutulsa da, dağıntılar, əhali arasında yaralananlar və itkilər olsa da, xalqımızın qələbəyə inamı bunları üstələdi. Eyni vaxtda Ağdam, Füzuli, Cəbrayıl istiqamətindən düşmənin silahlı qüvvələrinin cəmləşməsi müşahidə olunsa da, Qaraxanbəyli, Nüzgar, Yuxarı Əbdürrəhmanlı, Böyük Mərcanlı, Kənd Horadiz, Qərvənd kəndlərinin azad edilməsi, Azərbaycan Ordusunun digər istiqamətlərdə uğurlu əks-hücum əməliyyatı nəticəsində düşmənin böyük itkilər verərək geri çəkilməsi böyük qələbənin heç də uzaqda olmadığını göstərir.

Cənab Prezident dəfələrlə beynəlxalq tribunalardan bəyan edib ki, Dağlıq Qarabağ əzəli, tarixi Azərbaycan torpağıdır. Ermənistanın baş naziri "Qarabağ Ermənistandır, nöqtə" deyəndə, Ali Baş Komandanımız qətiyyət və casərətlə bəyan edib: "Qarabağ Azərbaycandır və Nida".

Artıq bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Tarixi ədalət tərəfimizdədir. Çünki işğaldan azad ediləcək ərazilər doğma, dədə-baba torpağımızdır. Tezliklə o torpaqlarda Azərbaycan bayrağı dalğalanacaq ki, bu zəfəri tarixə Ali Baş Komandan İlham Əliyev və rəşadətli Milli Ordumuz yazacaq!

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

# Erməni faşistlərinin qurbanları mülki şəxslər və obyektlərdir







# Hədəfdə yenə dinc əhalidir

## Erməni terroru amansızlıqla davam edir

*Əvvəli 1-ci səh.*



Əslində Azərbaycan xalqı tək XX əsrin sonlarından deyil, bir neçə yüz il öncədən erməni millətçi-şovinistlərinin davamlı olaraq etnik təmizləmə, soyqırım siyasətinə məruz qalıb. Xalqımız tarixi torpaqlarından qovulub, qaçqına, məcburi köçkünə çevrilib və bütün bunlar ermənilər tərəfindən kütləvi qırğınlarla müşayiət olunub.

### Sərsəm erməni ideologiyası

Azərbaycanlıların öz tarixi-etnik torpaqlarından qovulması sovet dövründə də davam edib. Özü də bu siyasət ardıcıl və məqsədyönlü şəkildə həyata keçirilib. Əvvəlcə, 1948-1953-cü illərdə Ermənistandan 150 min azərbaycanlı deportasiya olunaraq Azərbaycanın Kür-Araz düzənliyində yerləşdirilib. 1988-ci ildə isə öz tarixi torpaqlarında yaşayan sonuncu 300 minə yaxın azərbaycanlı bu ərazidən qovulub. 1988-ci ildən Dağlıq Qarabağ ətrafında başlayan hadisələr, erməni ideoloqlarının "dənizdən dənizə Ermənistan" adlı sərsəm ideyasını reallaşdırmaq cəhdi kəndlərimizin, şəhərlərimizin dağılması, on minlərlə günahsız insanın ölümü, yüz minlərlə azərbaycanlının öz tarixi torpaqlarından didərgin düşməsi ilə nəticələnib.

Ermənilər tarixən öz havadarlarının köməyi ilə Azərbaycan xalqına qarşı ərazi iddiasında olub, çörəyimizi yeyib, sərvətlərimizdən istifadə edib namərdcəsinə bizə arxadan zərbə vurublar, tarixi torpaqlarımıza, dədə-baba yurdumuza qəddarcasına soxularaq işğal ediblər, xalqımıza qarşı soyqırımı törədiblər. Vəhşiliklərini, amansızlıqlarını, zalımlıqlarını tarixə qanla, dinc, əliyalın əhalini qırmaqla yazıblar.

### Qaradağlı sakinləri ermənilərin soyqırımına məruz qalıb

Erməni faşistləri tərəfindən işğal olunmasından 28 il ötən Xocavənd rayonunda dinc əhaliyə qarşı soyqırımı aktı həyata keçiriblər. İşğal nəticəsində rayonun azərbaycanlılar yaşayan 10 kəndində 1723 yaşayış ev dağıdılıb. Xocavəndlilərdən 145 nəfər şəhid olub, 300 nəfərdən çoxu sağlamlığını itirərək əlil olub, 243 uşaq valideynlərindən birini, 3 uşaq hər iki valideynini, 68 qadın həyat yoldaşını itirib.

Dörd ay mühasirədə qalan Qaradağlı kəndinə ermənilərin hücumu zamanı kənd tamamilə dağıdılıb, əhalisinə, günahsız uşaqlara, qadınlara və qocalara amansızcasına divan tutulub. 800-dən çox əhalisi olan bu qədim Azərbaycan kəndinin girov götürülən 118 sakinindən 80-ə yaxını xüsusi amansızlıqla qətlə yetirilib, 33 nəfər isə güllələnib. Ermənilər öldürülən və yaralı halda olan kənd sakinlərini bir yerdə təsərrüfat quyusuna tökərək üzərini torpaqlayıblar.

Böyük çətinliklərlə əsirlikdən azad olunan 50 kənd sakinindən 5-i qadın olmaqla 18 nəfər aldıqları sağalmaz yaralardan sonralar vəfat edib.

Əsirlikdə saxlanılanlara qarşı vəhşi, vandalizm hərəkətləri ilə davranılması, insanların başlarının kəsilməsi, diri-diri basdırılması, dişlərinin çəkilməsi, ac-susuz saxlanmaları, döyülərək öldürülmələri insanlığa qarşı törədilmiş cinayət hadisəsidir. Faciə nəticəsində iki ailənin hər birindən 4 nəfər, 6 ailənin hər birindən isə 2-3 nəfər öldürülüb. Bundan başqa, 43 ailə öz başçısını itirib, bir ailənin hər iki valideyni qətlə yetirilib, 146 uşaq yetim qalıb. Qaradağlı kəndində 91 nəfər - kənd sakinlərinin hər 10 nəfərindən biri qətlə yetirilib. Öldürülənlərdən 21-i ahıl və qoca, 10-u qadın, 8-i isə məktəbli olub.

### Tarixdə Xocalı müsibətinə bənzər hadisə yaşanmayıb

Xocalı dəhşətinə, müsibətinə bənzər hadisə isə tarixdə yaşanmayıb. Körpə uşaqlar amansızlıqla öldürülməyib, diri-diri yandırılmayıb... Hamilə qadının sinəsinə süngü sancılmayıb... Diri-diri insanların dərisi soyulmayıb... Ayağı güclə yer tutan ahıllara zor tətbiq edilməyib... Gənclərin əl-ayaqları bağlanaraq başları kəsilməyib...

Bütün bu insanlığa sığmayan vəhşilikləri ermənilər 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalıda törədiblər. Dəhşətli soyqırım nəticəsində 613 nəfər vəhşicəsinə öldürülüb. Onlardan 106-sı qadın və ahıl insan, 63-ü azyaşlı uşaqlar idi. 8 ailə bütövlükdə qətlə yetirilib, 487 nəfər yaralanıb, 150 nəfər itkin düşüb. 25 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirib. Qəddarlığın ən son həddi isə 1275 nəfər dinc sakinin - qocalar, uşaqlar, qadınların əsir götürülərək ağlasığmaz erməni zülmünə, təhqirlərə və həqarətlərə məruz qalmasıdır. 6 min əhalisi olan Xosalı şəhəri tamamilə yandırılıb, öldürülmüş meyitlərin üzərində ermənilər sərxoş halda toy-bayram ediblər. 56 nəfər erməni cinayətkarları tərəfindən xüsusi qəddarlıq və amansızlıqla qətlə yetirilib - diri-diri yandırılıb, torpağa basdırılıb, başları kəsilib, üzlərinin dərisi soyulub, körpə uşaqların gözləri çıxarılıb, süngüyə keçirilib, qadınların döşləri kəsilib, hamilələrin qarınları yarılıb, meyitləri təhqir olunub...

Ermənistandan soydaşlarımızı qovan, əzəli yurdumuz olan Dağlıq Qarabağ və ətraf yeddi rayonu işğal edən, Xocalı soyqırımını törədən, kəndlərimizi viran qoyan, 1 milyon insanın məcburi köşkün həyatı yaşamasına bais olan erməni qatilləri bu gün də əvvəlki xislətlərini davam etdirir, dinc əhalini, qadını, qocanı və günahsız uşaqları hədəf alıb onları öldürürlər.

### Məkrli erməninin hədəfi yenə də mülki əhalidir

Sentyabrın 27-dən etibarən hərbi təxribatlara başlayan işğalçı Ermənistanın faşist xislətli rejimi "ənənəsinə" sadiq qalaraq yenə də çirkin simasını göstərir, kəndlərimizi, dinc əhalini nişana almaqdan çəkinmir. Təcavüzkar Ermənistanın hərbi-siyasi rəhbərliyi beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq dinc əhaliyə qarşı terror əməllərini davam etdirir. Oktyabrın 1-nə qədər olan məlumata görə, Ermənistan silahlı qüvvələrinin qəsdən və hədəflənmiş şəkildə yaşayış məntəqələrini artilleriyadan atəşə tutması nəticəsində ikisi uşaq olmaqla, 19 nəfər mülki şəxs həlak olub, 55 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alaraq yaralanıb.

Şanlı Ordumuzla döyüş meydanında üz-üzə gəlməyə cürət etməyən düşmən Azərbaycan əhalisinin sıx yaşadığı yaşayış məntəqələrini, mülki obyektləri, fərdi və çoxmənzilli yaşayış binalarını, xəstəxanaları, tibb məntəqələrini, məktəb binalarını, uşaq bağçalarını, dövlət qurumlarının inzibati binalarını, təsərrüfat təyinatlı əraziləri ağır artilleriya qurğularından intensiv atəşə tutaraq dağıntı və yanğınlar törədir, dinc əhalinin, eləcə də dövlətin əmlakına ciddi ziyan yetirir.

İşğalçı ölkənin silahlı qüvvələrinin mülki infrastruktur obyektləri atəşə tutması nəticəsində 169 yaşayış evinə, həmçinin 40 mülki obyektə külli miqdarda ziyan vurulub, eləcə də dinc sakinlərə məxsus nəqliyyat vasitələri yararsız vəziyyətə düşüb, çoxsaylı xırda və iribuynuzlu heyvanlar tələf olub.

Ermənistan bu əməlləri ilə sivil dəyərlərdən kənar, mülki insanlara və azyaşlı uşaqlara qarşı xain hücumlar törədən terrorçu ölkə olduğunu növbəti dəfə sübut etdi. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Klinik Hospitalında müalicə olunan hərbçilərlə görüşü zamanı vurğulayıb ki, bu, erməni faşizminin eybəcər sifətini göstərir: "Biz mülki əhaliyə qarşı heç vaxt vuruşmamışıq. Əks-hücum əməliyyatı başlanan kimi mən bizim bütün komandanlara və Müdafiə Nazirliyinə göstəriş verdim ki, mülki əhaliyə qarşı heç bir addım atılmamalıdır. Bizim hədəflərimiz erməni silahlı birləşmələrinin mövqeləri, texnikası, canlı qüvvəsidir. Amma onlar bizim kəndlərimizi, şəhərlərimizi atəşə tuturlar..."

Dövlət başçısı Dağlıq Qarabağ ermənilərinə müraciətdə ordumuzun dinc əhali ilə ədavəti olmadığını dönə-dönə bildirib. Dünya da görür ki, Azərbaycan Ordusu dinc əhaliyə silah tuşlamır, bir güllə, mərmi belə atmır. Azərbaycan döyüşçüləri yad torpaqlarda deyil, öz qədim yurdunda, işğala son qoyulması, sülhün bərqərar olması uğrunda erməni terrorçularına qarşı savaşır. Artıq xalqın səbri tükənib. Ermənilərin illərlə xalqımıza qarşı törətdikləri bu qanlı cinayətlərin hesabının verilməsi zamanı çatıb. İndi haqq-ədalətin öz yerini tutacağı zamandır. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında şanlı Azərbaycan Ordusu 30 ildir həsrətində olduğumuz doğma torpaqlarımızı mənfur düşməndən azad edəcək, o yerlərdə ay-ulduzlu üçrəngli bayrağımızı dalğalandıracaq.

***Xəyalə Muradlı,***
***"Azərbaycan***

# Baş Prokurorluq: "Düşmənin dinc əhalini hədəfə alması nəticəsində 175 evə və 41 mülki obyektə külli miqdarda ziyan vurulub"

Təcavüzkar Ermənistanın hərbi-siyasi rəhbərliyi beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq dinc əhaliyə qarşı terror əməllərini davam etdirir.



Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, düşmənin silahlı qüvvələrinin dinc Azərbaycan əhalisinin sıx yaşadığı əraziləri növbəti dəfə ağır artilleriyadan atəşə tutması nəticəsində hazırkı vaxtadək ümumilikdə mülki əhalidən 55 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanalara yerləşdirilib, 19 nəfər isə həlak olub.

Bundan başqa, Ermənistan hərbi birləşmələri əhalinin kompakt olduğu məntəqələri - rayon və kənd mərkəzlərini, mülki infrastruktur obyektlərini - yaşayış evlərini, xəstəxanaları, tibb məntəqələrini, məktəb binalarını, uşaq bağçalarını, dövlət qurumlarının inzibati binalarını, təsərrüfat təyinatlı əraziləri ağır artilleriya qurğularından intensiv atəşə tutmaqda davam edir.

İşğalçı ölkənin silahlı qüvvələrinin mülki infrastruktur obyektləri atəşə tutması nəticəsində 175 evə, həmçinin 41 mülki obyektə külli miqdarda ziyan vurulub, eləcə də dinc sakinlərə məxsus nəqliyyat vasitələri yararsız vəziyyətə düşüb, çoxlu sayda xırda və iribuynuzlu heyvanlar tələf olub.

Hazırda prokurorluq əməkdaşları tərəfindən döyüş şəraitində mümkün olan bütün istintaq-əməliyyat tədbirləri həyata keçirilir.

Ordumuza və dinc əhaliyə qarşı cinayətlər törətmiş təxribatçı erməni birləşmələrinin hərbi qulluqçularının beynəlxalq hüquq normaları çərçivəsində məsuliyyətə cəlb edilmələri üçün Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən bütün zəruri tədbirlər görüləcək.

# Fövqəladə Hallar Nazirliyi düşmənin təxribatları ilə əlaqədar əhaliyə müraciət edib

Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi (FHN) döyüş meydanında ordumuz tərəfindən məğlubiyyətə uğradılan işğalçı Ermənistanın müxtəlif çirkin təxribatlara əl atması ilə bağlı bəyanat yayıb.

AZƏRTAC xəbər verir ki, bəyanatda qeyd olunub: "Döyüş meydanında ard-arda ciddi məğlubiyyətlərlə üzləşərək işğal etdikləri Azərbaycan torpaqlarını itirən Ermənistan tərəfi müxtəlif dezinformasiyalara əl ataraq ölkəmizin əhalisi arasında təşviş yaratmaqla vəziyyətdən mümkün qədər çıxmağa çalışır. Ermənilər cəbhəyanı bölgələrdə yaşayan vətəndaşlarımızın telefonlarına müxtəlif ölkə kodlu nömrələrdən Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin adından həqiqətə uyğun olmayan məlumatlar çatdıran zənglər edirlər. Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi qəti şəkildə bəyan edir ki, bu zənglər heç bir halda nazirlik tərəfindən edilməyib və belə müraciətlər tərəfimizdən yayılmayıb. Bu, erməni təbliğat aparatının növbəti çirkin və uğursuz əməlidir. Odur ki, vətəndaşlarımıza bir daha müraciət edərək belə zənglərə və ya çağırışlara heç bir halda inanmamağa, yalnız rəsmi dövlət qurumlarımızın məlumatlarına etibar etməyə çağırırıq. Əmin edirik ki, aidiyyəti dövlət qurumları, o cümlədən Fövqəladə Hallar Nazirliyi əhalinin təhlükəsizliyinin təmin edilməsi üçün bütün lazımi tədbirləri görür. Oxşar zəng və ya məlumatlarla rastlaşdıqda Fövqəladə Hallar Nazirliyinin 112 - qaynar xəttinə müraciət edilməsi xahiş olunur".

# Tərtərdə onlarca ev, ticarət və iaşə obyektləri dağıdılıb



Ermənistan silahlı qüvvələri Tərtərdə rayon mərkəzini, qəsəbə və kəndləri, mülki infrastruktur obyektlərini ağır artilleriya qurğularından intensiv atəşə tutmaqda davam edir.

AZƏRTAC xəbər verir ki, oktyabrın 1-də düşmənin artilleriya atəşi nəticəsində Tərtər şəhərində, rayonun Şıxarx qəsəbəsində, məcburi köçkünlər üçün salınan yaşayış kompleksində, Yuxarı Qapanlı, Əskipara, Seydimli kəndlərində evlərə ciddi ziyan dəyib.

Həmçinin infrastruktura, kənd təsərrüfatı texnikalarına ziyan dəyib, mal-qara tələf olub.

# Ağdamda məcburi köçkün qəsəbəsi artilleriya atəşinə tutulub

Ermənistan silahlı qüvvələri Azərbaycan əhalisinin sıx yaşadığı yaşayış məntəqələrini, mülki obyektləri, o cümlədən fərdi və çoxmənzilli yaşayış binalarını, təsərrüfatları ağır artilleriya qurğularından atəşə tutmağa davam edir.



Erməni hərbçilərinin müharibə cinayətləri nəticəsində mülki obyektlərə, dinc əhalinin əmlakına külli miqdarda ziyan vurulur.

AZƏRTAC xəbər verir ki, düşmənin növbəti hədəfi məcburi köçkünlər üçün salınmış Ağdamın Birinci Alıbəyli qəsəbəsi olub. Oktyabrın 1-dən 2-nə keçən gecə qəsəbə ərazisinə 6 mərmi düşüb. Nəticədə qəsəbədə bir nəfər əlindən yaralanıb, məcburi köçkünlərin yaşadığı bir ev dağılıb, mal-qaraya, kənd təsərrüfatı texnikasına, qəssabxanaya ziyan dəyib.

Qəsəbə sakini Sarı Allahverdiyev: "Gecə evimizdə yatmışdıq. Güclü partlayış səsinə ayıldıq. Gördük evin içi uçub tökülüb. Mərmi digər otağa düşüb. Xoşbəxtlikdən sağ qalmışıq. Düşmən yaşayış məntəqələrini məqsədli şəkildə atəşə tutur. Ancaq bununla heç nəyə nail ola bilməyəcək. Ordumuz erməni işğalçılarını torpaqlarımızdan birdəfəlik qovub çıxaracaq".

Sakin Eyvaz Hüseynov: "Gecə idi. Ailə üzvlərim evdə olub. Mən isə evə gəlirdim. Darvazanın yanına çatanda şiddətli partlayış oldu. Yerə yıxıldım. Baxdım ki, əlimdən qan axır. Evə qaçdım, şükür Allaha ki, ailə üzvlərimizə heç nə olmayıb".

Sakin Ədalət Mirzəyev: "Gecə qəsəbəyə atılan mərmilərdən biri də bizim evin yaxınlığında partlayıb. Mən özüm müharibə veteranıyam. Silah-sursatı yaxşı tanıyıram. Qəlpələrdən və mərmi düşən yerdəki izlərdən məlum olur ki, düşmən "Qrad" yaylım atəşli reaktiv sistemindən atəş açıb. Qəlpələrdən biri də traktoru zədələyib. Qardaşım da ordudadır. Mən də könüllü olaraq döyüşə getmək üçün müraciət etmişəm. Növbəm çatan kimi cəbhəyə yollanacağam. İnşallah qələbə bizim olacaq".







# Beynəlxalq ictimaiyyət Azərbaycanın haqlı mübarizəsini müdafiə edir

## *Alman politoloq: "Ermənistan PKK silahlılarını Dağlıq Qarabağa gətirib"*


der Freitag
Die Wochenzeitung
PKK-Söldnerkämpfer im Bergkarabach-Konflikt
PKK im Südkaukasus Die alarmierenden Berichte, dass Armenien Terroristen der Kurdistan-Arbeitsgruppe (PKK) aus Syrien und dem Irak in die besetzten Gebiete von Bergkarabach verlegt hat.
Mark Lambsdorff | Community
Die Veränderung der Demographie der besetzten Gebiete durch die Aufnahme von Flüchtlingen armenischer Herkunft aus dem Libanon, Syrien und Irak ist eine Sache, auch wenn sie ungesetzlich ist, aber Bergkarabach mit PKK-Kämpfern zu bevölkern, die von allen westlichen Ländern, einschließlich der USA und der EU, als terroristische Organisation eingestuft werden, ist eine andere.

Almaniyanın nüfuzlu "freitag.de" informasiya-analitik portalında məşhur siyasi icmalçı Mark Lambsdorfun "PKK silahlıları Dağlıq Qarabağ münaqişəsində" sərlövhəli məqaləsi dərc edilib **(https://www.freitag.de/autoren/mlambsdorff/pkk-soeldnerkaempfer-im-bergkarabach-konflikt).**

AZƏRTAC xəbər verir ki, məqalədə son günlər Ermənistan tərəfindən Suriya və İraqdan Kürd İşçi Partiyasının (PKK) terrorçularının Azərbaycanın işğal edilmiş ərazilərinə, o cümlədən Dağlıq Qarabağ regionuna gətirilməsi barədə həyəcanlı xəbərlər alınmasından bəhs edilir.

Livandan, Suriya və İraqdan olan erməni mənşəli köçkünlərin işğal edilmiş torpaqlarda qeyri-qanuni məskunlaşdırılması yolu ilə demoqrafik mənzərənin süni şəkildə dəyişdirilməsi bir məsələdirsə, ABŞ və Avropa İttifaqının üzvü olan dövlətlərin demək olar ki, hamısı tərəfindən terror təşkilatı kimi tanınmış təşkilatın silahlılarının həmin əraziyə gətirilməsi tamam başqa məsələdir.

Müəllif yazır ki, Yerevanın Yaxın Şərqdən olan etnik ermənilərin işğal edilmiş ərazilərdə məskunlaşdırılması siyasəti Azərbaycan torpaqlarının ermənilər tərəfindən 30 ilə yaxın müddətdə işğalının sabitləşdirilməsinə və bu regionda demoqrafiyanın süni şəkildə dəyişdirilməsinə yönəlib. Bu, Lambsdorfun fikrincə, beynəlxalq humanitar hüququn, o cümlədən 1949-cu il Cenevrə Konvensiyalarının pozulması deməkdir. Terrorçu muzdluların buraya gəlməsi həmin insanları hərbi canilərə çevirir və 1949-cu il Cenevrə konvensiyalarında nəzərdə tutulan təhlükəsizliyə zəmanətlər onlara şamil edilmir.

Müəllifin "Cairo-24" informasiya agentliyinə və digər mötəbər mənbələrə istinadla yazdığı kimi, Ermənistan o qədər həyasızlaşıb ki, onun yüksəkvəzifəli diplomatları terrorçuların gətirilməsi planını kürd isteblişmentinin ən döyüşkən cinahı olan Kürdüstan Vətənpərvərlər İttifaqının liderləri Lahur Şeyx Cəngi Tələbani və Bafel Tələbani ilə razılaşdırırlar. Bundan əvvəl Ermənistan kürd silahlılarını Dağlıq Qarabağa göndərmək üçün dəhliz yaratmaq məqsədilə İraqdakı Kürdüstan Muxtar regionunun lideri Neçirvan Bərzani ilə əlaqə yaratmağa cəhd göstərib, lakin onun bu niyyəti baş tutmayıb.

Əldə olan məlumata görə, Ermənistan PKK-nın İraqdakı dayaq nöqtəsi olan Süleymaniyyə şəhərindən yüzlərlə silahlı terrorçunun işğal edilmiş Dağlıq Qarabağ regionuna göndərilməsini təmin edə bilib. PKK-nın Suriya cinahı hesab edilən YPG qrupunun silahlıları Suriyanın Qamışlı regionundan Dağlıq Qarabağa göndərilib, İraqın Ərbil şəhərinin cənubunda yerləşən Məxmur bazasında dislokasiya edilmiş PKK/YPG qrupu isə əvvəlcə Hizbullahın Bağdaddakı qərargahına aparılıb, sonra isə oradan Dağlıq Qarabağa gətirilib.

Mark Lambsdorf əmindir ki, Ermənistanın şübhəli məsələləri həll etmək üçün terrorçuları cəlb etməsi birinci dəfə deyil. 1990-cı illərdə Dağlıq Qarabağda müharibə dövründə də belə olub. Ermənistan kürdlərdən hələ sovet dövründə istifadə edirdi. Ermənistanın indiki hökuməti isə, Azərbaycana münasibətdə özünü daha təcavüzkar aparır və daxili siyasi mülahizələri (pandemiyaya qarşı mübarizədəki uğursuzluq, iqtisadi böhran) əsas götürərək danışıqlar prosesini pozur.

Ermənistanın indiki hökuməti ATƏT-in Minsk qrupunun Madrid prinsipləri adlanan və tərəflər arasında razılaşdırılmış çərçivə sazişinə etinasızlıq nümayiş etdirib və üstəlik, sülh danışıqlarının formatına yenidən baxmağa çağırıb. Ermənilər getdikcə daha çox hallarda öz uşaqlarını cəbhəyə göndərməkdən imtina etdiklərinə görə Ermənistan hökuməti terror qruplarından silahlıları cəlb etməklə cəmiyyətdə itkiləri minimuma endirmək niyyətindədir. Baş nazir Nikol Paşinyan hətta öz ölkəsində dünyanın digər qaynar nöqtələrindəki silahlılardan ibarət könüllü xalq dəstələri yaratmaq təşəbbüsünü irəli sürüb.

Müəllif yazır ki, bu il iyul ayında Nikol Paşinyan rəhbərliyi ilə baş vermiş döyüş əməliyyatları zamanı Ermənistan silahlı qüvvələri iki ölkə arasındakı sərhəddə Azərbaycanın Tovuz rayonuna hücum ediblər. Bu hücum nəticəsində 12 azərbaycanlı, o cümlədən bir nəfər 75 yaşlı dinc sakin həlak olub, sərhədyanı kəndlərin sakinləri yaralanıb, fermalara ciddi ziyan vurulub. Sentyabrın 21-də Ermənistan atəşkəs rejimini yenidən pozandan sonra Tovuz rayonunda 1 Azərbaycan əsgəri yeni toqquşmaların qurbanı olub.

Mark Lambsdorf xatırladır ki, Azərbaycanın BMT tərəfindən tanınmış ərazisi olan Dağlıq Qarabağ və ona bitişik 7 rayon 30 ilə yaxındır Ermənistan tərəfindən işğal altındadır. Hərçənd, BMT-nin dörd qətnaməsi Ermənistan silahlı qüvvələrinin işğal edilmiş bu regiondan dərhal çıxarılmasına çağırılır. Ekspert xəbərdarlıq edir ki, Dağlıq Qarabağda hərbləşmənin genişlənməsi və Yaxın Şərqdən muzdluların buraya gətirilməsi münaqişənin beynəlxalq miqyas alması ilə nəticələnə bilər.

Ermənistanın təhlükəli addımları bütün Avropa üçün strateji əhəmiyyət kəsb edən regionda sabitliyin daha da pozulması riski deməkdir. Azərbaycan Avropanın enerji təhlükəsizliyini təmin edən əsas ölkədir. Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri və Bakı-Tbilisi-Qars dəmir yolu münaqişə zonasının lap yaxınlığından keçir.

Mark Lambsdorf məqaləsinin sonunda qeyd edir ki, Ermənistanın məsuliyyətsiz hərəkətləri Avropanın enerji və nəqliyyat təhlükəsizliyinə təhdid yarada bilər.

## *Dünyanın bir sıra aparıcı media qurumları Ermənistanın hərbi təxribatları barədə məlumatlar yayıb*




"BBC World Radio"nun "Newsday" proqramında Azərbaycanın ABŞ-dakı səfiri Elin Süleymanovun müsahibəsi yayılıb. Səfir Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərindən öz qoşunlarını BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq geri çəkməli olduğunu, regionda davamlı sülhün yalnız Ermənistanın işğala son qoymasından sonra mümkünlüyünü diqqətə çatdırıb. O, ərazisinin 20 faizi işğal edilmiş Azərbaycanda Ermənistan tərəfindən etnik təmizləmə siyasətinin həyata keçirildiyini bildirib.

Səfir jurnalistin erməni tərəfinin mülki şəxslərinin həlak olması ilə bağlı sualına cavab olaraq bildirib ki, təmas xəttinin Ermənistan tərəfinin nəzarətində olan hissəsi əslində işğal edilmiş və daha öncə ermənilərin məskunlaşmadığı ərazidir, burada demək olar ki, mülki əhali yoxdur və daha çox hərbi hissələr üstünlük təşkil edir. Əksinə, təmas xəttinin sıx məskunlaşmış Azərbaycan tərəfi isə mütəmadi olaraq Ermənistan ordusunun atəşinə tuş gəlir. Səfir son təxribatlar zamanı Azərbaycanın 14-dən çox mülki şəxsinin qətlə yetirildiyini, 40-dan çox yaralının olduğunu bildirib. O, bu təxribatların məhz Ermənistan tərəfindən Azərbaycanın beynəlxalq suveren ərazilərində həyata keçirildiyinə diqqət çəkib.

Azərbaycanın xarici ölkələrdən, xüsusilə də Türkiyədən hərbi kömək alması, guya Ermənistana məxsus təyyarənin Türkiyəyə məxsus F-16 təyyarəsi tərəfindən vurulması, Suriyadan gələn döyüşçülərin muzdla orduya cəlb edilməsi ilə bağlı iddialara cavab olaraq səfir bildirib ki, Azərbaycanda F-16 təyyarələri yoxdur, Türkiyə isə ümumiyyətlə hərbi münaqişəyə cəlb olunmayıb və ölkəmizə hər zaman diplomatik dəstək verib. Ermənistan təyyarəsinin vurulması ilə bağlı xəbər uydurmadır və müasir texnologiya vasitəsilə bunu sübut etmək olduqca asandır. Suriyalı döyüşçülərlə bağlı şayiələr də qətiyyən həqiqəti əks etdirmir.

Tərəflərin danışıqlar masasına geri dönməsi ilə bağlı suala cavab verən səfir bildirib ki, 20 ilə yaxındır Ermənistan və Azərbaycan ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə danışıqlarda iştirak edir, lakin bu danışıqlar bir nəticə verməyib. Xüsusən son illərdə bunun əsas səbəbi Ermənistanın sülhə qarşı çıxması və Azərbaycan tərəfinin substantiv danışıqlarla bağlı çağırışlarına məhəl qoymaması olub.

Müsahibənin tam versiyası ilə **https://www.bbc.co.uk/sounds/play/w172x2wfz7kx1ml** səhifəsindən tanış olmaq mümkündür.

Həmçinin nüfuzlu "Newsweek" mətbu orqanına müsahibəsində səfir Süleymanov bildirib ki, danışıqlar üzrə vasitəçiliyi həyata keçirən Minsk qrupunun həmsədri qismində ABŞ beynəlxalq hüquqa uyğun olaraq, Ermənistan hərbi qüvvələrinin işğal olunmuş ərazilərdən çıxarılmasında dayanıqlı mövqe göstərməlidir. Çünki işğalçı qüvvələrin çıxarılması yalnız Azərbaycan üçün deyil, Ermənistanın özünə də fayda gətirəcək, onun və regionun dinc gələcəyini təmin edəcək. İşğalçı qüvvələr geri çəkilməzsə, atəşkəs dayanıqlı olmayacaq. Müsahibənin tam versiyası ilə **https://www.newsweek.com/exclusive-armenia-azerbaijan-speak-out-want-us-1535699?fbclid=IwAR32p79EM2ik3ZU2q8sCMPbWV1Qj72ADdgC7ryaCXv2R-9GrXAMplf8-Qg4** səhifəsindən tanış olmaq mümkündür.

Bundan əlavə, ABŞ-ın populyar Con Batçelor Şou proqramına müsahibəsində Elin Süleymanov Ermənistan tərəfindən hərbi təxribatların davam etməsinə, mülki şəxslərin məskunlaşdığı ərazilərin atəşə tutulması nəticəsində ölən və yaralananların olmasına diqqət çəkib. O, bütün əməliyyatların Azərbaycanın beynəlxalq tanınmış sərhədləri daxilində baş verdiyini vurğulayıb və Azərbaycan Prezidentinin "Bizim Ermənistan ərazisində heç bir hərbi məqsədimiz yoxdur" sitatını xatırladıb. Səfir dünya mətbuatında münaqişə barədə yayılan saxta məlumatlara toxunaraq, bu cür halların yolverilməzliyindən bəhs edib. Müsahibənin tam versiyası ilə **https://audioboom.com/posts/7695340-imminent-threat-of-a-wider-war-in-the-south-caucasus-as-the-nagorno-karabakh-combat-escalates-to** səhifəsindən tanış olmaq mümkündür.

## *Erməni təxribatlarına dair məlumatların geniş ictimaiyyətə çatdırılması üçün İsveçrə şəhərlərində tədbirlər keçirilib*



Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün qınanılması, təxribatlarla bağlı məlumatların daha geniş kütləyə çatdırılması istiqamətində Azərbaycanın İsveçrədəki səfirliyinin təşkilatçılığı, "Azərbaycan-Türk Mədəniyyət Assosiasiyası", "Azərbaycan Dostları Birliyi" və İsveçrə Azərbaycanlılarının Koordinasiya Şurasının dəstəyi ilə Soloturn və Sürix şəhərlərində tədbirlər təşkil edilib.

AZƏRTAC xəbər verir ki, Soloturn şəhərində baş tutan tədbirdə əvvəlcə səfirliyin diaspor nümayəndələrimiz üçün çağırışı səslənib. Çağırışda Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin beynəlxalq ictimaiyyət tərəfindən tanınması qeyd edilərək 30 ildir ki, aparılan danışıqlara Ermənistan tərəfindən ciddi zərbə vurulması diqqətə çatdırılıb, hazırda öz torpaqlarımızın işğaldan azad edilməsi istiqamətində ermənilərin təxribatına cavab olaraq döyüşlərin aparıldığı qeyd olunub. Bundan əlavə, bildirilib ki, indiki məqamda dünya azərbaycanlıları Ermənistan dövlətinin işğalçı siyasətinin ifşa edilməsi, erməni lobbisinin yalanlara söykənən fəaliyyətinin qarşısının alınması istiqamətində yaşadıqları ölkələrdə ciddi və məqsədyönlü işlər aparmalıdırlar.

Tədbirdə İsveçrə Azərbaycanlılarının Koordinasiya Şurasının rəhbəri Əkbər Gəncə, "Azərbaycan-Türk Mədəniyyət Assosiasiyası"nın rəhbəri Cevzet Aras, eləcə də türk diaspor nümayəndələri çıxış edərək Qarabağın əzəli və tarixi Azərbaycan torpağı olduğunu qeyd edib, tədbir iştirakçılarına ermənilər tərəfindən azərbaycanlılara qarşı həyata keçirilmiş soyqırımları barədə ətraflı məlumat verib, Ermənistanın xain hücumunu pisləyib və səfirin çağırışına uyğun olaraq İsveçrədəki həm Azərbaycan, həm də Türkiyə diaspor nümayəndələrinin fəal olmalarının vacibliyinə toxunublar. Eyni zamanda çıxışlarda Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev başda olmaqla xalqımıza dəstək nümayiş olunub, ordumuzun tezliklə qələbə qazanacağına əminlik ifadə edilib.

Tədbirin sonunda türk məscidinin axundu döyüşlər vaxtı şəhid olan soydaşlarımızın ruhuna dualar oxuyub və iştirakçılar üçün ehsan süfrəsi təşkil edilib.

İsveçrə Konfederasiyasında yaşayan diaspor nümayəndələrimizin növbəti tədbiri Azərbaycan Dostları Birliyinin təşkilatçılığı ilə diasporumuzun sıx məskunlaşdığı şəhərlərdən biri olan Sürixdə baş tutub. Tədbir zamanı Arzu Bodmer də səfirliyin diaspor nümayəndələrimiz üçün çağırışını səsləndirib. Daha sonra cəbhə xəttindəki vəziyyət müzakirə edilib, hadisələrin İsveçrə dövlət qurumlarının diqqətinə çatdırılmasının vacibliyi, petisiyanın hazırlanması, diasporun bu çətin zamanda fəaliyyətinin və birliyinin önəmi və digər məsələlər müzakirə edilib.

Qeyd edək ki, İsveçrədə türk diasporunun sayının çox olması nəzərə alınaraq geniş oxucu kütləsinə malik "Post Gazetesi"ndə səfir X.İbrahimovanın həmrəyliklə bağlı məqaləsi dərc olunub və münaqişə barədə geniş məlumat verilib.

## *İtaliya ictimaiyyəti Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü barədə məlumatlandırılıb*




Azərbaycanın İtaliyadakı səfiri Məmməd Əhmədzadə bu ölkənin aparıcı "Adnkronos" xəbər agentliyinə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü ilə bağlı müsahibə verib.

AZƏRTAC xəbər verir ki, diplomat müsahibədə hazırkı toqquşmaların dayandırılmasının yeganə yolunun Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən təcili və qeyd-şərtsiz çıxarılması və Azərbaycanın ərazi bütövlüyünün təmin olunması olduğunu və başqa həll yolunun olmadığını bildirib.

M.Əhmədzadə xatırladıb ki, Azərbaycan 3 gün deyil, 30 ildir ki, müharibədədir və Ermənistanın siyasi, hərbi rəhbərliyi hazırkı vəziyyətə görə tam məsuliyyət daşıyır. Rəsmi Bakının yeganə məqsədi var: öz ərazi bütövlüyünü və beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində öz suveren ərazisində təhlükəsizliyini təmin etmək. Çünki Ermənistan qoşunlarının Azərbaycan ərazilərində mövcudluğu bizim suverenliyimizə, eləcə də bütöv regionun sabitliyinə təhdiddir.

M.Əhmədzadə qeyd edib ki, hazırkı toqquşmaların səbəbi 30 ildən artıqdır Dağlıq Qarabağ regionu və ətraf yeddi rayon da daxil olmaqla Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin 20 faizinin Ermənistanın işğalı altında olmasıdır. Bu ərazilərdə Ermənistan bütün azərbaycanlılara qarşı etnik təmizləmə həyata keçirib və bir milyondan artıq vətəndaşımız öz doğma torpaqlarından zorla qovularaq qaçqın və məcburi köçkünə çevrilib və onların öz evlərinə qayıtmaq, hətta öz ailə üzvlərinin qəbirlərini ziyarət etmək hüququ pozulub. Ermənistan, həmçinin mülki azərbaycanlılara qarşı çoxsaylı müharibə cinayətləri, xüsusilə 1992-ci ildə Xocalı soyqırımını törətməkdə günahkardır.

Diplomat qeyd edib ki, bazar günü baş verənlər Ermənistanın son aylar həyata keçirdiyi təxribatların davamıdır. Bu təxribatlar sırasında 12-16 iyul tarixlərində Ermənistanın Azərbaycanın Tovuz rayonu istiqamətində hücum etmək cəhdi, - bu ərazi Azərbaycanın karbohidrogen resurslarının Avropa bazarlarına, xüsusilə İtaliyaya nəql olunması üçün strateji əhəmiyyət daşıyır, - sonra 23 avqust tarixində Azərbaycanın Goranboy rayonu istiqamətində sabotaj-kəşfiyyat xarakterli təxribat, eləcə də Livandan gələn ermənilərin Azərbaycanın işğal olunmuş ərazilərinə yerləşdirilməsi siyasəti və baş nazir Nikol Paşinyanın inqilabi diktaturasının öz xalqının diqqətini ölkədəki daxili acınacaqlı vəziyyətdən və qeyri-real vədləri yerinə yetirə bilməməsindən yayındırmaq, Azərbaycanın yeni ərazilərini işğal etmək məqsədi kimi təxribatçı bəyanatlarını və fəaliyyətini qeyd etmək olar.

M.Əhmədzadə toqquşmalardan əvvəl Azərbaycanın bəyan etdiyi və bu döyüşlərdə təsdiq olunduğu kimi, işğal edilmiş ərazilərində Ermənistan tərəfindən Suriya və Livandan olan şəxslərin muzdlular kimi istifadə edilməsi məqsədilə yerləşdirildiklərini də bildirib.

Müsahibə ilə aşağıdakı keçid vasitəsilə tanış olmaq olar:

**https://www.adnkronos.com/fatti/esteri/2020/10/01/nagorno-ambasciatore-armeno-stop-scontri-con-ritiro-immediato-erevan_BpTtwXi9ZvipmeAg16eMPL.html**

## *Azərbaycan səfiri İspaniyanın tanınmış beyin mərkəzinə Ermənistanın hərbi təxribatları ilə bağlı müsahibə verib*



Geosiyasət, beynəlxalq münasibətlər və təhlükəsizlik sahəsində İspaniyanın tanınmış araşdırmalar institutlarından biri sayılan "Quijote Globe" beyin mərkəzi Azərbaycan Respublikasının İspaniya Krallığındakı səfiri Anar Məhərrəmovdan müsahibə alıb.

AZƏRTAC xəbər verir ki, müsahibə zamanı "Quijote Globe" beyin mərkəzinin baş redaktoru Nunyo Rodriges səfir A.Məhərrəmova Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tarixi, Ermənistanın ölkəmizə qarşı təcavüzkar siyasəti, o cümlədən son həftə ərzində Ermənistanın təxribatyönümlü addımlarına Azərbaycanın münasibəti, habelə bu məsələyə beynəlxalq ictimaiyyətin mövqeyi barədə suallar ünvanlayıb.

Sualları cavablandıran səfir əvvəlcə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tarixi barədə məlumat verərək, Qarabağ ərazisinin tarixi Azərbaycan torpağı olduğunu, ermənilərin bu əraziyə XIX əsrin birinci yarısından etibarən köçürüldüyünü qeyd edib.

A.Məhərrəmov Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin reallıqlarından bəhs edərək, Ermənistan tərəfindən Azərbaycan torpaqlarının 20 faizinin işğal olunduğunu, azərbaycanlı əhaliyə qarşı soyqırımı və etnik təmizləmə siyasətinin həyata keçirildiyini, 1 milyondan çox soydaşımızın qaçqın və məcburi köçkünə çevrildiyini diqqətə çatdırıb.

Qeyd olunub ki, 2020-ci ilin 12 iyul tarixindən etibarən Ermənistan silahlı qüvvələri ağır artilleriyadan istifadə edərək Ermənistan-Azərbaycan sərhədində yerləşən Azərbaycanın Tovuz rayonu istiqamətində Azərbaycan dövlət sərhədinin pozulmasına cəhd edərək Azərbaycana qarşı təcavüz aktı törətmişdir. Hərbi təxribatı həyata keçirməkdə Ermənistanın niyyətlərindən biri də iki ölkənin sərhədində yeni münaqişə ocağı yaratmaqla Avropa İttifaqının enerji təhlükəsizliyinin təmin edilməsində əhəmiyyətli rola malik olan Azərbaycan ərazisindən keçən enerji kəmərlərini, o cümlədən nəqliyyat və kommunikasiya xətlərini təhlükə altına salmağa cəhd etmək olmuşdur.

Cari ilin 27 sentyabr tarixində Ermənistan silahlı qüvvələrinin atəşkəs rejimini kobud şəkildə pozaraq təmas xətti boyunca Azərbaycan Respublikasının mövqelərini, habelə təmas xəttinin yaxınlığında yerləşən kəndləri iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından atəşə tutaraq Azərbaycana qarşı növbəti təcavüzə əl atıb. Hərbi təxribat zamanı mülki əhali məqsədli şəkildə hədəf seçilmiş, 1 oktyabr tarixinə olan məlumata əsasən, 19 dinc sakin həyatını itirmiş, 55 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanalara yerləşdirilmiş, bir sıra yaşayış və inzibati binalar güclü dağıntılara məruz qalmışdır.

Bildirilib ki, Azərbaycan Respublikasının Silahlı Qüvvələri Ermənistanın növbəti hərbi təcavüzünün qarşısını almaq və təmas xətti boyunca sıx şəkildə yaşayan mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə özünümüdafiə hüququ çərçivəsində və beynəlxalq humanitar hüquqa tam riayət etməklə əks-hücum və cavab tədbirlərini həyata keçirirlər.

Azərbaycan Ordusunun öz xalqının və torpaqlarının müdafiəsini təmin etmək üçün kifayət qədər hazırlıqlı və güclü olduğu diqqətə çatdırılaraq, xalqımızın böyük ruh yüksəkliyi ilə Azərbaycan Silahlı Qüvvələrini dəstəklədiyi, soydaşlarımızın könüllü olaraq ordu sıralarına qatılmaq üçün müraciətlərinin anbaan artdığı qeyd olunub.

Xüsusi olaraq vurğulanıb ki, Ermənistan tərəfinin Azərbaycana qarşı növbəti təcavüzü beynəlxalq hüququn ümumtanınmış prinsip və normalarının, Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən tam, dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının 1993-cü il tarixli 822, 853, 874 və 884 saylı qətnamələrinin, beynəlxalq humanitar hüququn, o cümlədən 1949-cu il Cenevrə Konvensiyaları və onlara əlavə protokolların kobud şəkildə pozulması deməkdir.

Bildirilib ki, Ermənistan tərəfinin hərbi təxribatının əsas məqsədi regionda gərginlik yaratmaq, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi üzrə danışıqlar prosesini pozmaq, habelə Azərbaycan ərazilərinin işğalı ilə bağlı mövcud status-kvonu saxlamaqdır.

Səfir A.Məhərrəmov Ermənistanın bu təxribatının dünyanın bir sıra ölkələri, o cümlədən beynəlxalq və regional təşkilatlar tərəfindən kəskin şəkildə qınandığını diqqətə çatdıraraq, bu baxımdan İspaniya Krallığının hər zaman Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə dəstək ifadə etdiyini, Azərbaycanın haqlı mövqeyini dəstəklədiyini qeyd edib. Azərbaycan torpaqlarının Ermənistan silahlı qüvvələrinin işğalından tam şəkildə azad edilməsindən sonra regionda sülh və sabitliyin bərqərar olunacağı diqqətə çatdırılıb.

Sonda "Quijote Globe" beyin mərkəzinin baş redaktoru Nunyo Rodriges səfir Anar Məhərrəmova Ermənistanın ölkəmizə qarşı hərbi təxribatı ilə bağlı dolğun, ətraflı və həqiqətləri əks etdirən məlumatların "Quijote Globe" vasitəsilə ispandilli kütləyə çatdırdığına görə minnətdarlığını bildirib.

## *ABŞ-dakı erməni lobbisi Azərbaycan səfirinin Konqresin üzvlərinə göndərdiyi məktubdan narahatdır*

ABŞ-da radikal erməni təşkilatlarından olan Amerikanın Erməni Milli Komitəsi (ANCA) Azərbaycan Respublikasının bu ölkədəki səfiri Elin Süleymanov tərəfindən ABŞ Konqresinin üzvlərinə göndərilmiş məktubdan narahatlığını bildirib.

ANCA əldə etdiyi məktubu öz "Twitter" hesabında ictimailəşdirib və Azərbaycan səfirliyi tərəfindən Konqresin diqqətinə çatdırılan fikirlərlə bağlı absurd şərh verib. **(https://twitter.com/ANCA_DC/status/1311728026833559558).**

Azərbaycan səfirinin məktubunda guya "Türkiyənin Azərbaycan tərəfdə döyüşlərdə iştirak etdiyi" və "Azərbaycana muzdlular göndərdiyi" barədə son zamanlar yayılan əsassız iddialar bir daha rədd edilir, Ermənistanın təcavüzkar siyasəti və hərəkəti ifşa olunur. Konqres tərəfindən Ermənistana təzyiqlər göstərilməsi məktubda öz əksini tapıb.

Digər erməni təşkilatlarından olan Amerikanın Erməni Assambleyası (AAA) da Senatorlar Marko Rubio, Ceyms Riş, Rob Portman və Ron Conson tərəfindən Ermənistanın son təcavüzü ilə bağlı verdiyi son bəyanatdan narazılığını diqqətə çatdırıb və "Twitter" vasitəsilə senatorları tənqid edib. (**https://twitter.com/ARAMAC_DC/status/1311731099274444800**).

Maraqlıdır ki, səfirin məktubunu yaymaqla erməni lobbisi faktiki olaraq Azərbaycanın mövqeyini təbliğ edir.

# Qarabağda ədaləti bərpa etmək tarixi missiyadır

## Azərbaycan öz torpaqlarını havadarlarının kimliyindən asılı olmayaraq, işğalçı ermənilərdən azad edəcək



**"Tovuz təxribatı törədildi. Ermənistan layiqli cavabını aldı, bu gün isə cəzasını çəkir. Təxribatın törədilməsində regionda birbaşa marağı etiraf olunan üçüncü ölkə - Rusiyanın iştirakı məsələsi gündəmə gəldi. Ancaq heç kəs düşünmədi ki, bu təxribatın arxasında Fransa dayanır və onun bu ssenarisi, həm də dolayısı ilə Rusiyanın özünün əleyhinə yönəlib".**

AZƏRTAC xəbər verir ki, bu sözlər YAP-ın Mətbuat Xidmətinin rəhbəri, Əməkdar jurnalist Hüseyn Paşayevin məqaləsində yer alıb. Müəllif fikirlərini davam etdirərək yazır:

- Hələ iyul hadisələrinin qızğın müzakirə olunduğu bir vaxtda belə iddianı irəli sürənlər bu barədə regionda marağı olan ölkələrin kəşfiyyat orqanlarında təkzibolunmaz faktların mövcudluğunu önə çəkirdilər. Məqsəd Ermənistan tərəfindən torpaqlarımızın işğalını tam dayanıqlı etmək, iqtisadi-siyasi, geostrateji əhəmiyyətini sadalamağa ehtiyac duyulmayan enerji xətlərinin vurulması ilə Azərbaycan, həm də Türkiyəyə ağır zərbələr endirilməsi, Qarabağ ətrafında region ölkələrinin qarşıdurmasını yaratmaqla, həm düşmən saydığı Türkiyəni, həm də Avropanın başağrısına çevrilmiş Rusiyanı taqətdən salmaq, eyni zamanda Ankara-Moskva müttəfiqliyini parçalamaq idi.

İyul təxribatı baş tutmadı. Azərbaycanın işğal altında olan torpaqlarına aylardır Livan, Suriya ermənilərinin, muzdlu PKK tör-töküntülərinin daşınması və Yerevanın müharibə hazırlıqları barədə ən yüksək səviyyələrdə həyəcan siqnalı çalınır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu barədə bütün diplomatik kanallar vasitəsilə xəbərdarlıq etmiş, ən ali tribunadan - BMT Baş Assambleyasının sammitində də dünya ictimaiyyətini məlumatlandırmışdı. Bu qədər terrorçunun işğal altındakı torpaqlarımıza daşınması, onların saxlanması xərci, Kim Kardaşyan kimilərin xidməti müqabilində tələb olunan iri məbləğləri acından ölən Ermənistanın ödəməsi təbii ki, mümkünsüzdür. Maliyyənin erməni lobbisi təşkilatlarının əli ilə ATƏT-in Minsk qrupunun həmsədr ölkəsi - Fransa tərəfindən ödənilməsi barədə iddialar Prezident Makronun canfəşanlığı fonunda həqiqət payını daha da artırdı.

Sülh prosesini tənzimləməli olan ATƏT-in Minsk qrupunun həmsədr ölkəsi Fransa bu gün Yerevandan daha çox hay-həşirdədir. Öz doğma, müqəddəs torpaqlarını azad etmək iradəsini ortaya qoyan Azərbaycanı terrorçularla işbirliyində suçlamağa cəhd edən Fransa bu işdə Türkiyənin də vasitəçiliyi barədə dəlilsiz, sübutsuz bəyanatlar səsləndirir. Məqsədləri hər kəsə bəllidir.

Afrikanın ucsuz-bucaqsız çöllərindən qovulmuş Fransa müstəmləkəçiləri bu gün Yaxın Şərqdə səlib yürüşünə başlayıb. Bu səlib yürüşünün qarşısında isə əzəmətli Türkiyə var. Bu gün Paris bütün resurslarını Türkiyəyə qarşı yönəldib. Türkiyənin haqq səsinə qarşı yunanları hər vasitə ilə dəstəkləyən makronlar-makranyanlar bu gün burunlarını Qafqaza soxmaq istəyirlər. Ancaq unutmasınlar, Azərbaycan öz haqq işi uğrunda müharibə aparır. Azərbaycan öz torpaqlarını havadarlarının kimlərin olmasından asılı olmayaraq, mənfur ermənilərdən azad edəcəkdir.

Məkkə, Mədinə müsəlman dünyası üçün nə deməkdirsə, Şuşa, Ağdam, Füzuli, Xankəndi bizim üçün, Türk dünyası üçün o mənanı daşıyır. Bu gün Şuşa bizim Məkkəmiz, Xankəndi Mədinəmizdir. Azərbaycan əsgəri hələ də qanı axan, yarası qaysaq bağlamayan Xocalının qisasını alacaqdır. Şanlı Azərbaycan əsgəri Ağdamımızın qürurunu özünə qaytaracaq, Şuşamızda muğam səslənəcəkdir.

Hər bir azərbaycanlı Azərbaycanın Birinci xanımı Mehriban Əliyevanın "Qoy, Uca Tanrı hər bir azərbaycanlıya müqəddəs Qarabağ torpağını öpməyi nəsib etsin!" arzusunun çox da uzaqda olmadığına əmindir.

Qoy, makronlar, petrosyanlar, paşinyanlar və başqa "yanlar" da tam əmin olsunlar: Murov yüksəkliklərində üçrəngli bayrağımızın əzəmətlə dalğalandığı İlham Əliyev Zirvəsi hər bir türkün ziyarətinə gedəcəyi müqəddəs məkan olacaqdır.




## Ermənistan Azərbaycanın həyata keçirdiyi qlobal layihələrə dalandan baxır

**Prezident İlham ƏLİYEV:** "Ermənistanı bu enerji və nəqliyyat layihələrindən biz təcrid etmişik... Torpaqlarımızdan çıxmayana qədər bu vəziyyət belə də olacaq"

**Hər sahədə "qəhrəman" kimi görünməyə can atan Ermənistan öz iqtisadiyyatına aid saxta rəqəmlər açıqlayır, Azərbaycanın nailiyyətlərinə kölgə salmaq məqsədilə yalan məlumatlar yayır. Bu da təəccüblü deyil. Çünki qonşu ölkənin nəfəsi daim yalanla gedib-gələn rəhbərliyi şər atmağı, böhtan yağdırmağı az qala peşə kimi mənimsəyib.**

Əslində isə, Ermənistan sosial-iqtisadi sahədə böyük gerilik yaşayan, inkişafdan kənarda qalan, sakinləri dəstələrlə köçüb başqa məmləkətlərə gedən bir ölkədir.

Təkcə o faktı qeyd etmək kifayətdir ki, bu ölkə regionda həyata keçirilən qlobal layihələrin heç birinin iştirakçısı deyil. Öz xislətinə görə bu layihələrin hamısından qıraqda qalıb. Neft, qaz ixracı marşrutları, dəmiryolu xətləri, nəqliyyat dəhlizləri Ermənistandan yan keçir. Bir sözlə, Ermənistan bu sahədə də çıxdaş olan bir ölkədir.

Azərbaycan dünya əhəmiyyətli nəhəng layihələr həyata keçirib və bu istiqamətdə işləri uğurla davam etdirir. Hələ keçən əsrin sonunda Bakı-Novorossiysk, Bakı-Supsa kimi neft kəmərlərini işə saldı. Ardınca üçüncü minilliyin nəhəng mühəndis qurğusu olan Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft kəmərini çəkdi. Azərbaycanın, Gürcüstanın və Türkiyənin ərazisində 1768 kilometr məsafə boyu uzanan bu kəmər Xəzərin ölkəmizə məxsus sektorundan çıxarılan nefti dünya bazarlarına çatdırır.

BTC bütün regiona xeyir-bərəkət gətirən kəmərdir və belə bir xəttin Ermənistandan yan keçməsi bu ölkənin həm siyasi imicinə, həm də əhalisinin güzəranına böyük zərbədir.

Ermənistan eləcə də Bakı-Tbilisi-Ərzurum qaz kəməri layihəsindən kənarda qaldı. Təbii ki, bundan sonra çəkilən müxtəlif təyinatlı xətlər də oradan yan keçdi.

Azərbaycan qonşu Gürcüstan və Türkiyə ilə birlikdə Bakı-Tbilisi-Qars dəmir yolunu çəkdi. "Şərq-Qərb" nəqliyyat dəhlizinin tərkib hissəsi olan bu yolla daşımalar ildən-ilə artır.

Ölkəmiz Rusiya və İranla "Şimal-Cənub" nəqliyyat dəhlizi üzrə uğurlu iş aparır. Bu dəhlizin fəaliyyətinin daha səmərəli olması üçün növbəti addımlar atılır.

Ermənistan isə bütün bu nəhəng işlərə kənardan, düşdüyü iqtisadi dalandan seyrçi kimi baxır. Səbəb aydındır. Prezident İlham Əliyev bu barədə belə demişdir: "Ermənistanı bu enerji və nəqliyyat layihələrindən biz təcrid etmişik və bunu heç vaxt gizlətməmişik. Mən hələ bir neçə il bundan əvvəl demişdim ki, biz Ermənistanı regionda bizim iştirakımızla reallaşdırılan bütün önəmli layihələrdən təcrid edəcəyik və biz buna nail olduq, həmişə olduğu kimi, sözümüzə sadiq qaldıq. Ermənistan bu gün bizim səylərimiz nəticəsində siyasi, iqtisadi, investisiya, enerji və nəqliyyat dalanıdır. Torpaqlarımızdan çıxmayana qədər bu vəziyyət belə də olacaq. Beləliklə, Ermənistan rəhbərliyi növbəti dəfə saxta məlumat əsasında Ermənistanı Azərbaycanla müqayisə etmək istəsə, yaxşı fikirləşsin. Çünki idman dili ilə desək, Azərbaycan ali liqada, Ermənistan isə üçüncü liqadadır və getdikcə bu fərq daha da böyüyəcək".

Regional və qlobal layihələrdən kənarda qalması Ermənistanın iqtisadiyyatına böyük zərbə vurur. Keçən ilin yekunlarına görə, Azərbaycanda yoxsulluğun səviyyəsi 4,5 faiz olduğu halda, Ermənistanda 24 faiz, yəni 5 dəfə çox olmuşdur. Getdikcə müflisləşən bu ölkə sosial-iqtisadi cəhətdən o qədər acizdir ki, döyüşçü kimi özgə torpağına gətirdiyi və urvatsız ölümünə bais olduğu əsgərlərin ailələrinə yardım da edə bilmir. Təkcə onu demək kifayətdir ki, hələ indiyədək Ermənistan rəhbərliyi Qarabağda öldürülən bir əsgərin, yaxud zabitin ailəsinə mənzil verə bilməyib. Daha doğrusu, orada belə bir proqram heç mövcud deyil. Başqa yardım və köməklərdən də danışmağa dəyməz.

Bir daha vurğulayaq ki, Azərbaycan mükəmməl beynəlxalq əməkdaşlıq və tərəfdaşlıq platforması yaradıb. Ölkəmiz bir çox qlobal layihələrin təşəbbüsçüsüdür və onları həmin əməkdaşlıq və tərəfdaşlıq şəraitində uğurla həyata keçirir. Ermənistan isə özünün saysız-hesabsız səhvləri və günahları ucbatından bu platformadan kənarda qalıb. Prezident İlham Əliyevin dediyi kimi: "Biz qonşularla dostuq, əməkdaşlıq, səmimiyyət əsasında münasibətləri qurmuşuq və məhz buna görə bu layihələrə nail olmuşuq. Ermənistan isə əsrlər boyu qonşulara xor gözlə baxır, qonşulardan nəsə qoparmaq istəyir, onların torpağına iddia edir, tarixi saxtalaşdırır və özünün küləşdirməyə cəhd edir. Fərq bundan ibarətdir".

*Flora SADIQLI, "Azərbaycan"*

## Bu gün Azərbaycanda hamı bir candır



**XX əsr Azərbaycan tarixində 1918-ci il Azərbaycan xalqının taleyində həlledici sayılan hadisələr baxımından yəqin ki, ən əhəmiyyətli zaman kəsiyidir. Bu hadisələrin ən yüksək zirvəsi 1918-ci il mayın 28-də Azərbaycanın dövlət müstəqilliyinin elan edilməsidir.**

Lakin 1918-ci ilin əlamətdar hadisələrindən əvvəl bütün Azərbaycan xalqı üçün ümumi faciəyə çevrilmiş, hətta onun mövcudluğunu şübhə altında qoymuş hadisələr baş vermişdir. Azərbaycanın bir çox qəzalarında bolşevik adı ilə daşnak erməni vandalları tərəfindən minlərlə dinc sakin soyqırımlara məruz qalmış və işgəncələrlə, insanlığa sığmayan min bir müsibətlərlə qətlə yetirilmişlər. Bolşevik-erməni silahlı dəstələrinin Azərbaycan torpaqlarında həyata keçirtdikləri kütləvi etnik təmizləmə və təcavüz siyasəti nəticəsində Bakı, Quba, Şamaxı, Göyçay, Cavad, Salyan, Qarabağ, Zəngəzur, Naxçıvan, Lənkəran və digər bölgələrdə on minlərlə günahsız azərbaycanlılarla yanaşı, öz tarixi torpaqlarında dinc şəkildə yaşayan və müxtəlif tarixi dövrlərdə burada məskunlaşan milli-dini qrupların nümayəndələri - yəhudilər, ləzgilər, tatlar və digər xalqlar da bu taleyi yaşamışlar.

Ümummilli Lider Heydər Əliyevin 26 mart 1998-ci ildə imzaladığı fərmana əsasən, martın 31-i Azərbaycanlıların Soyqırımı Günü elan edilmiş və artıq 22 ildir dünya azərbaycanlıları bu günü xalqımıza qarşı XX yüzilliyin ən faciəli soyqırımı kimi qeyd edirlər.

Soyqırımı Memorial Kompleksinin inşasına 2007-ci ildə - Quba soyqırımı məzarlığı aşkarlandıqdan sonra Prezident İlham Əliyevin 2009-cu il 30 dekabr tarixli sərəncamına əsasən başlanılmış və 2013-cü ildə dövlət başçısının iştirakı ilə açılışı olmuşdur. Xüsusi memarlıq üslubu ilə inşa edilmiş və müasir standartlara cavab verən kompleks istifadəyə verildiyi gündən bu günədək yerli və dünyanın müxtəlif ölkələrindən minlərlə ziyarətçi qəbul etmişdir.

Quba müxtəlif milli azlıqların və etnik qrupların qardaş kimi yaşadığı rayondur. Tarixboyu bu xalqlar doğma yurd, vətən uğrunda birlik nümayiş etdirmiş, lazım gəldikdə yağı düşmənlə mübarizə aparmış və son damla qanlarınadək vuruşmağı müqəddəs borcları bilmişlər. 1918-ci ildə bolşevik adı ilə erməni daşnaklar tərəfindən Azərbaycanın müxtəlif bölgələrində, o cümlədən Quba qəzasında dinc sakinlərə qarşı soyqırımı törədilərkən yerli xalqlar - yəhudi, tat, ləzgi, qrız, haput və digərləri amansiz vəhşiliklərə məruz qalmışlar. Yerli qüvvələr bu cür maskalanmış bolşeviklərə qarşı mübarizə apararkən həmin qüvvələrin tərkibində müxtəlif etnik qrupların nümayəndələri də birgə döyüşmüşlər.

Birinci Qarabağ savaşında da Qubada yaşayan milli azlıqlar və etnik qrupların nümayəndələri ilk gündən erməni vandallarının hücumlarının qarşısını almaq məqsədilə könüllü müharibəyə getmiş və şəhidlik zirvəsinə yüksəlmişlər. Qubada yaşayan dağ yəhudilərinin igid oğlu Albert Aqarunov və digərlərinin qəhrəmanlıqları hər birimizə bəllidir. Çünki hamı - millətindən asılı olmayaraq Azərbaycana Vətən, torpağına Ana deyir. Öz sinəsini kürəyi əvəzinə, bu torpağa uzanan əllərə, güllələrə sipər edən oğulları olan Vətən isə heç vaxt basılmaz.

Sentyabrın 27-də ermənilərin təxribatçı hücumları ilə başlanan ikinci Qarabağ savaşının ilk saatlarından etibarən hər bir azərbaycanlı kimi, qubalılar da Ali Baş Komandana və Şanlı Ordumuza yüksək inamlarını nümayiş etdirirlər. Yaşından, milliyyətindən asılı olmayaraq hamı axın-axın Hərbi Səfərbərlik üzrə Dövlət Xidmətinin Quba şöbəsinə gedir və könüllü surətdə cəbhəyə getmək və işğalda olan doğma torpaqlarımızı azad etmək əzmində olduqlarını bildirirlər. Qeyd edim ki, onların sıralarında mən də varam və mənim kimi onlarca xanım bu savaşda iştirak etməyi özünə Vətən borcu bilir.

Bu gün Qubada yaşayan bütün xalqlar Ali Baş Komandanın ətrafında sıx birləşib. Hər kəs mənsub olduğu torpağa layiq olmağa çalışır. Böyükli-kiçikli hamı qələbəyə yardım etməyə çalışır. Dağ kəndlərində yaşayan insanlar əsgərlərimizə yardım etmək üçün əlaqədar orqanlara müraciət edirlər.

İnanırıq ki, tezliklə işğal olunmuş torpaqlarımız düşmən tapdağından azad olunacaq! Yaşadığımız bu günlər isə şanlı tarix kimi gələcək nəsillərə çatdırılacaq. Ali Baş Komandan İlham Əliyevin dediyi kimi, "Biz haqlıyıq! Biz haqq yolundayıq! Qarabağ Azərbaycandır!"

*Rəxşəndə BAYRAMOVA,*
*Quba Soyqırımı Memorial Kompleksinin direktoru,*
*tarix üzrə fəlsəfə doktoru*

# Dağıdılan, talan edilən maddi-mədəniyyət və dini abidələrimiz

## Ermənistan bu vandalizmə görə beynəlxalq hüquq müstəvisində məsuliyyətə cəlb olunmalıdır







**"...Bizim işğal edilmiş bəzi ərazilərimizdə Ermənistan qanunsuz məskunlaşma aparıbdır. Bizim rayonlarımızın, kəndlərimizin adları dəyişdirilir. Azərbaycanlıların tarixi irsi silinir. Bizim tarixi abidələrimiz dağıdılır. Azərbaycan məscidləri dağıdılır, təhqir edilir. Bizim məscidlərimizdə Ermənistan inək, donuz saxlayır. Bu, bütün müsəlman aləminə ən böyük təhqirdir. Bizim əcdadlarımızın qəbirləri traktorla dağıdılır. Bunu edən faşistlərdir, vandallardır, vəhşilərdir".**

Azərbaycan Prezidenti İlham Əliyev 27 sentyabrda xalqa müraciətində belə deyib.

Azərbaycanın mədəni irsi bəşər mədəniyyətinin ayrılmaz tərkib hissəsidir. Odur ki, ölkəmizin ərazisində xalqımızın çoxəsrlik tarixi keçmişindən yadigar qalmış mədəniyyət abidələrinin mühafizəsi beynəlxalq əhəmiyyət kəsb edir. Bəşəri dəyərlərdən uzaq olan erməni vandalları isə iki əsrdən artıqdır ki, Azərbaycana qarşı məkrli planlar qurur və əllərinə fürsət düşdükcə həyata keçirməyə cəhd göstərirlər. İki yüz ildən çoxdur ki, xalqımıza qarşı davam edən erməni təcavüzünün qurbanları təkcə soydaşlarımız, yurddaşlarımız deyil, həm də yaşı minilləri ötən tarixi-mədəni abidələrimiz, müqəddəs ocaqlarımız və məbədlərimizdir. Elə təkcə bir tarixə nəzər salaq. Ötən XX əsrin sonlarında xarici havadarlarından güc alan erməni qəsbkarları qədim Azərbaycan torpaqları hesabına yenidən öz ərazilərini genişləndirmək məqsədilə təxribatlar törətməyə başladılar. Münaqişəni getdikcə alovlandırdılar. Nəticədə tarixin müxtəlif dönəmlərində hiylə və işğal yolu ilə mənimsədikləri əzəli torpaqlarımızda yaratdıqları Ermənistandan yerlu əhalini didərgin saldılar. Həmin ərazilərdən Azərbaycanın və azərbaycanlıların izlərini silmək üçün qədim abidələrimizi dağıtdılar, yaxud təmir adı ilə saxtalaşdırdılar. İrəvanda Dəmir Bulaq məscidi bu səbəbdən məhv edildi, Göy məscid isə orijinal görünüşünü dəyişdirilmək məqsədilə yenidən təmir olundu. Dağıdılmış memarlıq abidələri arasında İrəvan şəhərində XIX əsrin ikinci yarısında tikilmiş Hacı Novruz Əli məscidi və İrəvan xanları saray kompleksi də var. İrəvanın mərkəzindəki Sərdar məscidi də sistemli şəkildə dağıdıldı. 2014-cü ildə yerləyeksan edildi.

Ermənistan bununla kifayətlənmədi, işğalçı siyasətini davam etdirdi, hərbi qüvvələri tərəfindən Dağlıq Qarabağ işğal olundu. Erməni vandalları otuz ilə yaxındır ki, ələ keçirdikləri ərazilərimizdə tarixi abidələrimizin qəsdinə durublar. Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində ələ keçirdiyi ərazilərdə yerləşən mədəniyyət abidələrimizə böyük ziyan dəyib. Belə ki, işğal edilmiş ərazilərdəki yaşayış evləri, təhsil, sənaye və kənd təsərrüfatı obyektləri ilə yanaşı, yüzlərlə mədəniyyət müəssisəsi, o cümlədən, 4,6 milyon kitab fondu olan 927 kitabxana, 808 mədəniyyət sarayı, klub və mədəniyyət evi, 85 musiqi və rəssamlıq məktəbi, 100 mindən artıq eksponatın toplandığı 22 muzey və muzey filialı, dörd rəsm qalereyası, dörd teatr müəssisəsi, iki konsert müəssisəsi, səkkiz mədəniyyət və istirahət parkı, Qarabağ münaqişəsinə qədər dövlət qeydiyyatına alınan 700-dən artıq tarix və mədəniyyət abidəsi, o cümlədən, Cəbrayıl rayonunda 11 və 15 aşırımlı Xudafərin körpüləri (VII-XII əsrlər), Kəlbəcər rayonunda Gəncəsar və Xudavənd məbədləri (XIII əsr), Ağdam rayonunun Xaçın Türbətli kəndində məqbərə (XIV əsr), Füzuli rayonu ərazisində dünyanın ən qədim sakinlərinin yaşayış məskənlərindən biri - Azıx mağarası, Şuşa Dövlət Tarix-Memarlıq Qoruğu erməni vandalizminin qurbanına çevrilib. Həmin abidələrdəki qiymətli əşyalar və sənət əsərləri maşınlara yüklədilərək Ermənistana daşınıb.

Ermənistanın otuz ilə yaxındır ki, işğal altında saxladığı torpaqlarımız Azərbaycanın Şanlı Ordusunun gücü və qüdrəti ilə geri qaytarılacaq. Artıq hər bir azərbaycanlının ən böyük sevinci, qüruru olan Qələbə xəbərləri gəlməkdədir. Xalq torpaqlarımızın düşmən işğalından tamamilə azad ediləcəyi günü inamla gözləyir. Ölkə rəhbərinin xalqa müraciətində bildirdiyi kimi: "Tarixi ədalət bizim tərəfimizdədir. Çünki bu, bizim doğma, dədə-baba torpağımızdır. Beynəlxalq hüquq bizim tərəfimizdədir. Bütün beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Beynəlxalq təşkilatlar çərçivəsində qəbul edilmiş qərar və qətnamələr Dağlıq Qarabağın Azərbaycana məxsus olduğunu açıq-aydın təsbit edir. BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsində deyilir ki, erməni silahlı qüvvələri dərhal, tam və qeyd-şərtsiz işğal edilmiş torpaqlardan çıxarılmalıdır. Otuz ilə yaxındır ki, bu qətnamələr kağız üzərində qalır. Otuz ilə yaxındır ki, Minsk qrupu çərçivəsində danışıqlar aparılır və bunun sonunda Ermənistan müntəzəm olaraq hərbi təxribatlar törətməklə danışıqlar prosesini iflic vəziyyətə salıbdır. BMT-dən başqa, bütün digər aparıcı beynəlxalq təşkilatlar bizim haqlı mövqeyimizi müdafiə edir. Qoşulmama Hərəkatı BMT-dən sonra ikinci ən böyük beynəlxalq təsisatdır ki, bu gün Azərbaycan bu təsisata sədrlik edir. Onlar münaqişə ilə bağlı ədalətli qətnamə qəbul etmişlər. İslam Əməkdaşlıq Təşkilatı ədalətli qətnamələr qəbul etmişdir. ATƏT-in qərarları, Avropa Parlamentinin qətnamələri bizim mövqeyimizi dəstəkləyir. Bizim mövqeyimiz beynəlxalq hüquqa və ədalətə əsaslanır".

Azərbaycanın ərazi bütövlüyünü müdafiə edən Ordumuz düşmənə sarsıdıcı zərbələr endirir. Torpaqlarımızın geri alınacağı günlər uzaqda deyil. Təəssüf ki, Azərbaycanın tarixi abidələrinə erməni vandallarının vurduqları zərərin aradan qaldırılması çətin, bəzi hallarda hətta mümkünsüz olacaqdır.

Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərində mədəni irsin məhv edilməsinə və saxtalaşdırılmasına yönələn qanunazidd əməlləri beynəlxalq konvensiyalarda bəşəri cinayət kimi qiymətləndirilir. Ermənistan bu cinayət əməlləri ilə - Azərbaycan torpaqlarında özbaşınalığı, tarixi-dini abidələrimizi dağıtmaları və qəsdən korlamaları, saxtakarlıq etmələri beynəlxalq səviyyədə təsbit olunmuş "Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında" 1954-cü il Haaqa Konvensiyasının, "Arxeoloji irsin mühafizəsi haqqında" 1992-ci il Avropa Konvensiyasının və "Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında" UNESKO-nun 1972-ci il Konvensiyasının tələblərini pozub. Nəzərə alınmalıdır ki, bəşər sivilizasiyasının mərkəzlərindən biri kimi, Azərbaycanın qədim maddi-mədəniyyət və dini abidələrinin dağıdılması, talan edilməsi, mənimsənilməsi, mənşəyi və təyinatının dəyişdirilməsi Ermənistan tərəfindən uzun illər planlı şəkildə həyata keçirilib. Bu əməllərinə görə Ermənistan beynəlxalq hüquq çərçivəsində cavab verməli, məsuliyyətə cəlb olunmalıdır.

*Zöhrə FƏRƏCOVA, "Azərbaycan"*

# Yeni Azərbaycan Partiyasının üzvləri Silahlı Qüvvələrə Yardım Fonduna 100 min manat vəsait köçürüb

Yeni Azərbaycan Partiyasının üzvləri Silahlı Qüvvələrə Yardım Fonduna 100 min manat vəsait köçürüb.

AZƏRTAC-a bu barədə Yeni Azərbaycan Partiyasının Mətbuat xidmətinin rəhbəri Hüseyn Paşayev məlumat verib.

Hüseyn Paşayev Yeni Azərbaycan Partiyasının bu vətənpərvər aksiyası barədə danışarkən qeyd edib ki, Azərbaycan Ordusu doğma Qarabağın işğaldan azad olunması istiqamətində rəşadətli döyüşlər aparır. O deyib: "Yaxın zamanlarda qəhrəman əsgərlərimizin torpaqlarımızın işğaldan təmizlənməsi sevincini bütün xalqımıza ərməğan edəcəyinə dərindən inanırıq. Azərbaycan Ordusunun gücü Ali Baş Komandanın müdrikliyində və iradəsində, əsgərlərimizin qəhrəmanlığında və yüksək döyüş ruhunda olduğu kimi, həm də xalqın sarsılmaz dəstəyindədir. Bu gün hamı Ordumuzla birdir, bir yerdədir, hər addımda ona mənəvi dəstəyini ifadə edir. Yeni Azərbaycan Partiyasının üzvləri də xalqımızın Ordumuza hərtərəfli dəstəyinə qoşularaq, Silahlı Qüvvələrə Yardım Fonduna 100 min manat məbləğində vəsait köçürməyi qərara alıb. Azərbaycan Ordusu dünyanın ən təminatlı, ən yaxşı silahlanmış orduları sırasındadır. Dövlətimizin iqtisadi qüdrəti Ordumuzun təminatını ən yüksək səviyyədə həyata keçirməyə imkan verir. İnsanlarımızın hazırda geniş vüsət alan Silahlı Qüvvələrə dəstək hərəkatı Ordu ilə xalqın birliyinin ifadəsi, əsgərimizə mənəvi dəstək nümunəsidir.

Qarabağ Azərbaycandır!

Qələbə də Azərbaycanın olacaq!"

# Konstitusiya Məhkəməsi Silahlı Qüvvələrə Yardım Fonduna dəstək kampaniyasına qoşulub

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimləri və Aparatın əməkdaşları Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızın işğaldan azad olunması, ölkəmizin ərazi bütövlüyünün qorunması uğrunda mübarizə aparan ordumuza dəstək aksiyasına qoşulub.

AZƏRTAC Konstitusiya Məhkəməsinin saytına istinadla xəbər verir ki, Məhkəmə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimlərinin və Aparat əməkdaşlarının əməkhaqlarından 100 min manat məbləğində vəsaitin Silahlı Qüvvələrə Yardım Fonduna ianə olunması barədə qərar qəbul edib.

# Azərbaycan Avtomobil Federasiyası Milli Orduya dəstək olaraq "Pikap" tipli avtomobillər təqdim edib

Azərbaycan Avtomobil Federasiyası Ermənistanın sentyabrın 27-dən başlayan təxribatlarına qarşı hərbi əməliyyatlar aparan Azərbaycan Ordusuna, ərazilərimizin bütövlüyü uğrunda döyüşən hərbçilərimizə dəstək məqsədilə ordu qərargahına yüksək keçidli avtomobillər kateqoriyasına aid, texniki imkanları hərbi nəqliyyat vasitələrinə uyğun olan "Pikap" tipli avtomobillər təqdim edib.

Federasiyadan AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Ordusunun maddi-texniki bazasının gücləndirilməsinə, eləcə də düşmənə qarşı son günlər aparılan uğurlu hərbi əməliyyatlara töhfə vermək üçün 10 ədəd "Pikap" tipli avtomobil ön cəbhədə yolsuzluq şəraitində istifadə məqsədilə təhvil verilib.

# Azərbaycanda koronavirus infeksiyasından daha 149 nəfər sağalıb, 144 yoluxma faktı qeydə alınıb

**Azərbaycan Respublikasında koronavirus infeksiyasından daha 149 nəfər sağalıb, 144 yeni yoluxma faktı qeydə alınıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 1 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 40 min 453 nəferin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 38 min 217 nəfər müalicə olunaraq sağalıb, 594 nəfər vəfat edib. Aktiv xəstə sayı 1642 nəfərdir.

Ötən müddət ərzində 1 milyon 126 min 538 test aparılıb. Dünənki test sayı isə 5248-dir.




## "Bakı Metropoliteni" QSC Bakı Metropoliteninin III yeni (Bənövşəyi) xəttinə aid "Xocasən" elektrik deposunun "Blok post" binasında, 1 və 2 saylı Nəzarət Buraxılış Məntəqələrində qapı və pəncərə sistemlərinin hazırlanıb quraşdırılması işlərinin satın alınması üzrə

### *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir: **Bakı Metropoliteninin III yeni (Bənövşəyi) xəttinə aid "Xocasən" elektrik deposunun "Blok post" binasında, 1 və 2 saylı Nəzarət Buraxılış Məntəqələrində qapı və pəncərə sistemlərinin hazırlanıb quraşdırılması işlərinin satın alınması**

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal)** elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını yalnız "ASAN Ödəniş" vasitəsilə həyata keçirdikdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu **https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə** adıçəkilən tender bölməsində əldə edə bilərlər. Əlaqələndirici şəxs: Rauf Yusifov, telefon:490-01-01.

**İştirak haqqı - 250 manat**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **23 oktyabr 2020-ci il saat 14:30-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **02 noyabr 2020-ci il saat 14:30-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **03 noyabr 2020-ci il saat 14:30-da** açılacaqdır.

İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidmətinin Protez Ortopedik Bərpa Mərkəzi 2020-ci il üçün dəftərxana ləvazimatlarının satın alınması ilə əlaqədar

### *kotirovka sorğusu elan edir*

Kotirovka proseduru 07 oktyabr 2020-ci il saat 17:30-da Protez-Ortopedik Bərpa Mərkəzində keçiriləcəkdir. Ünvan: S.Ə.Şirvani küçəsi 3.

**Kotirovkada iştirak etmək üçün aşağıdakı sənədlər təqdim edilməlidir:**

1. Azərbaycan Respublikasında və iddiaçıların öz öhdəliklərində vergilərə və dığər icbari ödənişlərə dair təmin edilməmiş öhdəliklərin olmaması haqqında arayış
2. İddaçının hüquqi statusunu təsdiq edən sənədlər, notarius tərəfindən təsdiq olunmuş
3. Kotirovka üçün qiymət təklifləri
4. Qeyd olunan sənədlərin **07 oktyabr 2020-ci il saat 10:00-a** kimi Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Ağentliyinin Protez Ortopedik Bərpa Mərkəzində yaradılmış Tender Komissiyasına təqdim olunması təmin edilməlidir.

İddiaçının hazırladığı kotirovka təklifi zərfə qoyulmalı və bağlı tərəfi iddiaçı tərəfindən imzalanıb möhürlənməlidir.

Kotirovka təklifləri açıldığı gündən sonrakı 30 bank günü ərzində qüvvədə olmalıdır.

Kotirovka təkliflərinin qəbulu və əlavə məlumat almaq üçün Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidmətinin Protez Ortopedik Bərpa Mərkəzində yaradılmış Tender Komissiyasının sədrinə və yaxud əlaqələndiricisinə müraciət edə bilərlər.

Tel.: mob.: (+99455) 999-41-09: email: pobm@mlspp.gov.az

Təsərrüfat mallarının satınalınmasının həyata keçirilməsi bu dəvətnaməyə əlavə edilən əsas şərtlər toplusuna əsasən aparılmalıdır.

Kotirovkada qələbə üçün əsas şərt Dəftərxana ləvazimatlarının satın alınması qiyməti, keyfiyyəti və təhvil verilmə müddəti, təşkilatın aidiyyəti işlərdə təcrübəsi, istehsalçı olması, ixtisaslı kadrların mövcudluğu və professionallığı, maliyyə imkanları hesab olunur.

***Tender komissiyası***

## Mənəvi Dəyərlərin Təbliği Fondu "Mənəvi dəyərləri təbliğ edən, dini təyinatlı və maarifləndirici ədəbiyyatların çap edilməsi" işlərinin satın alınması üçün

### *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını Portalda qeyd edilmiş bank hesabına köçürdükdən sonra müsabiqə üzrə əsas şərtlər toplusunu əldə edib iddiaçı olaraq qeydə alındıqdan sonra təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Tenderdə iddiaçı kimi iştirak etmək istəyənlər aşağıdakı sənədləri təqdim etməlidirlər:

***1. Təşkilati və hüquqi sənədlər:***
- *Qeydiyyatdan keçdiyi ölkə (reyestrdən çıxarış notarial təsdiqlə);*
- *Fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (müvafiq vergi orqanının təsdiqi ilə);*
- *Rekvizitlər (bankın imza və möhürü ilə);*
- *Maliyyə vəziyyəti haqqında bank arayışı (bankın imza və mühürü ilə);*
- *Vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında arayış (müvafiq vergi orqanından arayış);*
- *Son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (müvafiq vergi orqanından arayış);*
- *Nizamnamə (notarial təsdiqlə).*

***2. İxtisas göstəriciləri:***
- *İddiaçının cəlb edildiyi məhkəmə işləri (araşdırmaları) haqqında məlumat (Ədliyyə Nazirliyindən arayış);*
- *İxtisas göstəriciləri barədə sənədlər (müvafiq vergi orqanından arayış);*
- *Analoji işlərdə təcrübə (görülmüş işlər haqqında məlumat).*

***3. Tender təklifi:***

***a) Texniki təklif***
- *Kadr potensialı barədə məlumat (müvafiq vergi orqanından arayış);*
- *Lazımi avadanlıqlar barəsində məlumat (arayış).*

***b) Qiymət təklifi***
- *Qiymət təklifi (zərflərin açılışından sonra 30 bank günü);*
- *Təklifin təminatı 1 faiz (zərflərin açılışından sonra 60 bank günü).*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün təşkilati, hüquqi və ixtisas göstəricilərinə dair sənədləri **21.10.2020-ci il saat 11:00-a** qədər, tender təklifinə daxil olan tenderin texniki təklifi və bank təminatı sənədlərini **30.10.2020-ci il saat 10:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **30.10.2020-ci il saat 11:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

İddiaçılar əsas şərtlər toplusunu **02 oktyabr saat 09:00-dan** sonra əldə edə bilərlər.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidmətinin Protez Ortopedik Bərpa Mərkəzi 2020-ci il üçün təsərrüfat mallarının satın alınması ilə əlaqədar

### *kotirovka sorğusu elan edir*

Kotirovka proseduru 07 oktyabr 2020-ci il saat 17:00-da Protez Ortopedik Bərpa Mərkəzində keçiriləcəkdir. Ünvan: S.Ə.Şirvani küçəsi, 3.

**Kotirovkada iştirak etmək üçün aşağıdakı sənədlər təqdim edilməlidir:**

1. Azərbaycan Respublikasında və iddiaçıların öz öhdəliklərində vergilərə və dığər icbari ödənişlərə dair təmin edilməmiş öhdəliklərin olmaması haqqında arayış
2. İddaçının hüquqi statusunu təsdiq edən sənədlər, notarius tərəfindən təsdiq olunmuş
3. Kotirovka üçün qiymət təklifləri
4. Qeyd olunan sənədlərin **07 oktyabr 2020-ci il saat 10:00-a** kimi Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Ağentliyinin Protez Ortopedik Bərpa Mərkəzində yaradılmış Tender Komissiyasına təqdim olunması təmin edilməlidir.

İddiaçının hazırladığı kotirovka təklifi zərfə qoyulmalı və bağlı tərəfi iddiaçı tərəfindən imzalanıb möhürlənməlidir.

Kotirovka təklifləri açıldığı gündən sonrakı 30 bank günü ərzində qüvvədə olmalıdır.

Kotirovka təkliflərinin qəbulu və əlavə məlumat almaq üçün Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidmətinin Protez Ortopedik Bərpa Mərkəzində yaradılmış Tender Komissiyasının sədrinə və yaxud əlaqələndiricisinə müraciət edə bilərlər.

Tel.: mob.: (+99455) 999-41-09: email: pobm@mlspp.gov.az

Təsərrüfat mallarının satın alınmasının həyata keçirilməsi bu dəvətnaməyə əlavə edilən əsas şərtlər toplusuna əsasən aparılmalıdır.

Kotirovkada qələbə üçün əsas şərt Təsərrüfat mallarının satın alınması qiyməti, keyfiyyəti və təhvil verilmə müddəti, təşkilatın aidiyyəti işlərdə təcrübəsi, istehsalçı olması, ixtisaslı kadrların mövcudluğu və professionallığı, maliyyə imkanları hesab olunur.

***Tender komissiyası***

## "Azərsu" ASC daxili vəsaiti hesabına elektron satınalma vasitəsilə modul tipli qurğularda təmir-bərpa işlərinin satın alınması məqsədilə

### *açıq tender elan edir*

Malgöndərənlər (podratçılar) dövlət satınalmalarının **https://www.etender.gov.az** vahid internet Portalından tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir:

- tender predmeti üzrə oxşar təcrübənin mövcudluğu və aşağı qiymət.

Malgöndərənlər (podratçılar) aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra tenderin əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet Portalından əldə edə bilərlər.

**Tenderdə iştirak haqqı 200 manatdır.**

**Təşkilat- "Azərsu" ASC**
**VÖEN: 9900001751**
**Bank: "Kapital Bank" ASC-nin 1 saylı Nəsimi filialı**
**Kod: 200112**
**VÖEN: 9900003611**
**M/h: AZ37NABZ 01350100000000001944**
**S.W. I. F. T. BIK: AIIBAZ2X**
**H/h: AZ65AIIB 33070019441100216111**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət (Tender komissiyasının adına);*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *malgöndərənlərin (podratçıların) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*
- *malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **23 oktyabr 2020-ci il saat 18:00-a,** tender təklifi və bank təminatını isə **02 noyabr 2020-ci il saat 18:00-a** qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər.

Elektron satınalmanın açılışı **03 noyabr 2020-ci il saat 18:00-da** dövlət satınalmalarının vahid internet Portalında həyata keçiriləcəkdir.

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

## ALLAH RƏHMƏT ELƏSİN!

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi cəmiyyətin əməkdaşı

**MUXTAR QASIMLININ**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Lənkəran Ağır Cinayətlər Məhkəməsinin sədri Elxan Süleymanov və məhkəmənin kollektivi həmin məhkəmənin hakimi Xamməd Nuriyevə anası

**XANIM xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 7565
Sifariş 2293
Qiyməti 40 qəpik